**AYDIN SƏFİXANLI**

# İNSAN HÜQUQLARININ VƏ ƏSAS AZADLIQLARININ MÜDAFİƏSİ HAQQINDA AVROPA KONVENSİYASINDA İNSAN HÜQUQ VƏ AZADLIQLARI İLƏ BAĞLI MÜDDƏALARIN AZƏRBAYCAN RESPUBLİKASININ QANUNVERİCİLİK SİSTEMİNDƏ TƏSBİTİ

AZƏRBAYCAN RESPUBLİKASININ İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİ (OMBUDSMAN), PROFESSOR ELMİRA SÜLEYMANOVANIN ÜMUMİ REDAKTƏSİ İLƏ

**BAKI-2003**

BBK 12.3
S-49

Rəyçi:
Azərbaycan Respublikası Milli Məclisi Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin müdiri, hüquq elmləri namizədi Səfərov Nizami.

S-49 Aydın Səfixanlı. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa konvensiyasında insan hüquq və azadlıqları ilə bağlı müddəaların Azərbaycan Respublikasının qanunvericilik sistemində təsbiti. Bakı, Azərnəşr, 2003, 128 səh.

ATƏT-in maliyyə dəstəyi ilə dərc edilən bu kitabda insan hüquq və azadlıqları sahəsində özündə mühüm normaları təsbit edən «İnsan hüquq və əsas azadlıqları haqqında» Avropa Konvensiyasında və Konvensiyaya edilən əlavə Protokollarda müəyyən edilmiş müddəaların Azərbaycan Respublikasının Qanunvericilik sistemində təsbiti ilə bağlı araşdırmalar aparılmışdır.

Aparılan araşdırmalarda «İnsan hüquqları və əsas azadlıqları haqqında» Avropa Konvensiyası və Konvensiyaya əlavə Protokolları və Azərbaycan Respublikasının Qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar daxil olmaqla 35-ə qədər normativ hüquqi aktlardan istifadə edilmişdir.

Kitab hüquqşünasların, insan hüquq və azadlıqlarının qorunması sahəsində çalışan dövlət orqanlarının əməkdaşlarının, insan hüquq və azadlıqları problemləri ilə məşğul olan qeyri-hökumət təşkilatlarının, habelə təhsil müəssisələrinin istifadəsi üçün nəzərdə tutulub.

S-49 $\frac{1203000000}{M\,6519(07)-2003}$ qrifli nəşr

© Aydın Səfixanlı 2003

# ÖN SÖZ

Avropada mövcud olan insan hüquqlarının müdafiəsi mexanizminin əsasını «İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında» 1950-ci il tarixli Konvensiya təşkil edir. Bu sənədin insan hüquqlarının qorunmasına dair beynəlxalq standartların bərqərar olunması istiqamətində müstəsna rolu olmuşdur. Konvensiyanı hüquqi sənəd kimi bir neçə aspektdən qiymətləndirmək olar.

Birincisi, Konvensiyanın əsasında səmərəli nəzarət mexanizmi fəaliyyət göstərir. Bu mexanizmlərə əsaslanan iştirakçı-dövlətlər, Konvensiyaya və onun əsasında formalaşan presedent hüququna söykənərək bir tərəfdən, milli qanunvericiliyi, digər tərəfdən isə dövlət hüquq təsisatlarının fəaliyyətini təkmilləşdirmək imkanı əldə edir. Qeyd olunan tendensiya Avropa Şurasına daxil olan bütün dövlətlərdə özünü biruzə verir.

İkincisi, nəzərə almaq lazımdır ki, Konvensiyanın milli hüquq instirutlarına təsiri daimi xarakter daşıyır və ümumavropa inteqrasiya prosesində özünü biruzə verir. Azərbaycan Respublikasının qanunvericiliyi ilə Avropa Konvensiyasının qarşılıqlı əlaqələri və qarşılıqlı təsiri buna əyani sübutdur.

Məlum olduğu kimi dövlətimiz 2001-ci il dekabr ayının 25-də Avropa İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyasını təsdiq etmişdir. Avropa Şurasının bu mühüm sənədinə münasibət bildirməklə Azərbaycan mötəbər beynəlxalq təşkilatla sıx əməkdaşlığa hazır olduğunu və insan hüquqldarının qorunması sahəsində öz üzərinə götürdüyü öhdəliklərə sadiqliyini bir daha bəyan etmişdir.

Eyni zamanda nəzərə almaq lazımdır ki, dövlətimiz Avropa Şurasına üzv olmaqdan çox əvvəl insan hüquqlarının qorunması üzrə yeni sistem formalaşdırmağa başlamışdır. Bu proses ölkədə Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin rəhbərliyi altında aparılan hüquq islahatlarının əsas istiqamətlərindən birini təşkil etmişdir.

Heç də təsadüfi deyil ki, Azərbaycan Respublikasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının qorunması ölkə Konstitusiyasının 12-ci maddəsinə əsasən dövlətin ali məqsədi kimi bəyan edilmişdir. Bu müddəaya uyğun olaraq, Azərbaycanda insan hüquqlarının inkişafına və təkmilləşdirilməsinə daima böyük diqqət yetirilir. Digər tərəfdən nəzərə almaq lazımdır ki, Konstitusiyada sadalanan insan və vətəndaş hüquqlarının və azadlıqlarının Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir. Bu sənədlər sırasında həmçinin «Avropa İnsan hüqüqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında» Konvesiya da daxildir.

Konvensiyanın milli qanunvericiliklə qarşılıqlı əlaqələri hazırda inkişaf dövrünü yaşayır. Konvesiyada təsbit olunmuş normalar bir çox hüquq sahələrində əks etdirilir. Bu prosesi əyani surətdə müşahidə etmək üçün Konvensiya ilə milli qanunvericilik aktlarını müqayisəli şəkildə nəzərdən keçirmək kifayətdir. Həmin məqsədlə oxucuların nəzərinə çatdırılan hazırki kitab bu sahədə bilgilərin artmasına yardımçı olacaqdır.

**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)**
***E.Süleymanova***

# GİRİŞ

İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası 1950-ci il noyabrın 4-də Romada Avropa Şurası üzv dövlətləri tərəfindən qəbul olunmuş və 1953-cü il sentyabrın 3-də qüvvəyə minmişdir.

Konvensiya 3 bölmə, 59 maddə və əlavə protokollardan ibarətdir. Konvensiyanın I bölməsi Hüquqlar və azadlıqlar haqqında müddəaları, II bölməsi Avropa İnsan Hüquqları Məhkəməsi haqqında müddəaları, III bölməsi isə ümumi müddəaları təsbit edir.

İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 1 saylı Protokolu 1952-ci il martın 20-də qəbul olunmuşdur. Protokolun mətni 1 noyabr 1998-ci ildə qüvvəyə minmiş 11 saylı Protokolun müddəalarına müvafiq olaraq dəyişdirilib.

İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının Avropa insan hüquqları məhkəməsinə tövsiyə xarakterli qərarlar çıxarmaq səlahiyyətinin verilməsi haqqında 2 saylı Protokolu 1963-cü il 6 may tarixində qəbul edilmişdir.

İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 3 saylı Protokolu 1970-ci il 21 sentyabr tarixində qüvvəyə minmişdir.

İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının Konvensiyaya və onun birinci protokoluna artıq daxil edilənlərdən başqa bəzi hüquq və azadlıqların təmin olunmasına dair 4 saylı Protokolu 1963-cü il 16 oktyabr tarixində qəbul edilmişdir.

İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 5 saylı Protokolu 1971-ci il 20 dekabr tarixində qüvvəyə minmişdir.

İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının Ölüm cəzasının ləğvinə dair 6 saylı Protokolu 1983-cü il 28 aprel tarixində qəbul edilmişdir.

İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 7 saylı Protokolu 1984-cü il 22 noyabr tarixində qəbul edilmişdir.

İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 8 saylı Protokolu 1 yanvar 1990-cı ildə qüvvəyə minmişdir.

İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 9 saylı Protokolu 6 noyabr 1990-cı ildə qəbul edilmişdir. 11 saylı Protokol qüvvəyə mindikdən sonra 9 saylı Protokol qüvvədən düşdü.

İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 10 saylı Protokolu 25 mart 1992-ci ildə qəbul edilmişdir.

İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının Konvensiyaya uyğun olaraq yaradılmış nəzarət mexanizminin yenidən təşkil olunması ilə əlaqədar 11 saylı Protokolu 11 may 1994-cü ildə qəbul edilmiş və 1 noyabr 1998-ci ildə qüvvəyə minmişdir.

İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 12 saylı Protokolu 4 noyabr 2000-ci ildə qəbul edilmişdir.

İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 2, 3, 5, 8, 9, 10, 11 saylı protokolları Konvensiyanın mətninə inkorporasiya olunmuşdur.

Azərbaycan Respublikası 2001-ci il dekabr ayının 25-də «Avropa İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyanı və onun 1, 4, 6, 7 saylı Protokollarını ratifikasiya etmişdir.

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya:***

***Maddə 2. Yaşamaq hüququ***

*1. Hər kəsin yaşamaq hüququ qanunla qorunur. Heç kəs qanunla ölüm cəzası nəzərdə tutulmuş cinayət törətməyə görə, məhkəmə tərəfindən çıxarılmış belə hökmün icrasından başqa həyatından məhrum edilə bilməz*

*2. Həyatdan məhrum etmə, güc tətbiqində mütləq zərurətin nəticəsi olduqda bu maddənin pozulması kimi nəzərdən keçirilmir.*

*a) İstənilən şəxsin hüquqa zidd zorakılıqdan qorunması üçün;*

*b) qanuni həbsi həyata keçirmək və ya qanuni əsaslarla həbsdə olan şəxşin qaçmasının qarşısını almaq üçün;*

*c) qanuna müvafiq olaraq çevriliş və ya qiyamın yatırılması üçün.*

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyanın Ölüm cəzasının ləvğinə dair 6 saylı Protokolu***

**Maddə 1. Ölüm cəzasının ləvği**

*Ölüm hökmü ləvğ olunur. Heç kim belə cəzaya məhkum edilə və ya belə cəzalandınla bilməz.*

**Maddə 2. Müharibə zamanı ölüm cəzası**

*Dövlət müharibə dövründə və ya qaçılmaz müharibə təhdidi zamanı törədilmiş əməllərə görə öz qanunvericiliyində ölüm cəzasını nəzərdə tuta bilər: bu cür cəza yalnız qanunla müəyyən olunmuş tələblərə və onun müddəalarına müvafiq olaraq tətbiq edilə bilər. Dövlət həmin qanunun müvafiq müddəaları haqqında Avropa Şurasının Baş Katibinə məlumat verir.*

**Maddə 3. Geri çəkilmənin qadağan olunması**

*Konvensiyanın 15-ci maddəsinə əsasən, bu protokolun müddəalarından geri çəkilmək olmaz.*

**Maddə 4. Qeyd-şərtlərin qadağan olunması**

*Konvensiyanın 57-ci maddəsinə əsasən, bu protokolun müddəaları ilə bağlı qeyd-şərt edilə bilməz.*

## Azərbaycan Respublikasının qanunvericilik sistemi

**Azərbaycan Respublikası Konstitusiyasının 27-ci maddəsinə əsasən,** hər kəsin yaşamaq hüququ vardır.

Dövlətə silahlı basqın zamanı düşmən əsgərlərinin öldürülməsi, məhkəmənin qanuni qüvvəyə minmiş hökmünə əsasən ölüm cəzasının tətbiqi və qanunla nəzərdə tutulmuş digər hallar istisna olmaqla, hər bir şəxsin yaşamaq hüququ toxunulmazdır.

Müstəsna cəza tədbiri kimi ölüm cəzası, tam ləğv edilənədək, yalnız dövlətə, insan həyatına və sağlamlığına qarşı xüsusilə ağır cinayətlərə görə qanunla müəyyən edilə bilər.

Qanunla nəzərdə tutulmuş zəruri müdafiə, son zərurət, cinayətkarın yaxalanması və tutulması, həbsdə olanın həbs yerindən qaçmasının qarşısının alınması, dövlətə qarşı qiyamın yatırılması və ya dövlət çevrilişinin qarşısının alınması, ölkəyə silahlı basqın edilmə halları istisna olmaqla insana qarşı silah işlədilməsinə yol verilmir.

**Azərbaycan Respublikasında ölüm cəzasının ləğv olunması ilə əlaqədar «Azərbaycan Respublikası Cinayət, Cinayət Prosesual və İslah-Əmək Məcəllələrinə dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikasının 1998-ci il 10 fevral tarixli Qanunu qəbul edilmişdir. Qanuna əsasən ölüm cəzası cəza sistemindən çıxarılmış və ömürlük azadlıqdan məhrum etmə cəza növü ilə əvəz olunmuşdur.**

**Ömürlük azadlıqdan məhrumetmə əsas cəza növü kimi Azərbaycan Respublikasının 30 dekabr 1999-cu il tarixli Qanunu ilə təstiq edilərək 1 sentyabr 2000-ci il tarixdə qüvvəyə minmiş Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 42-ci maddəsində nəzərdə tutulan cəzanın sisteminə daxil edilmişdir.**

24 dekabr 2002-ci il tarixdə qəbul edilmiş «Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» Azərbaycan Respublikasının Konstitusiya Qanununun 2-ci maddəsində məhdudlaşdırılması qadağan olunan insan hüquqlarının siyahısı təsbit olunmuşdur.

Kontitusiya Qanununun 2-ci maddəsində məhdudlaşdırılması qadağan olunan insan hüquqları siyahısına digər hüquqlarla bərabər Azərbaycan Respublikası Konstitusiyasının 27-ci maddəsində təsbit olunmuş yaşamaq hüququ da (müharibənin hüquqauyğun aparılması nəticəsində baş verən ölüm halları istisna olmaqla) daxil edilmiş və bu hüquqların məhdudlaşdırılması və onlara dair qeyd-şərtlərin edilməsi düzünə göstərişlə qadağan edilmişdir.

**Əhalinin sağlamlığının qorunması haqqında Azərbaycan Respublikasının Qanunun 38-ci maddəsinə əsasən,** evtanaziya, yəni xəstənin xahişi ilə onun ölümünü hər hansı vasitə, yaxud hərəkətlərlə tezləşdirmək, həyatın davam etməsinə kömək edən süni tədbirlərin dayandırılması qadağandır.

Xəstənin bilərəkdən evtanaziyaya meyl etdirən və ya evtanaziya edən şəxs qanunvericilikdə müəyyən edilmiş qaydada məsuliyyət daşıyır.

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103-cü maddəsi** soyqırım cinayətinə görə məsuliyyət müəyyən edir. CM-nin 103-cü maddəsinə əsasən, hər hansı milli, etnik, irqi və ya dini qrupu, bir qrup kimi bütövlükdə və ya qismən məhv etmək məqsədilə qrup üzvlərini öldürmə, qrup üzvlərinin sağlamlığına ağır zərər vurma və ya onların əqli qabiliyyətinə ciddi zərər vurma, qrupun bütövlükdə və ya qismən fiziki məhvinə yönəlmiş yaşayış şəpaiti yaratma, qrup daxilində doğumların qarşısını almağa yönəlmiş tədbirləri həyata keçirmə, bir qrupa mənsub olan uşaqları zorla başqa qrupa keçirmə - on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 105-ci maddəsi** əhalini məhv etmə cinayətinə görə məsuliyyət müəyyən edir. Soyqırım əlamətləri olmadan əhalini bütövlükdə və ya qismən məhv etmə - on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 120-ci maddəsi** qəsdən adam öldürmə cinayətinə görə məsuliyyət müəyyən edir.

Qəsdən adam öldürmə, yəni digər şəxsi qəsdən həyatdan məhrum etmə - yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qəsdən:

- bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən adam öldürmə;
- xuliqanlıq niyyəti ilə adam öldürmə;
- zərərçəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar onun özünü və ya yaxın qohumlarını öldürmə;
- xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla adam öldürmə;
- tamah məqsədi ilə və ya sifarişlə, habelə zərərçəkmiş şəxsin orqanlarından və ya toxumalarından istifadə etmək məqsədi ilə adam öldürmə;
- başqa cinayəti gizlətmə və ya onun törədilməsini yüngülləşdirmə məqsədi ilə, habelə zorlama və ya seksual xarakterli başqa zorakı hərəkətlərlə əlaqədar adam öldürmə;
- iki və ya daha çox şəxsi öldürmə;
- təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadını öldürmə;
- təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan adamı öldürmə, habelə adam oğurluğu və ya girov götürülməsi ilə bağlı adam öldürmə;
- təkrar adam öldürmə;
- quldurluq, hədə-qorxu ilə tələb etmə və ya banditizmlə əlaqədar adam öldürmə;
- milli, irqi, dini ədavət və ya düşrnənçilik niyyəti ilə adam öldürmə
- on iki ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin** maddələri ilə qəsdən adam öldürməyə görə məsuliyyət müəyyən olunmuş cinayətlərdən hər hansı birini və ya bir neçəsini törətmiş şəxs

tərəfindən bu Məcəllənin 120-ci maddəsi ilə nəzərdə tutulmuş cinayətin yenidən törədilməsi onun təkrar törədilməsi hesab olunur.

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 121-ci maddəsi** ananın yeni doğduğu uşağı qəsdən öldürməsi cinayətinə görə məsuliyyət nəzərdə turur.

**CM-nin 121-ci maddəsinə əsasən,** ananın yeni doğduğu uşağı doğuş vaxtı və ya doğuşdan dərhal sonra qəsdən öldürməsi - üçilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 122-ci maddəsi** qəflətən baş vermiş güclü ruhi həyəcan vəziyyətində qəsdən adam öldürmə cinayətinə görə məsuliyyət müəyyən edir.

**CM-nin 122-ci maddəsinə əsasən,** zərərçəkmiş şəxs tərəfindən edilən zorakılıq, ağır təhqir və ya sair qanunsuz və ya əxlaqsız hərəkətlər (hərəkətsizlik) nəticəsində, habelə zərərçəkmiş şəxsin mütəmadi qanunsuz və ya əxlaqsız davranışı ilə əlaqədar yaranmış uzun sürən dözülməz psixi şərait nəticəsində qəflətən baş vermiş güclü puhi həyəcan (affekt) vəziyyətində qəsdən adam öldürmə - üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Güclü ruhi həyəcan vəziyyətində iki və ya daha çox şəxsi qəsdən öldürmə - üç ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 123-cü maddəsi** zəruri müdafiə həddini və ya cinayət törətmiş şəxsin tutulması üçün zəruri həddi aşmaqla adam öldürmə cinayətinə görə məsuliyyət müəyyən edir.

Qanuna əsasən, zəruri müdafiə həddini aşmaqla qəsdən adam öldürmə - iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Cinayət törətmiş şəxsin tutulması üçün zəruri həddi aşmaqla qəsdən adam öldürmə - üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 124-cü maddəsi** ehtiyatsızlıqdan adam öldürmə cinayətinə görə məsuliyyət nəzərdə tutur.

**CM-nin 124-cü maddəsinə əsasən,** ehtiyatsızlıqdan adam öldürmə - üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Ehtiyatsızlıqdan iki və ya daha çox adamı öldürmə - iki ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 125-ci maddəsinə əsasən,** təqsirkardan maddi, xidməti və ya sair cəhətdən asılı olmuş zərərçəkmiş şəxsi onunla amansız rəftar etmə, onun ləyaqətini mütəmadi olaraq alçaltma, ona hədə-qopxu gəlmə yolu ilə özünü öldürmə və ya özünü öldürməyə cəhd həddinə çatdırma - üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya:***

**Maddə 3. İşgəncələrin qadağan olunması**

*Heç kəs işgəncəyə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamalıdır.*

## Azərbaycan Respublikasının qanunvericilik sistemi

**Azərbaycan Respublikası Konstitusiyasının 46-cı maddəsinə əsasən** hər kəsin öz şərəf və ləyaqətini müdafiə etmək hüququ vardır.

Şəxsiyyətin ləyaqəti dövlət tərəfindən qorunur. Heç bir hal şəxsiyyətin ləyaqətinin alçaldılmasına əsas verə bilməz.

Heç kəsə işgəncə və əzab verilə bilməz. Heç kəs insan ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qala bilməz. Özünün könüllü razılığı olmadan heç kəsin üzərində tibbi, elmi və başqa təcrübələr aparıla bilməz.

24 dekabr 2002-ci il tarixdə qəbul edilmiş «Azərbayan Respublikasında İnsan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» Azərbaycan Respublikasının Kontitusiya Qanununun 2-ci maddəsində məhdudlaşdırılması qadağan olunan insan hüququları siyahısına digər hüquqlarla bərabər Azərbaycan Respublikasının Konstitusiyasının 46-cı maddəsinin III hissəsində təsbit olunmuş heç kəsə işgəncə və əzab verilə bilməməsi, heç kəsin insan ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qala bilməməsi, özünün könüllü razılığı olmadan heç kəsin üzərində tibbi, elmi və başqa təcrübələr aparıla bilməməsi hüququ daxil edilmiş və bu hüquqların məhdudlaşdırılması və onlara dair qeyd-şərtlərin edilməsi düzünə göstərişlə qadağan edilmişdir.

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 126-cı maddəsinə əsasən,** Qəsdən sağlamlığa ağır zərər vurma, yəni insan həyatı üçün təhlükəli olan və ya görmə, eşitmə, nitq qabiliyyətinin və ya hər hansı bir orqanın, yaxud bu orqanın funksiyasının itirilməsinə, psixi pozuntuya və ya sağlamlığın başqa cür pozulmasına, əmək qabiliyyətinin üçdə bir hissəsindən az olmamaqla uzun müddətə itirilməsi ilə və ya təqsirkar üçün aşkar surətdə zərərçəkmiş şəxsin peşəkar əmək qabiliyyətinin tam itirilməsi ilə əlaqədar olan və ya hamiləliyin pozulmasına, şəxsin narkomanlıqla və ya toksikomanlıqla xəstələnməsinə səbəb olan, yaxud sifətin silinməz dərəcədə eybəcərləşdirilməsində ifadə olunan zərər vurma üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Eyni əməllər:

- iki və ya daha çox şəxsə qarşı, habelə təkrar və ya bir qrup
- şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) təpəfindən törədildikdə;
- zərərçəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar onun özü və ya yaxın qohumları barəsində törədildikdə;
- **xüsusi amansızlıqla, zərərçəkmiş şəxsə ağır iztirablar verməklə** və ya sifarişlə, habelə təqsirkar üçün aşkar surətdə

köməksiz vəziyyətdə olan şəxsə qarşı törədildikdə;

- ümumi təhlükəli üsulla, xuliqanlıq niyyətilə;
- zərərçəkmiş şəxsin orqanlarından və ya toxumalarından istifadə etmək məqsədilə törədildikdə qanunla altı ildən on bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Cinayət Məcəlləsinin 132-ci maddəsinə əsasən,** döymə yəni, bu Məcəllənin 128-ci maddəsində göstərilən nəticələrə səbəb olmayan qəsdən döymə və ya sair zorakı hərəkətlərlə fiziki ağrı yetirmə minimum əmək haqqı məbləğinin iki yüz mislinədək miqdarda cərimə və ya iki yüz qırx saatadək müddətə ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Cinayət Məcəlləsinin 133-cü maddəsi** işgəncə vermə əməlinə görə cinayət məsuliyyət nəzərdə tutur.

**C.M-nin 133.1-ci maddəsinə** əsasən, Bu Məcəllənin 126 və 127-ci maddələrində göstərilən nəticələrə səbəb olmayan mütəmadi olaraq döyməklə və ya sair zorakı hərəkətlərlə güclü fiziki ağrı və ya psixi iztirablar vermə - üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Eyni əməllər:

- iki və ya daha çox şəxsə qarşı və ya girov götürülən, yaxud oğurlanmış şəxsə qarşı və ya sifarişlə törədildikdə;
- aşkar surətdə hamilə vəziyyətində olan qadın barəsində törədildikdə;
- bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən törədıldikdə;
- təqsirkar şəxs üçün aşkar surətdə yetkinlik yaşına çatmayan, habelə köməksiz vəziyyətdə olan şəxsə qarşı törədildikdə;
- zərərçəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar onun özü və ya yaxın qohumlarına qarşı törədildikdə - üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Bu Məcəllənin 133.1 və 133.2-ci maddələri ilə nəzərdə tutulan əməllər şəxsdən məlumat almaq və ya onu etirafa məcbur etmək, yaxud törətdiyi və ya törədilməsində şübhə doğurduğu əmələ görə həmin şəxsi cəzalandırmaq məqsədi ilə öz qulluq mövqeyindən istifadə etməklə vəzifəli şəxs tərəfindən və ya onun təhriki ilə törədildikdə - beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Cinayət Məcəlləsinin 293-cü maddəsi** ifadə verməyə məcbur etməyə görə məsuliyyət nəzərdə tutur.

Prokuror, müstəntiq və ya təhqiqatçı tərəfindən və ya onların təhriki ilə dindirmə zamanı hədələməklə, şantajla, ləyaqəti alçaltmaqla və ya sair qanunsuz hərəkətlər tətbiq etməklə şübhə edilən şəxsi, təqsirləndiriləni, zərərçəkmiş şəxsi, şahidi ifadə verməyə, habelə eksperti rəy verməyə məcbur etmə - üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Eyni əməllər işgəncə verməklə törədildikdə - beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Polis haqqında Azərbaycan Respublikasının Qanununun 5-ci maddəsi** insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində polisin fəaliyyətini tənzimləyir. Belə ki, qanuna əsasən, polisin hər hansı şəxslə insanın ləyaqətini alçaldan şəkildə rəftar etməsi yolverilməzdir. Cinayət törədən və ya törətməkdə şübhələnilən şəxsləri məlumat verməyə və ya cinayət əməlini törətməkdə təqsirini etiraf etməyə məcbur etmək, bu məqsədlə onları və digər şəxsləri hədələmək, işgəncəyə məruz qoymaq, onlara hər hansı fiziki və ya mənəvi təsir göstərmək qadağandır.

**Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin 10-cu maddəsi** məhkumların əsas hüquqları sırasında aşağıdakı hüquqları da müəyyən edir.

Cəzanı insan şəxsiyyətinə hörməti təmin edən şəraitdə çəkmək;

Cəzaları icra edən müəssisə və ya orqanın işçi heyəti məhkumlara qarşı münasibətdə nəzakətli olmalıdır. Məhkumlar

qəddar və ya insan ləyaqətini alçaldan rəftara məruz qalmamalıdırlar. Məhkumlara məcburetmə tədbirləri yalnız qanuna əsasən tətbiq edilə bilər.

Məhkumlar onların həyat və sağlamlıqlarını təhlükə altında qoya bilən tibbi və ya başqa təcrübələrə məruz qala bilməzlər.

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya:***

**Maddə 4. Köləliyin və məcburi əməyin qadağan olunması**

*1. Heç kəs köləlikdə və asılılıqda saxlanmamalıdır.*

*2. Heç kəs məcburi və icbari əməyə cəlb olunmamalıdır.*

*3. Bu maddənin məqsədləri üçün «məcburi və ya icbari əmək» termini aşağıdakıları özünə daxil etmir:*

*a) bu Konvensiyanın maddəsinin müddəalarına müvafiq olaraq həbsdə olan və ya belə həbsdən şərti azad edilmiş şəxsin adətən yerinə yetirməli olduğu hər hansı bir iş:*

*b) hərbi xarakterli hər hansı xidmət və ya hərbi xidmətdən əqidəyə görə imtina etmənin qanuni hesab edildiyi ölkələrdə məcburi hərbi xidmətin əvəzinə müəyyən edilmiş xidmət:*

*c) fövqəladə vəziyyət və ya əhalinin həyatı və rifahı üçün təhlükə yaradan fəlakət hallarında hər hansı məcburi xidmət:*

*d) adi vətəndaşlıq vəzifələrinin bir hissəsi olan iş və ya xidmət.*

## Azərbaycan Respublikasının qanunvericilik sistemi

**Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsinə əsasən,** hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır.

Heç kəs zorla işlədilə bilməz.

Əmək müqavilələri sərbəst bağlanılır. Heç kəs əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz.

Məhkəmə qərarı əsasında şərtləri və müddətləri qanunla nəzərdə tutulan məcburi əməyə cəlb etmək, hərbi xidmət zamanı

səlahiyyətli şəxslərin əmrlərinin yerinə yetirilməsi ilə əlaqədar işlətmək, fövqəladə vəziyyət və hərbi vəziyyət zamanı vətəndaşlara tələb olunan işləri gördürmək hallarına yol verilir.

Hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrıseçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əmək haqqı miqdarından az olmayan haqq almaq hüququ yardır.

İşsizlərin dövlətdən sosial müavinət almaq hüququ vardır.

Dövlət işsizliyin aradan qaldırılması üçün bütün imkanlardan istifadə edir.

**Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 9-cu maddəsi** əmək müqaviləsi üzrə işçinin əsas aşağıdakı hüquqlarını təsbit edir:

– sərbəst surətdə ixtisasına, sənətinə, peşəsinə uyğun əmək fəaliyyəti növü və iş yeri seçərək əmək müqaviləsi bağlamaq;
– əmək müqaviləsinin şərtlərini dəyişdirmək və ya onu ləğv etmək üçün işəgötürənə müraciət etmək;
– iş vaxtında və ya iş vaxtından sonra qazanc əldə etmək məqsədi ilə qanunvericiliklə qadağan edilməyən, habelə əmək müqaviləsi üzrə tərəflərin öhdəliklərinə xələl gətirməyən fəaliyyətlə məşğul olmaq;
– həyatının, sağlamlığının və əməyinin mühafizəsini təmin edən əmək şəraitində çalışmaq, habelə belə şəraitin yaradılmasını tələb etmək;
– qanunvericiliklə müəyyən edilmiş minimum məbləğdən aşağı olmayan əmək haqqı almaq;
– iş vaxtından artıq vaxtda işə cəlb olunduqda əlavə əmək haqqını almaq və ya onun verilməsini tələb etmək;
– əmək müqaviləsi ilə müəyyən edilmiş əmək funksiyasına daxil olmayan işləri, xidmətləri yerinə yetirməkdən imtina etmək, belə işləri, xidmətləri icra etdikdə isə müvafiq əlavə əmək haqqının verilməsini tələb etmək;
– mənzil şəraitinin, ailə üzvlərinin sosial-məişət şəraitinin
– yaxşılaşdırılması üçün işəgötürəndən müvafiq sosial yardımlar almaq;

qanunvericiliklə müəyyən olunmuş iş vaxtında çalışmaq;
- müvafiq peşələr (vəzifələr), istehsalatlar üzrə iş yerlərində qanunvericiliklə müəyyən olunmuş qısaldılmış iş vaxtında çalışmaq;
- qanunvericiliklə müəyyən olunmuş həftələrarası istirahət günlərindən istifadə etmək;
- hər il Əmək Məcəlləsində nəzərdə tutulmuş minimum müddətdən az olmayan ödənişli əsas məzuniyyətdən və müvafiq hallarda əlavə, sosial, ödənişsiz, təhsil məzuniyyətlərindən istifadə etmək;
- peşə hazırlığını artırmaq, yeni ixtisasa yiyələnmək və ixtisasını artırmaq;
- əmək funksiyasının yerinə yetirilməsi zamanı əmlakına və səhhətinə dəyən ziyanın ödənilməsini tələb etmək;
- işəgötürən tərəfindən qanunvericiliklə müəyyən olunmuş qaydada məcburi sosial sığorta olunmaq, habelə hər hansı başqa növ sığorta qaydalarından istifadə etmək;
- qanunvericiliklə müəyyən edilmiş qaydada həmkarlar ittifaqlarının, ictimai birliklərin üzvü olmaq, habelə bu təşkılatların və ya əmək kollektivinin keçirdiyi tətillərdə, mitinqlərdə, toplantılarda və qanunvericiliklə qadağan olunmayan digər kütləvi tədbirlərdə iştirak etmək;
- əmək hüquqlarının müdafiəsi üçün məhkəməyə müraciət etmək və hüquqi müdafiə olunmaq;
- qanunvericiliklə müəyyən edilmiş hallarda və şərtlərlə (güzəştlərlə) pensiya təminatından, sosial müdafiə üzrə müavinətlərdən və güzəştlərdən istifadə etmək;
- işsizliyə görə qanunvericiliklə müəyyən olunmuş dövlət təminatını almaq;
- iş yeri, vəzifəsi (peşəsi), aylıq əmək haqqı və əmək münasibətləri ilə bağlı digər məlumatlar barədə işəgötürəndən müvafiq arayışlar almaq.

**Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 17-ci maddəsi** məcburi əməyin qadağan edilməsi ilə bağlı müddəaları təsbit edir.

**Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 17-ci maddəsinə əsasən,** hər hansı qayda və üsulla zor işlətməklə, həmçinin əmək müqaviləsinə xitam veriləcəyi hədə-qorxusu ilə işçini əmək funksiyasına daxil olmayan işi (xidməti) yerinə yetirməyə məcbur etmək qadağandır. İşçini məcburi əməyə cəlb edən təqsirkar şəxslər qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyətə cəlb edilirlər.

Hərbi və ya fövqəladə vəziyyətlə əlaqədar müvafiq qanunvericilik əsasında, habelə qanuni qüvvəyə minmiş məhkəmə hökmlərinin icrası zamanı müvafiq dövlət orqanlarının nəzarəti altında yerinə yetirilən işlərdə məcburi əməyə yol verilir.

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya:***

**Maddə 5. Azadlıq və toxunulmazuq hüququ**

*1. Hər kəsin azadlıq və şəxsi toxunulmazlıq hüququ var. Heç kəs qanunla müəyyən olunmuş aşağıdakı hallardan və qaydadan başqa azadlıqdan məhrum oluna bilməz:*

*a) səlahiyyətli məhkəmə tərəfindən tərəfindən məhkum olunduqdan sonra şəxsi qanuni həbsə almaq:*

*b) məhkəmənin qanuni çıxardığı qərarı icra etməməyə görə və ya qanunla nəzərdə tutlmuş hər hansı öhdəliyin icra olunmasını təmin etmək məqsədilə şəxsin qanuni tutulması və ya həbsə alınması:*

*c) hüquq pozuntusunun törədilməsində əsaslı şübhə ilə bağlı şəxsin səlahiyyətli orqanı qarşısında durmasından irəli gələn və ya onun tərəfindən törədilən hüquq pozuntusunun yaxud törətdikdən sonra onun gizlənməsinin qarşısını almaq üçün kifayət qədər zəruri əsasların olduğunun hesab edildiyi hallarda şəxsin qanuni tutulması və ya həbsə alınması:*

*d) yetkinlik yaşına çatmamış şəxsin tərbiyə nəzarəti üçün qanuni qərar əsasında həbsə alınması və ya onun səlahiyyətli məhkəmə orqanı qarşısında durmasından irəli gələn qanuni həbsə alınması:*

e) *yoluxucu xəstəliklərin yayılmasının qarşısını almaq üçün şəxslərin, ruhi xəstələrin, alkoqolizmə və narkomaniyaya mübtəla olanların, səfillərin qanuni həbsə alınması:*

*f) şəxsin ölkəyə qanunsuz gəlməsinin qarşısını almaq məqsədilə və ya barəsində deportasiya yaxud ekstradisiya tədbirləri tətbiq olunan şəxslərin qanuni tutulması və ya həbsə alınması*

## Azərbaycan Respublikasının qanunvericilik sistemi

**Azərbaycan Respublikası Konstitusiyasının 28-ci maddəsinə əsasən,** hər kəsin azadlıq hüququ vardır.

Azadlıq hüququ yalnız qanunla nəzərdə tutulmuş qaydada tutulmuş qaydada tutulma, həbsəalma və ya azadlıqdan məhrumetmə yolu ilə məhdudlaşdırıla bilər.

Qanuni surətdə Azərbaycan Respublikasının ərazisində olan hər kəs sərbəst hərəkət edə bilər, özünə yaşayış yeri seçə bilər və Azərbaycan Respublikasının ərazisindən kənara gedə bilər.

**Azərbaycan Respublikası Konstitusiyasının 32-ci maddəsi** hər kəsin şəxsi toxunulmazlıq hüququnu təsbit edir. Həmin maddəyə əsasən, hər kəsin şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ vardır. Qanunla nəzərdə tutulan hallardan başqa, şəxsi həyata müdaxilə etmək qadağandır.

Öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanılmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmir.

Hər kəsin yazışına, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini saxlamaq hüququna dövlət təminat verir. Bu hüquq qanunla nəzərdə tutulmuş qaydada cinayətin qarşısını almaqdan və ya cinayət işinin zamanı həqiqəti üzə çıxarmaqdan ötrü məhdudlaşdırıla bilər.

**«Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» Azərbaycan Respublikasının Konstitusiya Qanununun 4-cü maddəsi, şəxsin tutulmasına, həbsə alınmasına və ya azadlıqdan məhrum**

**edilməsinə qoyulan məhdudiyyətləri müəyyən edir. Belə ki, Konstitusiya Qanununun 4.1-ci maddəsinə əsasən,** aşağıdakı hallardan başqa və aşağıdakılardan fərqli qaydada heç kəs tutula, həbsə alına və ya başqa formada azadlıqdan məhrum edilə bilməz:

- şəxsin səlahiyyətli məhkəmə tərəfindən məhkum olunduqdan sonra azadlıqdan məhrum edilməsi;
- şəxsin məhkəmənin qanuni qərarına əməl etməməyə görə və ya qanunla nəzərdə tutulan hər hansı öhdəliyin yerinə yetirilməsini təmin etmək məqsədilə qanuni tutulması və ya həbs edilməsi;
- şəxsin cinayət törətmiş olduğuna əsaslı şübhələr olduqda və ya onun hüquq pozuntusu törətməsinin və yaxud bu əməli törətdikdən sonra qaçıb gizlənməsinin qarşısını almağa əsaslı zərurət olduqda, səlahiyyətli məhkəmə orqanına gətirilməsi məqsədi ilə onun qanuni tutulması və ya həbs edilməsi;
- yetkinlik yaşına çatmamış şəxsin tərbiyəvi nəzarət məqsədi ilə qanuni qərar əsasında azadlıqdan məhrum edilməsi və ya səlahiyyətli məhkəmə orqanına gətirilməsi üçün qanuni tutulması;
- yoluxucu xəstəlikləri yaymasının qarşısını almaq məqsədi ilə şəxslərin, habelə ruhi xəstələrin, alkoqolizmə və narkomanlığa düçar olmuş şəxslərin və ya avaralıqla məşğul olanların qanuni tutulması;
- şəxsin ölkəyə qanunsuz gəlməsinin qarşısını almaq məqsədi ilə qanuni tutulması və ya həbs edilməsi, yaxud barəsində məcburi çıxarılma və ya ekstradisiya tətbirləri görülən şəxsin qanuni tutulması və ya həbs edilməsi.

**Azərbaycan Respublikası Cinayət Prosesual Məcəlləsinin 147-ci maddəsi** cinayət prosesində tutulmanın tətbiqi prinsiplərini müəyyən edir.

**CPM-nin 147-ci maddəsinə əsasən,** cinayət prosesində tutulma yalnız aşağıdakı şəxslərə tətbiq oluna bilər:

- cinayəti törətməkdə şübhəli olan şəxsə;
- ittiham elan edilməli olan şəxsə və ya haqqında seçilmiş

qətimkan tədbirinin şərtlərini pozan təqsirləndirilən şəxsə;
- hökmün və ya məhkəmənin digər yekun qərarının icrası yerinə məcburi göndərilməsi və ya təyin olunmuş cəzanın digər cəza növü ilə əvəz edilməsi, habelə şərti məhkum etmənin, yaxud cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin ləğvi məsələsinin həlli məqsədi ilə məhkuma.

Tutulma aşağıdakı hallarda tətbiq edilir:
- şəxsin cinayət törətməsinə şübhə yarandıqda;
- ittiham elan edilməli olan şəxsə və ya haqqında seçilmiş qətimkan tədbirinin şərtlərini pozan təqsirləndirilən şəxs haqqında cinayət təqibi orqanının müvafiq qərarı olduqda;
- hökmün və ya məhkəmənin digər yekun qərarının icrası yerinə məcburi göndərilməsi və ya təyin olunmuş cəzanın digər cəza növü ilə əvəz edilməsi, habelə şərti məhkum etmənin və ya cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin ləğvi məsələsinin həllinədək məhkumun tutulması barədə məhkəmənin qərarı olduqda.

Şəxsin qanunsuz tutulması Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

**Azərbaycan Respublikasının Cinayət Məcələsinin 42-ci maddəsi** özündə azadlıq hüququnun məhdudlaşdırılması ilə bağlı aşağıdakı cəza növləri nəzərdə tutur:
- Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma;
- azadlığın məhdudlaşdırılması;
- intizam xarakterli hərbi hissədə saxlama;
- müəyyən müddətə azadlıqdan məhrum etmə;
- ömürlük azadlıqdan məhrum etmə.

**Cinayət Məcəlləsinin XIX fəsli şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətləri və bu cinayətlərə görə məsuliyyəti müəyyən edir.**

**Cinayət Məcəlləsinin 144-cü maddəsi** adam oğurluğuna görə məsuliyyət müəyyən edərək beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutur.

Eyni əməllər:

- iki və ya daha çox şəxs barəsində törədildikdə;
- təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadına qarşı törədildikdə;
- bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə;
- zərərçəkmiş şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə törədildikdə;
- silahdan, yaxud silah qismində istifadə edilən əşyalardan istifadə etməklə törədildikdə;
- tamah məqsədi ilə və ya sifarişlə törədildikdə - səkkiz ildən on iki ilədək müddətə azadlıqdan məhpum etmə ilə cəzalandırılır.

Cinayət Məcəlləsinin 144.1 və 144.2-ci maddələrində göstərilən əməllər yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə və ya ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda - on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Qeyd:** Əməllərində başqa cinayətin tərkibi olmayan və oğurlanmış adamı könüllü azad edən şəxs cinayət məsuliyyətindən azad olunur.

**Cinayət Məcəlləsinin 145-ci maddəsi** qanunsuz azadlıqdan məhrum etməyə görə məsuliyyət nəzərdə tutur. Belə ki, həmin maddəyə əsasən, adam oğurluğu ilə bağlı olmayan qanunsuz azadlıqdan məhrum etmə - iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Eyni əməllər:

- iki və ya daha çox şəxsə qarşı törədildikdə;
- təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadına qarşı törədildikdə;
- yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə;
- bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil

dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə;

– zərərçəkmiş şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə törədildikdə;
– silahdan yaxud silah kimi istifadə edilən əşyalardan istifadə etməklə törədildikdə
– üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Cinayət Məcəlləsinin 145.1 və ya 145.2-ci maddələrində** göstərilən əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda - beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Cinayət Məcəlləsinin 146-cı maddəsi** qanunsuz olaraq psixiatriya xəstəxanasına yerləşdirmə əməlinə görə məsuliyyət nəzərdə tutur. Həmin maddəyə əsasən, psixi cəhətdən sağlam olan şəxsi bilə-bilə psixiatriya xəstəxanasına yerləşdirmə - iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Eyni əməllər təqsirkar şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə - üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Cinayət Məcəlləsinin XX fəsili şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətləri və bu cinayətlərə görə məsuliyyəti müəyyən edir.**

**Cinayət Məcəlləsinin 149-cu maddəsi** Zorlama cinayətinə görə məsuliyyəti nəzərdə tutur.

Zorlama, yəni zərərçəkmiş şəxsə və ya başqa şəxslərə qarşı zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə və ya zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə onunla cinsi əlaqədə olma - dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Eyni əməllər:

- bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;
- zərərçəkmiş şəxsin zöhrəvi xəstəliyə yoluxmasına səbəb olduqda;
- təqsirkar şəxs üçün aşkar surətdə yetkinlik yaşına çatmayan şəxsə qarşı törədildikdə;
- zərərçəkmiş şəxsi və ya başqa şəxsləri öldürmə və ya sağlamlığa ağır zərər vurma hədəsi ilə, habelə xüsusi amansızlıqla törədildikdə;
- təkrar törədildikdə - beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Eyni əməllər:

- ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda;
- ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin insan immunçatışmazlığı virusu ilə yoluxmasına və ya digər ağır nəticələrə səbəb olduqda;
- təqsirkar şəxs üçün aşkar surətdə on dörd yaşına çatmayan şəxs barəsində törədildikdə - səkkiz ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Cinayət Məcəlləsinin 150-ci maddəsi** seksual xapakterli zorakılıq hərəkətlərin törədilməsinə məsuliyyət müəyyən edir. Belə ki, zərərçəkmiş şəxsə və ya başqa şəxslərə zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə və ya zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə uşaqbazlıq və ya seksual xarakterli digər zorakılıq hərəkətləri etmə - üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Eyni əməllər:

- bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;
- zərərçəkmiş şəxsin zöhrəvi xəstəliyə yoluxmasına səbəb olduqda;
- təqsirkar üçün aşkar surətdə yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə;

– zərərçəkmiş şəxsə və ya başqa şəxslərə qarşı xüsusi amansızlıqla törədildikdə;
– təkrar törədildikdə - beş ildən səkkiz llədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Eyni əməllər:

– ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda;
– ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin insan immunçatışmazlığı virusu ilə yoluxmasına və ya digər ağır nəticələrə səbəb olduqda;
– təqsirkar şəxs üçün aşkar surətdə on dörd yaşına çatmayan şəxs barəsində törədildikdə-səkkiz ildən on beş llədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Cinayət Məcəlləsinin 151-ci maddəsi** seksual xarakterli hərəkətlərə məcbur etmə cinayətinə görə məsuliyyət nəzərdə tutur. Belə ki, əmlakının məhv edilməsi, zədələnməsi və ya götürülməsi hədəsi ilə və yaxud zərərçəkmiş şəxsin maddi və ya sair asılılığından istifadə etməklə onu cinsi əlaqəyə girməyə, uşaqbazlığa və ya seksual xarakterli digər hərəkətlərə məcbur etmə - minimum əmək haqqı məbləğinin beş yüz mislindən min mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Cinayət Məcəlləsinin 152-ci maddəsi** on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etməyə görə məsuliyyət müəyyən edir. Belə ki, yetkinlik yaşına çatmış tərəfindən aşkar surətdə on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli başqa hərəkətlər etmə - üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Cinayət Məcəlləsinin 153~cü maddəsi** əxlaqsız hərəkətlərin törədilməsinə görə məsuliyyət müəyyən edir. Belə ki, təqsirkar üçün aşkar surətdə on dörd yaşına çatmayan şəxsə qarşı zor tətbiq etmədən əxlaqsız hərəkətlər törətmə - minimum əmək haqqı

məbləğinin beş yüz mislindən min mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Cinayət Məcəlləsinin 290-cı maddəsi** təqsiri olmadığını bilə-bilə şəxsi cinayət məsuliyyətinə cəlb etməyə görə məsuliyyət nəzərdə turur. Belə ki, təqsiri olmadığını bilə-bilə şəxsi cinayət məsuliyyətinə cəlb etmə - üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Eyni əməllər şəxsin ağır və ya xüsusilə ağır cinayət törətməkdə ittiham olunması ilə bağlı törədildikdə - üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Cinayət Məcəlləsinin 292-ci maddəsi** qanunsuz olaraq tutma, həbsə alma və ya həbsdə saxlamaya görə məsuliyyəti nəzərdə tutur. Belə ki, bilə-bilə qanunsuz tutma - üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Bilə-bilə qanunsuz həbsə alma və ya həbsdə saxlama - iki ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Yuxarıda qeyd etdiyimiz əməllər ağır nəticələrə səbəb olduqda - dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Cinayət Məcəlləsinin 295-ci maddəsi** bilə-bilə ədalətsiz hökm, qətnamə, qərardad və qərar çıxarmaya məsuliyyət nəzərdə tutur.

Hakimlərin bilə-bilə ədalətsiz hökm, qətnamə, qərardad və ya qərar çıxarması - minimum əmək haqqı məbləğinin beş yüz mislindən min mislinədək miqdarda cərimə və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Eyni əməllər azadlıqdan məhrum etmə barədə məhkəmənin çıxardığı qanunsuz hökm ilə əlaqədar olduqda və ya başqa ağır nəticələrə səbəb olduqda - beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 23-cü maddəsi** inzibati xətalar törətməyə görə azadlıq hüququnun məhdudlaşdırılması ilə bağlı aşağıdakı inzibati tənbeh növləri tətbiq edilə bilər:

- əcnəbiləri və ya vətəndaşlığı olmayan şəxsləri Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxartma;
- inzibati həbs.

**Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 307-1-ci maddəsinə əsasən,** avaralıqla məşğul olmağa görə vətəndaşlar xəbərdarlıq edilir və ya işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda on günədək müddətə inzibati həbs tətbiq edilir, əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə xəbərdarlıq edilir və ya şərti maliyyə vahidinin iyirmi mislindən iyirmi beş mislinədək miqdarda cərimə edilməklə və ya edilməməklə Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılır.

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafidsi haqqında Konvensiya***

**Maddə 5. Azadlıq və toxunulmazlıq hüququ**

*2. Tutulmuş hər bir kəsə ona aydın olan dildə onun tutulmasının səbəbləri və ona qarşı irəli sürülən istənüən ittiham barədə dərhal məlumat verilir.*

**Azərbaycan Respublikasının qanunvericilik sistemi**

**Azərbaycan Respublikası Konstitusiyasının 67-ci maddəsinə əsasən,** tutulan, həbsə alınan və cinayət törədilməsində ittiham edilənlərin aşağıdakı hüquqlarını təsbit edir.

Səlahiyyətli dövlət orqanlarının tutduğu, həbsə aldığı, cinayət törədilməsində ittiham etdiyi hər bir şəxsə dərhal onun hüquqları bildirilir və tutulmasının, həbsə alınmasının və cinayət məsuliyyətinə cəlb edilməsinin səbəbləri izah edilir.

**Polis haqqında Azərbaycan Respublikasının Qanununun 5-ci maddəsinin 4-cü bəndinə əsasən,** hər hansı şəxsin hüquq və azadlıqları məhdudlaşdırıldıqda polis əməkdaşı məhdudlaşdırmanın əsaslarını və səbəblərini, habelə bununla əlaqədar həmin şəxsin hüquq və vəzifələrini ona izah etməlidir.

Həmin maddənin 5-ci bəndinə əsasən, polis tutulan və ya həbsə alınan şəxsin hüquqlarının həyata keçirilməsini təmin edir.

**Azərbaycan Respublikası Cinayət Prosesual Məcəlləsinin 90.7-ci maddəsi şübhəli şəxsin hüquqlarını təsbit edir. Belə ki, şübhəli şəxs:**

**CPM-nin 90.7.1-ci maddəsinə əsasən,** nədə şübhələnildiyini bilmək (şübhənin məzmunu - ona istinad edilmiş cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin faktiki tərəfi və hüquqi tövsifı);

**CPM-nin 90.7.2-ci maddəsinə əsasən,** tutulduğu halda tutulmanın əsaslarını bilmək və tutulduğu andan müdafiəçidən hüquqi yardım almaq, onu tutmuş şəxsdən, təhqiqatçıdan, müstəntiqdən və ya prokurordan hüquqları haqqında yazılı bildiriş almaq; **CPM-nin 90.7.3-cü maddəsinə əsasən,** tutulma haqqında və ya qətimkan tədbiri seçilməsi haqqında qərarın surətini almaq;

**CPM-nin 90.7.4-cü maddəsinə əsasən,** tutulma haqqında protokol tərtib olunduqdan dərhal sonra onunla tanış olmaq və ona protokolda əks olunmalı qeydlərini vermək hüququna malikdir.

**Cinayət Prosesual Məcəlləsinin 91.5-ci maddəsi təqsirləndirilən şəxsin hüquqlarını təsbit edir.**

**Təqsirləndirilən şəxs; CPM-nin 91.5.1-ci maddəsinə əsasən,** nədə təqsirləndiyini bilmək (ittihamın məzmunu, verilmiş ittihamın faktiki tərəfi və hüquqi tövsifı), ittiham elan edildikdə, habelə həbsə alındıqdan və ya barəsində qətimkan tədbiri seçilməsi haqqında qərar elan olunduqdan dərhal sonra müvafiq qərarın surətini almaq.

**CPM-nin 91.5.2 - ci maddəsinə əsasən,** onu tutmuş və ya həbs haqqında qərarı icra etmiş şəxsdən, təhqiqatçıdan, müstəntiqdən və ya prokurordan hüquqları haqqında yazılı bildiriş almaq;

**CPM-nin 91.5.3 - cü maddəsinə əsasən,** dərhal tutulma və

həbsə alma protokolu tərtib olunduqdan sonra onunla tanış olmaq və ona protokolda əks olunmalı qeydlərini vermək hüquna malikdir.

**Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu** cinayət işi üzrə zərər çəkən şəxslərin, şahidlərin və cinayət prosesində iştirak edən digər şəxslərin təhlükəsizliyinin təmin edilməsini və sosial müdafiəsini nəzərdə tutan tədbirlər sistemini müəyyənləşdirir.

Bu Qanunla müəyyənləşdirilmiş təhlükəsizlik tədbirləri o halda tətbiq edilir ki, yuxarıda göstərilən şəxslərin təhlükəsizliyinin başqa vasitələrlə təmin edilməsi mümkün deyildir.

Səlahiyyətli dövlət orqanları tərəfindən barəsində təhlükəsizlik tədbirlərinin tətbiq edilməsi haqqında qərar qəbul edilmiş şəxs, müdafiə olunan şəxs adlanır.

**Müdafiə olunan şəxslər aşağıdakılardır:**

1) hüquq-mühafizə orqanlarına cinayət haqqında məlumat vermiş və ya cinayətin aşkar edilməsində, qarşısının alınmasında və ya açılmasında iştirak etmiş şəxs;

2) cinayət işi üzrə zərər çəkən şəxs və onun nümayəndəsi;

3) şübhə edilən şəxs, təqsirləndirilən, onların müdafiəçiləri və nümayəndələri;

4) cinayətin törədilməsi nəticəsində dəymiş zərərin ödənilməsi barədə iddiaya dair mülki iş üzrə mülki iddiaçı, mülki cavabdeh və onların nümayəndələri;

5) şahidlər;

6) ekspert, mütəxəssis, tərcüməçi və hal şahidləri. Müdafiə olunan şəxslərə təzyiq göstərmək məqsədilə onların yaxın qohumlarına təsir göstərildiyi hallarda təhlükəsizlik tədbirləri müdafiə olunan şəxslərin yaxın qohumları barəsində də tətbiq edilə bilər.

**Bu Qanunda nəzərdə tutulan şəxslərin təhlükəsizliyinin təmin edilməsi, bu şəxslərin həyatının və sağlamlığının, əmlakının qorunması məqsədilə səlahiyyətli dövlət orqanları tərəfindən hüquqi, təşkilati-texniki və digər tədbirlərin həyata keçirilməsindən ibarətdir.**

**Müdafiə olunan şəxslərin təhlükəsizliyinin təmini aşağıdakı prinsiplər rəhbər tutulmaqla həyata keçirilir.**

Müdafiə olunan şəxslərin təhlükəsizliyinin təmin edilməsi bu Qanunla müəyyənləşdirilmiş təhlükəsizlik tədbirlərinin qanunçuluq, insan və vətəndaş hüquq və azadlıqlarına hörmət edilməsi, təhlükəsizlik tədbirlərini tətbiq edəı., orqanın və müdafiə olunan şəxslərin öhdəlikləri əsasında həyata keçirilir.

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya:***

**Maddə 5. Azadlıq və toxunulmazbq hüququ**

*3. Bu maddənin 1-ci bəndinin «c» alt bəndinə müvajiq olaraq tutulmuş və ya həbsə alınmış hər kəs, dərhal hakimin və ya qanunla məhkəmə hakimiyyətini həyata keçirmək səlahiyyəti verilmiş vəzifəli şəxsin yanına gətirilir və ağlabatan müddət ərzində məhkəmə araşdırması və ya məhkəməyə qədər azad edilmə hüququna malikdir. Azad edilmək məhkəmədə iştirak etmə təminatlarının təqdim edilməsi ilə şərtləndirilə bilər.*

**Azərbaycan Respublikasının qanunvericilik sistemi**

**«Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» Azərbaycan Respublikasının Konstitusiya Qanununun 4.2-cü maddəsinə əsasən,** bu qanunun 4.1 .-ci maddəsinə uyğun tutulmuş və ya həbs olunmuş (yəni, şəxsin səlahiyyətli məhkəmə tərəfindən məhkum olunduqdan sonra azadlıqdan məhrum edilməsi; şəxsin məhkəmənin qanuni qərarına əməl etməməyə görə və ya qanunla nəzərdə tutulan hər hansı öhdəliyin yerinə yetirilməsini təmin etmək məqsədilə qanuni tutulması və ya həbs edilməsi; şəxsin cinayət törətmiş olduğuna əsaslı şübhələr olduqda və ya onun hüquq pozuntusu törətməsinin və yaxud bu əməli törətdikdən sonra qaçıb gizlənməsinin qarşısını almağa əsaslı zərurət

olduqda, səlahiyyətli məhkəmə orqanına gətirilməsi məqsədi ilə onun qanuni tutulması və ya həbs edilməsi; yetkinlik yaşına çatmamış şəxsin tərbiyəvi nəzarət məqsədi ilə qanuni qərar əsasında azadlıqdan məhrum edilməsi və ya səlahiyyətli məhkəmə orqanına gətirilməsi üçün qanuni tutulması; yoluxucu xəstəlikləri yaymasının qarşısını almaq məqsədi ilə şəxslərin, habelə ruhi xəstələrin, alkoqolizmə və narkomanlığa düçar olmuş şəxslərin və ya avaralıqla məşğul olanların qanuni tutulması; şəxsin ölkəyə qanunsuz gəlməsinin qarşısını almaq məqsədi ilə qanuni tutulması və ya həbs edilməsi, yaxud barəsində məcburi çıxarılma və ya ekstradisiya tətbirləri görülən şəxsin qanuni tutulması və ya həbs edilməsi) hər bir şəxs dərhal, işə baxmaq və ya məhkəməyə qədər azad etmək səlahiyyətinə malik olan hakimin yanına gətirilir. Həmin şəxs qanunla müəyyən edilmiş müddətdə məhkəmə araşdırmasının aparılması və ya məhkəməyə qədər azad edilməsi hüququna malikdir.

Tutulmuş və ya həbs edilmiş şəxs onun məhkəməyə gələcəyinə təminat verilməsi şərti ilə məhkəməyə qədər azad edilə bilər.

***İnsan hüquqlarının və əsas azadlıqlarının Müdafiəsi haqqında Konvensiya:***

**Maddə 5. Azadlıq və toxunulmazlıq hüququ**

*4. Tutulma və ya həbsə alma nəticəsində azadlıqdan məhrum edilmiş hər kəs onun həbsə alınmasının qanunuliyinə məhkəmə tərəfiındən təxirə salınmadan baxılma hüququna və əgər onun həbsi məhkəmə tərəfindən qanunsuz hesab edilibsə, azad edilmə hüququna malikdir.*

## Azərbaycan Respublikasının qanunvericilik sistemi

**«Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» Azərbaycan Respublikasının Konstitusiya Qanununun 4.3-cü maddəsinə əsasən,** tutulma və ya həbsəalma nəticəsində azadlıqdan

məhrum olunan hər bir şəxs məhkəmə araşdırmasının aparılması hüququna malikdir və bu zaman məhkəmə, təxirə salmadan onun tutulmasının qanuniliyi məsələsini həll edir və əgər o, qanunsuz tutulubsa, onun azad olunması haqqında qərar çıxarır.

**Azərbaycan Respublikası Cinayət Prosesual Məcəlləsinin 91.5.21-ci maddəsinə əsasən,** təqsirləndirilən şəxs həbsə alma və həbsdə saxlamanın qanuni və əsaslı olduğunu təsdiq etmək üçün cinayət prosesini həyata keçirən orqanın məhkəməyə təqdim etdiyi materiallarla tanış olmaq hüququna malikdir.

**CPM-nin 91.5.24-cü maddəsinə əsasən,** təqsirləndirilən şəxsin əsassız gecikməyə yol verilmədən açıq məhkəmə baxışı tələb etmək hüququ vardır.

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya:***

**Maddə 5. Azadlıq və toxunulmazlıq hüququ**

*5. Bu maddənin müddəalarının pozulması ilə tutulmadan və ya həbsə almadan zərər çəkmiş hər kəsin iddia ilə təmin olunan kompensasiya hüququ var.*

## Azərbaycan Respublikasının qanunvericilik sistemi

**Azərbaycan Respublikası Konstitusiyasının 68-ci maddəsi** hər kəsə zərərin ödənilməsini tələb etmək hüququ verir.

**Cinayət, habelə hakimiyyətdən sui-istifadə nəticəsində zərər çəkmiş şəxsin hüquqları qanunla qorunur. Zərər çəkmiş şəxsin ədalət mühakiməsinin həyata keçirilməsində iştirak etmək və ona vurulmuş zərərin ödənüməsini tələb etmək hüququ vardır.**

Hər kəsin dövlət orqanlarının, yaxud onların vəzifəli şəxslərinin qanuna zidd hərəkətləri və ya hərəkətsizliyi nəticəsində vurulmuş zərərin dövlət tərəfindən ödənilməsi hüququ vardır.

**«Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» Azərbaycan Respublikasının Konstitusiya Qanunu 4-cü maddəsinə əsasən,** şəxsin səlahiyyətli məhkəmə tərəfindən məhkum olunduqdan sonra azadlıqdan məhrum edilməsi:

– şəxsin məhkəmənin qanuni qərarına əməl etməməyə görə və ya qanunla nəzərdə tutulan hər hansı öhdəliyin yerinə yetirilməsini təmin etmək məqsədilə qanuni tutulması və ya həbs edilməsi;
– şəxsin cinayət törətmiş olduğuna əsaslı şübhələr olduqda və ya onun hüquq pozuntusu törətməsinin və yaxud bu əməli törətdikdən sonra qaçıb gizlənməsinin qarşısını almağa əsaslı zərurət olduqda, səlahiyyətli məhkəmə orqanına gətirilməsi məqsədi ilə onun qanuni tutulması və ya həbs edilməsi;
– yetkinlik yaşına çatmamış şəxsin tərbiyəvi nəzarət məqsədi ilə qanuni qərar əsasında azadlıqdan məhrum edilməsi və ya səlahiyyətli məhkəmə orqanına gətirilməsi üçün qanuni tutulması;
– yoluxucu xəstəlikləri yaymasının qarşısını almaq məqsədi ilə şəxslərin, habelə ruhi xəstələrin, alkoqolizmə və narkomanlığa düçar olmuş şəxslərin və ya avaralıqla məşğul olanların qanuni tutulması;
– şəxsin ölkəyə qanunsuz gəlməsinin qarşısını almaq məqsədi ilə qanuni tutulması və ya həbs edilməsi, yaxud barəsində məcburi çıxarılma və ya ekstradisiya tətbirləri görülən şəxsin qanuni turulması və ya həbs edilməsi hallarından başqa bu **maddənin göstərişlərinə zidd olaraq tutulan və ya həbs olunan hər bir şəxsin iddia ilə təmin olunan kompensasiya hüququ vardır.**

**Azərbaycan Respublikası Cinayət Prosesual Məcəlləsinin 36-cı maddəsi,** bəraət qazanmış şəxsin pozulmuş hüquqlarının bərpasının təmin edilməsi əsaslarını müəyyən edir.

Cinayət prosesinin gedişində CPM-nin 55, 56-cı maddələrində nəzərdə tutulmuş şəxslərin pozulmuş hüquq və azadlıqlarının bərpasını və onlara vurulmuş ziyanın ödənilməsini tələb etmək hüququ cinayət prosesini həyata keçirən orqan tərəfindən təmin edilməlidir.

Vəzifə səlahiyyətlərindən sui-istifadə və ya cinayət nətəticəsində zərər çəkmiş, habelə təqsirsiz məhkum olunmuş, qanunsuz həbsdə saxlanılmış, yaxud cinayət prosesi gedişində hüquqları digər formada məhdudlaşdırılmış şəxslərin hüquqları CPM-si ilə və Azərbaycan Respublikasının digər qanunları ilə müəyyən edimiş qaydada bərpa olunur.

**Polis haqqında Azərbaycan Respublikasının Qanununun 5-ci maddəsinin VI bəndinə əsasən,** şəxsin hüquqları, azadlıqları və qanuni mənafeləri polis əməkdaşları tərəfindən pozulduqda polis orqanı həmin şəxsin pozulmuş hüquqlarının, azadlıqlarının və qanuni mənafelərinin bərpa olunması üçün zəruri tədbirlər görməyə, vurulan ziyanı ödəməyə borcludur.

**Həmin maddənin VII bəndinə əsasən,** Polis əməkdaşlarının qanuna zidd hərəkətləri nəticəsində vurulmuş ziyan Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunan qaydada ödənilir.

**«Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında» Azərbaycan Respublikasının Qanunu** təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının və ya onların vəzifəli şəxslərinin qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın dövlət tərəfindən ödənilməsi hüququnun təmin edilməsinə yönəldilmişdir.

Bu Qanunun və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarının müddəalarına əsasən, Azərbaycan Respublikasının ərazisində Azərbaycan Respublikasının təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanları tərəfindən hər hansı şəxsin qanunsuz olaraq:

1) tutulması, müttəhim qismində cəlb edilməsi, həbsə alınması və saxlanılması, məhkum olunması, əmlakının müsadirə edilməsi;
2) barəsində olan cinayət işinin istintaqı ilə əlaqədar götürmə və axtarış aparılması, əmlakı üzərinə həbs qoyulması, işdən (vəzifədən) kənarlaşdırılması və ya onun hüquqlarını məhdudlaşdıran digər prosessual hərəkətlərin həyata keçirilməsi;
3) barəsində əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi;
4) barəsində islah işləri, inzibati həbs və ya cərimə növündə inzibati tənbeh tətbiq edilməsi nəticəsində həmin şəxsə vurulmuş ziyan ödənilməlidir.

Birinci hissədə nəzərdə tutulmuş hallarda vurulmuş ziyan təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının vəzifəli şəxslərinin təqsirindən asılı olmayaraq tam həcmdə ödənilir.

Fiziki şəxslərin hüquqlarının və qanuni mənafelərinin, ictimai və dövlət mənafelərinin pozulması hallarının vaxtında aşkar edilməsi, qarşısının alınması və aradan qaldırılması məqsədilə təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında qanunvericiliyin eyni cür və dürüst icrası dövlət tərəfindən qanunla nəzərdə tutulmuş qaydada təmin edilir.

**Vurulmuş ziyanın ödənilməsini tələb etmək hüququ aşağıdakı hallarda yaranır.**

– bəraətverici hökm çıxarıldıqda;
– cinayət hadisəsinin, əməldə cinayət tərkibinin olmaması və ya şəxsin cinayət törətməkdə iştirakının sübut edilməməsi ilə əlaqədar cinayət işinə xitam verildikdə və ya cinayət işinin başlanması rədd edildikdə;
– inzibati hüquqpozma haqqında işə xitam verildikdə yaranır.

Əməliyyat-axtarış tədbirlərinin cinayət işi başlamazdan əvvəl keçirilməsi nəticəsində vurulmuş ziyanın ödənilməsi hüququ belə tədbirlər keçirildikdən dərhal sonra yaranır.

Vurulmuş ziyanın ödənilməsi hüququna malik olan şəxs vəfat etdikdə, qanunda nəzərdə tutulmuş hallarda vurulmuş ziyanın ödənilməsi hüququ Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada onun vərəsələrinə keçir.

Azərbaycan Respublikasının ərazisində Azərbaycan Respublikasının təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanları tərəfindən hərhansı şəxsin qanunsuz olaraq:

- tutulması, müttəhim qismində cəlb edilməsi, həbsə alınması və saxlanılması, məhkum olunması, əmlakının müsadirə edilməsi;
- barəsində olan cinayət işinin istintaqı ilə əlaqədar götürmə və axtarış aparılması, əmlakı üzərinə həbs qoyulması, işdən (vəzifədən) kənarlaşdırılması və ya onun hüquqlarını məhdudlaşdıran digər prosessual hərəkətlərin həyata keçirilməsi;
- barəsində əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi;
- barəsində islah işləri, inzibati həbs və ya cərimə növündə inzibati tənbeh tətbiq edilməsi nəticəsində hər bir şəxsə: qanunsuz hərəkətlər nəticəsində onun itirdiyi mənfəət və digər gəlirlər; müsadirə olunmuş və ya məhkəmə tərəfindən dövlət nəfinə yönəldilmiş, yaxud təhqiqat və ya ibtidai istintaq orqanları, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlar tərəfindən götürülmüş, eləcə də üzərinə həbs qoyulmuş əmlak (o cümlədən, pul əmanətləri və onların faizi, qiymətli kağızlar və onların faizi, şəxsin iştirakçısı olduğu təsərrüfat birliyinin nizamnamə fondundakı payı və bu paya müvafiq olan əldə edilməmiş gəlir və digər dəyərlər); məhkəmə məsrəfləri ilə bağlı ondan tutulmuş məbləğlər; hüquqi yardımın göstərilməsi ilə əlaqədar ödənilmiş məbləğlər; vurulmuş mənəvi ziyan ödənilməlidir.

**Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində şəxsin əmlakına vurulmuş ziyanın ödənilməsi** dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir.

Qanununda nəzərdə tutulmuş ödənilməli olan məbləğlərin miqdan şəxsin işdən (vəzifədən) kənarlaşdırıldığı, təyin olunmuş cəzanı çəkdiyi dövrdə əldə edilməmiş gəliri nəzərə almaqla müəyyən edilir.

Müsadirə olunmuş və ya məhkəmə tərəfindən dövlət nəfinə yönəldilmiş, yaxud təhqiqat və ya ibtidai istintaq orqanları, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlar tərəfindən götürülmüş, eləcə də üzərinə həbs qoyulmuş əmlak (o cümlədən, pul əmanətləri və onların faizi, qiymətli kağızlar və onların faizi, şəxsin iştirakçısı olduğu təsərrüfat birliyinin nizamnamə fondundakı payı və bu paya müvafiq olan əldə edilməmiş gəlir və digər dəyərlər) natura formasında, bu mümkün olmadıqda isə, onun dəyəri dövlət və ya onu əvəzsiz olaraq əldə etmiş müəssisə, idarə və təşkilatların hesabına ödənilir.

Evlərin və digər tikililərin dəyəri, yalnız bu əmlakın natura şəklində qalmadığı, şəxsin dəyərcə bərabər olan yaşayış sahəsinin və ya digər tikililərin əvəzsiz olaraq onun mülkiyyətinə verilməsindən imtina etdiyi hallarda və ya həmin şəxsin yaşayış evlərinin və digər tikililərin dəyərinin ödənilməsinə razılığı olduqda ödənilir. Yaşayış sahəsinin və digər tikililərin dəyəri mövcud bazar qiymətlərinə əsasən müəyyən edilir.

Əmlakın dəyəri onun ödənilməsi haqqında qərarın qəbul edildiyi vaxtda mövcud olan qiymət əsasında ödənilir. Əmlakın zədələnməsi və ya köhnəlməsi hallarında vurulmuş ziyan tam həcmdə ödənilməlidir.

Ödənilməli olan əmlakı əvəzsiz olaraq əldə etmiş müəssisənin, idarənin və təşkilatın ləğv edildiyi və ya vurulmuş ziyanın ödənilməsi üçün onların vəsaiti çatışmadığı hallarda, əmlakın dəyəri (əmlakın dəyərinin çatışmayan hissəsi) dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.

Qanunsuz məhkum edilməsi nəticəsində yaşayış sahəsindən istifadə etmə hüququndan məhrum edilmiş şəxsə müvafiq icra hakimiyyəti orqanları tərəfindən həmin yaşayış sahəsi bir ay

müddətində, bu yaşayış sahəsi natura şəklində qalmadığı hallarda isə, bununla əlaqədar edilmiş müraciətdən sonra altı ay müddətində həmin yaşayış məntəqəsində ailə tərkibi və yaşayış sahəsinə dair qüvvədə olan normalar nəzərə alınmaqla növbədənkənar eyni dəyərli abadlaşdırılmış yaşayış sahəsi verilməlidir.

Ödənilməli olan əmlakı əldə etmiş şəxs, bu əmlakın vurulmuş ziyanın ödənilməsi qaydasında əvvəlki sahibinə qaytarılması ilə əlaqədar əvəzində dövlətdən abadlaşdırılmış, dəyərcə və bütün digər əlamətlərlə bərabər olan əmlakı və ya onun dəyərini tələb etmək hüququna malikdir. Belə tələb, irəli sürüldükdən sonra bir ay müddətindən gec olmayaraq dövlət tərəfindən təmin edilir.

Bununla əlaqədar bütün mübahisələr məhkəmə qaydasında həll olunur.

Şəxsin barəsində mənfı fıkrin formalaşmasına, onu əhatə edən şəxslərlə münasibətlərin pisləşməsinə gətirib çıxaran və digər mənəvi xarakterli mənfi nəticələr mənəvi ziyan hesab edilir.

Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində şəxsə vurulmuş mənəvi ziyan mülki qanunvericiliklə nəzərdə tutulmuş qaydada ödənilir.

Qanunsuz məhkum edilməsi və ya cinayət məsuliyyətinə cəlb edilməsi ilə əlaqədar işdən (vəzifədən) çıxarılmış və ya işdən (vəzifədən) kənarlaşdırılmış şəxs, əvvəlki işə (vəzifəyə) bərpa edilməli, bu mümkün olmadıqda isə, (müəssisənin, idarənin, təşkilatın ləğv edilməsi, vəzifənin ixtisar olunması) dövlət məşğulluq xidməti tərəfindən başqa müvafiq (əvvəlki işinə bərabər olan) işlə (vəzifə ilə) təmin edilməlidir.

Bu maddənin birinci hissəsində nəzərdə tutulmuş hallarda işdən (vəzifədən) çıxarılma haqqında əmək kitabçasında edilmiş qeyd etibarsız hesab olunur. Şəxsin tələbi ilə onun işdən (vəzifədən) çrxarılması haqqında əmək kitabçasında müvafiq qeyd aparmış orqan və ya onun vəzifəli şəxsi beş gün müddətində etibarsız hesab olunmuş qeydin olmadığı əmək kitabçasının dublikatını ona verməlidir.

Şəxsin cinayət və ya inzibati məsuliyyətə cəlb edilməsi, yaxud məhkum edilməsi haqqında məlumatlar dərc edildikdə onun tələbi ilə, həmin şəxs vəfat etdikdə isə onun qohumlarının, yaxud təhqiqat orqanının, müstəntiqin, prokurorun və məhkəmənin tələbi ilə bu məlumatları dərc etmiş orqan on gün müddətində qeyd olunan məlumatları təkzib etməlidir.

Şəxsin tutulma, həbsdə olma, cəza çəkmə müddətləri və işdən (vəzifədən) kənarlaşdırılması ilə əlaqədar işləmədiyi müddət həm ümumi əmək stajına, həm də ixtisas üzrə və fasiləsiz staja daxil edilir.

Fəhlələrin və dövlət qulluqçularının, eləcə də üzvlük əsasında (kooperativ və digər müəssisələrdə) işləmiş şəxslərin, bu maddənin birinci hissəsində göstərilmiş müddətlərin əlavə edilməsi şərtilə hesablanmış əmək stajı, həmin şəxslərə imtiyazların və müavinətlərin, o cümlədən təqaüdlərin və dövlət sosial sığortası üzrə ödənişlərin təyin edilməsi zamanı nəzərə alınır. Bu staj fəhlələrə və qulluqçulara imtiyazlı təqaüdlərin və xidmət işlərinə görə təqaüdlərin təyin edilməsi, ixtisas üzrə iş müddətinin davamından asılı olaraq aylıq maaş dərəcəsinin (vəzifə maaşının) müəyyən edilməsi və birdəfəlik mükafaflandırma və ya xidmət illərinə görə faiz artırmalarının ödənilməsi zamanı nəzərə alınmalıdır.

Şəxsin tutulma, həbsdə olma, cəza çəkmə müddətləri və işdən (vəzifədən) kənarlaşdırılması ilə əlaqədar işləmədiyi müddətlər, yaşla əlaqədər imtiyazlı təqaüdlərin təyin edilməsi zamanı, təqaüdün təyin edilməsi üçün müraciət etmiş şəxsin istəyi ilə, onun qanunsuz məhkum edilməsindən və ya cinayət, yaxud inzibati məsuliyyətə cəlb edilməsindən əvvəlki, yaxud cinayət və ya inzibati məsuliyyətdən və ya cəza çəkməkdən azad edilməsindən sonrakı işinə bərabər tutulur.

Qanunsuz məhkum edilməsi ilə əlaqədər hərbi və ya digər rütbələrdən, dərəcələrdən və adlardan, dövlət mükafatlarından və təltiflərdən məhrum edilmiş şəxsə həmin hərbi və ya digər rütbələr, dərəcələr və adlar, dövlət mükafatları və təltiflər geri qaytarılır.

Şəxs barəsində bəraətverici hökm çıxarıldıqda, cinayət hadisəsinin olmaması, əməlində cinayət tərkibinin olmaması və ya şəxsin cinayət törətməkdə iştirakının sübut edilməməsi ilə bağlı cinayət işinə xitam verildikdə və ya cinayət işinin başlanması rədd edildikdə, habelə inzibati hüquqpozma haqqında isə xitam verildikdə, təhqiqat orqanı, müstəntiq, prokuror, yaxud məhkəmə həmin şəxsə onun pozulmuş hüquqlarının bərpa edilməsi və vurulmuş ziyanın ödənilməsi qaydasını izah etməli və onun istəyi ilə bir ay müddətində öz qərarı haqqında əmək kollektivinə məlumat verməlidir.

Ziyanın məbləği qanunvericiliklə nəzərdə tutulmuş qaydada məhkəmə tərəfindən müəyyən edilir.

Şəxsin çıxarılmış qərarla razılaşmadığı hallarda, o Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həmin qərardan yuxarı məhkəməyə şikayət verə bilər.

Şəxsin müraciətinə əsasən vurulmuş mənəvi ziyanın idənilməsi məsələsi mövcud qanunvericiliyə müvafiq olaraq nəhkəmə tərəfindən bu maddənin birinci hissəsinə uyğun olaraq həll edilir.

İstintaq və ya inzibati icraat müddətində və ya cəza çəkdiyi dövrdə şəxsə vurulmuş mənəvi ziyanın ümumi məbləği Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məhkəmə tərəfindən müəyyən edilir.

Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi barədə işlər üzrə ziyan çəkmiş tərəf məhkəmə məsrəfiərinin ödənilməsindən azad olunur.

Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində hərbi qulluqçulara vurulmuş ziyan **«Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında» Azərbaycan Respublikasının Qanununa** müvafiq olaraq ödənilir.

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya:***

**Maddə 6. Ədalətli məhkəmə hüququ.**

*Hər kəs onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərzsiz məhkəmə vasitəsib, ağlahatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir. Məhkəmə. qərarı açıq elan edir, lakin demokratik cəmiyyətdə əxlaq, ictimai qayda və ya milli təhlükəsizlik maraqları naminə, həmçinin yetkinlik yaşına çatmayanların maraqları və ya tərəflərin şəxsi həyatının müdafiəsi bunu tələb etdikdə, yaxud məhkəmənin fikrincə, aşkarlığın ədalət mühakiməsinin maraqlarını poza biləcəyi xüsusi hallar zamanı ciddi zərurət olduıqda mətbuat və ictimaiyyət bütün prosses boyu və ya onun bir hissəsində məhkəmə iclasına buraxılmaya bilər.*

**Azərbaycan Respublikasının qanunvericilik sistemi**

**Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinə əsasən,** hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir.

Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, həmlarlar ittifaqlarının və digər ictimai birliklərin, vəzifəli həxslərin qərar və hərəkətlərindən (yaxud hərəkətsizliyindən) məhkəməyə şikayət edə bilər.

**Azərbaycan Respublikası Konstitusiyasının 61-ci maddəsinə əsasən,** hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ vardır.

Qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardım ödənişsiz, dövlət hesabına göstərilir.

Hər bir şəxsin səlahiyyətli dövlət orqanları tərəfindən, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüquq vardır.

**Azərbaycan Respublikası Cinayət Prosesual Məcəlləsinin 22-ci maddəsi,** məhkəmə baxışını tələb etmək hüququnun təmin olunması ilə bağlı müddəaları nizama salır. Qanuna əsasən, **cinayət prosesini həyata keçirən orqanlar bu Məcəllə ilə müəyyən edilmiş qaydada hər kəsin ona qarşı irəli sürülmüş ittiham, yaxud barəsində tətbiq olunmuş prosessual məcburiyyət tədbirləri ilə əlaqədar ədalətli və açıq məhkəmə baxışının aparılmasını tələb etmək hüququnu təmin etməlidirlər. Hər hansı səbəbdən məhkəmə baxışını tələb etmək hüququnun rədd edilməsi yolverilməzdir.**

**Azərbaycan Respublikası Cinayət Prosesual Məcəlləsinin 27-ci maddəsi, cinayət mühakimə icraatının aşkar keçirilməsi ilə bağlı münasibətləri nizama salır. Belə ki, Azərbaycan Respublikası Cinayət Prosesual Məcəlləsində** nəzərdə tutulmuş dövlət, peşə, kommersiya sirlərinin habelə vətəndaşların şəxsi və ailə sirlərinin qorunması halları istisna olmaqla, Azərbaycan Respublikasında cinayət işləri və cinayət təqibi ilə bağlı digər materiallar üzrə ədalət mühakiməsi bütün məhkəmələrdə açıq aparılır.

**Azərbaycan Respublikası Mülki Prosesual Məcəlləsinin 4-cü maddəsinə əsasən,** bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər.

Məhkəməyə müraciət etmək hüququndan imtina edilməsi etibarsızdır.

Əgər qanunla müəyyən kateqoriya iqtisadi mübahisələr üçün məhkəməyə qədər nizamlama (pretenziya) qaydası müəyyən olunarsa və yaxud bu, tərəflər arasında müqavilə ilə nəzərdə rutularsa, mübahisə həmin qaydaya riayət edildikdən sonra iqtisad məhkəməsinin həllinə verilə bilər.

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya:***

**Maddə 6. Ədalətli məhkəmə hüququ.** . .

*2. Cinayət törətməkdə ittiham olunan hər kəs onun təqsırı qanun əsasında sübut edilmədək təqsirsiz hesab edilır.*

**Azərbaycan Respublikasının qanunvericilik sistemi**

**Azərbaycan Respublikası Konstitusiyasının 63-cu maddəsinə əsasən,** hər kəsin təqsirsizlik prezumpsiyası hüququ vardır. Cinayət törədilməsində təqsirləndirilən hər bır şəxs, onun təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirməyibsə və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmu yoxdursa, təqsirsiz sayılır.

Şəxsin təqsirli olmasına əsaslı şübhələr varsa, onun təqsirli bilinməsinə yol verilmir.

Cinayətin törədilməsində təqsirləndirilən şəxs ozunun təqsirsizliyini sübuta yetirməyə borclu deyildir.

Ədalət mühakiməsı həyata keçırılərkən qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə oluna bilməz.

Məhkəmənin hökmü olmasa, kimsə cinayətdə təqsirli sayıla bilməz.

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 7-cı maddəsi** təqsirə görə məsuliyyət prinsipini təsbit edır.

Yalnız törətdiyi ictimai təhlükəli əmələ (hərəkət və hərəkətsizliyə) və onun nəticələrinə görə təqsiri müəyyən olunmuş şəxs cinayət məsuliyyətinə cəlb edilə və cəzalandırıla bilər.

Şəxs təqsirsiz olaraq vurduğu zərərə görə cinayət məsulliyyətinə cəlb oluna bilməz.

**Azərbaycan Respublikası Cinayət Məcəlləsını maddəsi** təqsiri olmadığını bilə-bilə şəxsi cinayət məsulliyyətinə cəlb etməyə görə məsuliyyət müəyyən edir. Belə ki, təqsiri

olmadığını bilə-bilə şəxsi cinayət məsuliyyətinə cəlb etmə üç - ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Eyni əməllər şəxsin ağır və ya xüsusilə ağır cinayət törətməkdə ittiham olunması ilə bağlı törədildikdə - üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 8-ci maddəsi** təqsirsizlik prezumpsiyası prinsipi ilə bağlı müddəaları təsbit edir.

Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin təqsiri **Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi** ilə nəzərdə tutulmuş qaydada sübuta yetmədikdə və bu, inzibati xəta haqqında iş üzrə icraata baxmış hakimin, səlahiyyətli orqanın (vəzifəli şəxsin) qüvvəyə minmiş qərarı ilə müəyyən edilmədikdə o, təqsiri olmayan hesab edilir.

İnzibati məsuliyyətə cəlb olunmuş şəxs öz təqsirsizliyini sübut etməyə borclu deyildir.

İnzibati məsuliyyətə cəlb olunan şəxsin təqsirli olması barəsində olan şübhələr onun xeyrinə həll olunur.

**Azərbaycan Respublikası Cinayət Prosesual Məcəlləsinin 21-ci maddəsi** təqsirsizlik prezumpsiyası ilə bağlı müddəaları təsbit edir.

CPM-nin 21-ci maddəsinə əsasən, cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs onun təqsiri bu Məcəllədə nəzərdə tutulmuş qaydada sübuta yetirilməyibsə və bu barədə qanuni qüvvəyə minmiş məhkəmənin hökmü yoxdursa, təqsirsiz sayılır.

Şəxsin təqsirli olduğuna əsaslı şübhələr varsa da onun təqsirli bilinməsinə yol verilmir. **Azərbaycan Respublikası Cinayət Prosesual Məcəlləsinin** müddəalarına uyğun surətdə müvafiq hüquqi prosedura daxilində ittihamın sübuta yetirilməsində aradan qaldırılması mümkün olmayan şübhələr təqsirləndirilən şəxsin (şübhəli şəxsin) xeyrinə həll edilir. Eyni ilə cinayət və cinayət-prosessual qanunlarının tətbiqində aradan qaldırılmamış şübhələr də onun xeyrinə həll olunmalıdır.

Cinayət törədilməsində təqsirləndirilən şəxs özünün təqsirsiz olmasını sübuta yetirməyə borclu deyildir. İttihamı sübuta yetirmək, şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəsi üçün irəli sürülən dəlilləri təkzib etmək vəzifəsi ittiham tərəfinin üzərinə düşür.

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya:***

**Maddə 6. Ədalətli məhkəmə hüququ.**

*3. Cinayət törətməkdə ittiham olunan hər kəs, ən azı aşağıdakı hüquqlara malikdir.*

*a) ona qarşı irəli sürülmüş ittihamın xarakteri və əsasları haqqında onun başa düşdüyü dildə dərhal və ətraflı məlumatlandırılmaq.*

**Azərbaycan Respublikasının qanunvericilik sistemi**

**Azərbaycan Respublikası Cinayət Prosesual Məcəlləsinin 26-ci maddəsinə əsasən,** Azərbaycan Respublikası məhkəmələrində cinayət mühakimə icraatı Azərbaycan Respublikasının dövlət dilində və ya müvafiq ərazinin əhalisinin çoxluq təşkil edən hissəsinin dilində aparılır.

Cinayət prosesini həyata keçirən orqan cinayət mühakimə icraatının aparıldığı dili bilməyən cinayət prosesi iştirakçılarının aşağıdakı hüquqlarını təmin etməlidir:

- cinayət prosesi iştirakçılarına öz ana dilindən istifadə etmək hüququnu izah etmək:
- ibtidai araşdırma və məhkəmə baxışı zamanı tərcüməçinin köməyindən pulsuz istifadə etmək, ibtidai araşdırma qurtardıqdan sonra cinayət işi və ya cinayət təqibi ilə bağlı digər materiallarla tam tanış olmaq, məhkəmədə ana dilində çıxış etmək;
- cinayət mühakimə icraatının aparıldığı dili bilməyən cinayət prosesi iştirakçılarının - ibtidai araşdırma və məhkəmə baxışı

zamanı tərcüməçinin köməyindən pulsuz istifadə etmək, ibtidai araşdırma qurtardıqdan sonra cinayət işi və ya cinayət təqibi ilə bağlı digər materiallarla tam tanış olmaq, məhkəmədə ana dilində çıxış etmək hüquqlarının təmin olunması Azərbaycan Respublikasının dövlət büdcəsi hesabına həyata keçirilir.

- cinayət prosesini həyata keçirən orqan təqdim edilməli sənədləri müvafiq şəxslərə cinayət mühakimə icraatının aparıldığı dildə təqdim edir.

**Azərbaycan Respublikası Cinayət Prosesual Məcəlləsinin 91.5.1-ci maddəsinə əsasən,** təqsirləndirilən şəxs nədə təqsirləndiyini bilmək (ittihamın məzmunu, verilmiş ittihamın faktiki tərəfi və hüquqi tövsifi), ittiham elan edildikdə, habelə həbsə alındıqdan və ya barəsində qətimkan tədbiri seçilməsi haqqında qərar elan olunduqdan dərhal sonra müvafiq qərarın surətini almaq hüququna malikdir.

**Məcəllənin 91.5.2-ci maddəsinə əsasən,** təqsirləndirilən şəxs onu tutmuş və yə həbs haqqında qərarı icra etmiş şəxsdən, təhqiqatçıdan, müstəntiqdən və ya prokurordan hüquqları haqqında yazılı bildiriş almaq hüququna malikdir.

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya:***

**Maddə 6. Ədalətli məhkəmə hüququ.**

*3. b) öz müdafiəsini hazırlamaq üçün kifayət qədər vaxda və imkana malik olmaq.*

**Azərbaycan Respublikasının qanunvericilik sistemi**

**Azərbaycan Respublikası Konstitusiyasının 61-ci maddəsinin III bəndinə əsasən,** hər bir şəxsin səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ vardır.

**Azərbaycan Respublikası Cinayət Prosesual Məcəlləsinin**

**91.5.4-cü maddəsinə əsasən,** təqsirləndirilən şəxs həbsə alındığı və ya ittiham elan olunduğu andan müdafiəçiyə malik olmaq hüququna malikdir.

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya***

**Maddə 6. Ədalətli məhkəmə hüququ.**

*3. c) Şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsi ilə özünü müdafiə etmək və ya müdafiəçinin xidmətini ödəmək üçün vəsait kifayət etmədiyi zaman, ədalət mühakiməsinin maraqları tələb etdikdə, belə müdafiəçidən pulsuz istifadə etmək.*

**Azərbaycan Respublikasının qanunvericilik sistemi**

**Azərbaycan Respublikası Konstitusiyasının 61-ci maddəsinin II bəndinə əsasən,** qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardım ödənişsiz, dövlət hesabına göstərilir.

**Azərbaycan Respublikası Cinayət Prosesual Məcəlləsinin 91.5-ci maddəsinə əsasən,** təqsirləndirilən şəxs müdafiəçinin yardımından pulsuz istifadə etmək və müstəqil olaraq müdafiəçini seçmək hüququna malikdir.

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya:***

**Maddə 6. Ədalətli məhkəmə hüququ.**

*3. e) məhkəmədə istifadə olunan dili başa düşmürsə və ya bu dildə danışa bilmirsə tərcüməçinin pulsuz köməyindən istifadə etmək.*

**Azərbaycan Respublikasının qanunvericilik sistemi**

**Azərbaycan Respublikası Cinayət Prosesual Məcəlləsinin 91.5.12-ci maddəsinə əsasən,** təqsirləndirilən şəxs tərcüməçinin köməyindən pulsuz istifadə etmək hüququna malikdir.

***İnsan hüquqlarının və əsas azadlıqlarının***

***müdafiəsi haqqında Konvensiya:***

**Maddə 7. Qanunsuz cəzalandırılmamaq.**

*1. Heç kəs törədildiyi zaman milli və ya beynəlxalq hüquqa görə cinayət sayümayan hər hansı hərəkət və ya hərəkətsizliyə görə cinayət törətməkdə təqsirli sayüa bilməz. Habelə cinayət əməlinin törədildiyi zaman tətbiq olunandan daha ağır cəza verilə bilməz*

*2. Bu maddə törədildiyi zaman sivil ölkələrin tamdığı əsas hüquq prinsiplərinə müvafiq olaraq cinayət hesab edilən hər hansı hərəkət və ya hərəkətsizlik törətməyə görə istənilən şəxsin mühakimə edilməsinə və ya cəzalandırılmasına mane olmur.*

**Azərbaycan Respublikasının qanunvericilik sistemi**

**Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin VIII bəndinə əsasən,** heç kəs törədildiyi zaman hüquq pozuntusu sayılmayan əmələ görə məsuliyyət daşımır. Hüquq pozuntusu törədildikdən sonra yeni qanunla bu cür hərəkətlərə görə məsuliyyət aradan qaldırılmışsa və ya yüngülləşdirilmişsə, yeni qanun tətbiq edilir.

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 10-cu maddəsinə əsasən,** əməlin (hərəkət və ya hərəkətsizliyin) cinayət sayılması və həmin əmələ görə cəza, bu əməlin (hərəkət və ya hərəkətsizliyin) törədildiyi zaman qüvvədə olan cinayət qanunu ilə müəyyən edilir. Törədildiyi zaman cinayət sayılmayan əmələ görə heç kəs cinayət məsuliyyətinə cəlb oluna və cəzalandırıla bilməz.

Əməlin (hərəkət və ya hərəkətsizliyin) cinayət sayılmasını və həmin əmələ görə cəza müəyyən edən, cəzanı ağırlaşdıran, yaxud cinayət törətmiş şəxşin vəziyyətini başqa cür ağırlaşdıran cinayət qanununun geriyə qüvvəsi yoxdur.

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya:***

**Maddə 8. Şəxsi və ailə həyatına hörmət hüququ.**

1. *Hər kəs öz şəxsi və ailə həyatına, mənzilinə və yazışına sirrinə hörmət hüququna malikdir.*

2. *Milli təhlükəsizlik və ictimai asayiş, ölkənin iqtisadi rifah maraqları naminə, iğtişaşın və ya cinayətin qarşısını almaq üçün sağlamlığı, yaxud mənəviyyatı mühafizə etmək üçün və ya digər şəxslərin hüquq və azadlıqlarını müdafiə etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan hallar istisna olmaqla, dövlət hakimyyəti orqanları tərəfindən bu hüququn həyata keçirilməsinə mane olmağa yol verilmir.*

**Azərbaycan Respublikasının qanunvericilik sistemi**

**Azərbaycan Respublikası Konstitusiyasının 31-ci maddəsinə əsasən,** hər kəsin təhlükəsiz yaşamaq hüququ vardır.

Qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, şəxsin həyatına, fiziki və mənəvi sağlamlığına, mülkiyyətinə, mənzilinə qəsd etmək, ona qarşı zor işlətmək qadağandır.

**Azərbaycan Respublikası Konstitusiyasının 32-ci maddəsinə əsasən,** hər kəsin şəxsi toxunulmazlıq hüququ vardır.

Hər kəsin şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ vardır. Qanunla nəzərdə tutulan hallardan başqa şəxsi həyata müdaxilə etmək qadağandır.

Öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanmasına, saxlanmasına, istifadəsinə və yayılmasına yol verilmir.

Hər kəsin yazışına, telofon damşıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini saxlamaq hüququna dövlət təminat verir. Bu hüquq qanunla nəzərdə tutulmuş qaydada cinayətin qarşısını almaqdan və ya cinayət işinin istintaqı zamanı həqiqəti üzə çıxarmaqdan ötrü məhdudlaşdırıla bilər.

**Azərbaycan Respublikası Konstitusiyasının 33-cü maddəsinə əsasən,** hər kəsin mənzil toxunulmazlığı hüququ vardır.

Qanunla müəyyən edilmiş hallar və ya məhkəmə qərarı istisna olmaqla mənzildə yaşayanların iradəsi ziddinə heç kəs mənzilə daxil ola bilməz.

Vəkillər və vəkillik fəaliyyəti haqqında **Azərbaycan Respublikasının Qanunu 17-ci maddəsinə əsasən,** vəkilin peşə vəzifələrinin həyata keçirilməsi ilə əlaqədar aldığı məlumatlar, verdiyi məsləhətlər və arayışlar vekil sirrini təşkil edir.

Peşə vəzifələrini həyata keçirərkən məlum olan ibtidai istintaqın sirrini təşkil edən məlumatların vəkil tərəfindən yayılması yalnız prokurorun və ya müstəntiqin icazəsi ilə ola bilər.

İbtidai istintaqın sirrini təşkil edən məlumatların yayılmasında təqsirli olan vəkillər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Müraciət etmiş şəxsə hüquqi yardımın göstərilməsi ilə əlaqədar olaraq vəkilə məlum olmuş hallar barədə o, şahid kimi çağrıla və dindirilə bilməz. Vəkil göstərilən hallar barədə izahat verməməli və ona etibar edən şəxsin bildirdiyi məlumatı yaymamalıdır.

Vəkil sirrini təşkil edən məlumatlar vəkilin hüquqi yardım göstərdiyi cinayət, mülki və inzibati işlər üzrə, həmçinin həmin vəkilin iştirakı ilə aparılan məhkəmə prosesində sübut kimi qiymətləndirilə bilməz.

**Notariat haqqında Azərbaycan Respublikasının Qanununun 32-ci maddəsinə əsasən,** notariat hərəkətləri barədə arayışlar və sənədlər yalnız notariat hərəkətlərinin aparılmasını tapşırmış və ya barəsində notariat hərəkətləri aparılmış fiziki və hüquqi şəxslərə verilməlidir.

Notariat hərəkətləri barədə məlumat və sənədlər yalnız məhkəmənin, istintaq və təhqiqat orqanlarının tələbi ilə onların icraatlarında olan konkret cinayət və ya mülki işlərlə əlaqədar olaraq verilir.

Notariat hərəkətləri barədə lazımi məlumatların istisna hallarda verilməsinin qaydası Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunur.

Notariuslar, notariat hərəkətləri aparan digər vəzifəli şəxslər və xidməti vəzifələrini yerinə yetirmələri ilə əlaqədar notariat hərəkətlərindən xəbərdar olan şəxslər bu hərəkətlərin sirrini saxlamağa borcludurlar.

Vəsiyyətnamələr haqqında arayışlar yalnız vəsiyyətçinin ölümündən sonra verilə bilər.

Notariat hərəkətləri sirrinin açılmasında təqsirli olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşımalıdırlar.

Notariat hərəkətlərinin aparılması ilə əlaqədar notariusa qarşı cinayət işi qaldırıldıqda, məhkəmə onu sirri saxlamaq vəzifəsindən azad edə bilər.

**Əhalinin sağlamlığının qorunması haqqında Qanunun 53-cü maddəsinə əsasən,** vətəndaşın tibbi yardım üçün müraciət etməsi faktı, onun xəstəliyinin diaqnozu, sağlamlığının vəziyyəti müayinə və müalicə vaxtı əldə edilən digər məlumatlar barədə informasiya həkim sirrini təşkil edir. Vətəndaşın verəcəyi məlumatın gizli saxlanılması haqqında ona zəmanət verilir.

Vətəndaşın və ya onun qanuni nümayəndəsinin razılığı ilə həkim sirrini təşkil edən məlumat pasiyentin müayinə və müalicəsinin mənafeyi naminə, elmi tədqiqatların aparılması, elmi ədəbiyyatda nəşr edilməsi, tədris və digər məqsədlərlə istifadə olunması üçün başqa vətəndaşlara, vəzifəli şəxslərə verilə bilər.

Həkim sirrini təşkil edən məlumat vətəndaşın, yaxud onun qanuni nümayəndəsinin razılığı olmadan aşağıdakı hallarda verilə bilər:

- vətəndaş öz vəziyyətini izah etmək qabiliyyətinə malik olmadıqda, vətəndaşı müayinə və müalicə etmək məqsədilə;
- yoluxucu xəstəliklərin yayılması təhlükəsi olduqda, kütləvi zəhərlənmələr və zədələnmələr baş verdikdə;
- istintaq və təhqiqat orqanlarının, prokurorun və məhkəmənin sorğusu ilə;
- yetkinlik yaşına çatmayanların valideynlərinə, yaxud qanuni nümayəndələrinə məlumat vermək məqsədilə;

– hüquqa zidd hərəkətlər və vətəndaşın sağlamlığına vurulan zərər barədə şübhə olduqda.

Həkim sirrinə qanuni qaydada yiyələnən şəxslər onun yayılmasına və bununla əlaqədar vətəndaşa dəyən zərərə görə qanunvericiliyə uyğun olaraq tibb və əczaçılıq işçilərinə bərabər məsuliyyət daşıyırlar.

**Məlumat azadlığı haqqında Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə əsasən,** alınması məhdudlaşdırılan məlumatlara-dövlət, peşə (vəkil, notariat, həkim), qulluq, bank, kommersiya, istintaq və məhkəmə sirləri, şəxslərin şəxsi və ailə həyatına, terror aksiyalarına aid olan məlumatlar aiddirlər.

Dövlət, peşə (vəkil, notariat, həkim), qulluq, bank, kommersiya, istintaq və məhkəmə sirləri, şəxslərin şəxsi və ailə həyatına, terror aksiyalarına aid olan məlumatlarla bağlı yaranan münasibətlər müvafiq qanunvericiliklə tənzimlənir.

**Məlumat azadlığı haqqında Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinə əsasən,** şəxsiyyət haqqında sənədləşdirilmiş və ya açıq elan edilmiş xəbər şəxsiyyət barədə məlumata aiddir. Şəxsiyyət haqqında sənədləşdirilmiş məlumat mənbəyi onun adına verilmiş, onun tərəfindən imzalanmış sənədlər və öz səlahiyyətləri çərçivəsində orqanlar tərəfindən şəxsiyyət haqqında toplanmış məlumatlardır. Şəxsiyyətin dini mənsubiyyəti və əqidəsi barədə məlumat yalnız onun tərəfindən könüllü təqdim edildikdə dövlət orqanları tərəfindən toplana bilər. Şəxsiyyətin siyasi partiyaya üzvlüyü və ya bitərəf olması barədə məlumat yalnız qanunla nəzərdə tutulmuş hallarda dövlət orqanlarına təqdim edilməlidir.

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya:***

**Maddə 9. Fikir, vicdan və din azadlığı.**

*1. Hər kəsin fikir, vicdan və din azadlığı hüququ var: bu hüquqa öz dinini və əqidəsini və ya əqidəsini dəyişmək azadlığı, öz dininə və ya əqidəsinə həm təkbaşına və başqaları ilə birlikdə*

*etiqad etmək və açıq yaxud şəxsi qaydada ibadəti, təlimləri, dini və mərəsim ayinlərini* yerinə *yetirmək azadlıqları daxildir.*

*2. Öz dininə və baxışlarına etiqad etmək azadlığı yalnız ictimai əsayiş maraqları naminə, ictimai qaydanı, sağlamlığı yaxud mənəviyyatı qorumaq üçün və ya digər şəxslərin hüquq və azadlıqlarını müdafiə etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətə zəruri olan məhdudiyyətlərə məruz qala bilər.*

**Azərbaycan Respublikasının qanunvericilik sistemi**

**Azərbaycan Respublikası Konstitusiyasının 47-ci maddəsinə əsasən,** hər kəsin fikir və söz azadlığı vardır.

Heç kəs öz fikir və əqidəsini açıqlamağa və ya fikir və əqidəsindən dönməyə məcbur edilə bilməz.

İrqi, milli, dini, sosial ədavət və düşmənçilik oyadan təşviqata və təbliğata yol verilmir.

**Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinə əsasən,** hər kəsin vicdan azadlığı vardır.

Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqat etmək, yaxud heç bir dinə etiqat etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır.

Dini mərasimlərin yerinə yetirilməsi, ictimai qaydam pozmursa və ya ictimai əxlaqa zidd deyildirsə, sərbəstdir.

Dini etiqat və əqidə hüquq pozuntusuna bəraət qazandırmır.

**Dini etiqad azadlığı haqqında Azərbaycan Respublikasının Qanunu dini azadlığın həyata keçirilməsi ilə bağlı yaranan münasibətləri tənzimləyir.**

Hər bir şəxsin dinə münasibətini müəyyənləşdirməsində, dinə etiqadında, ibadətlərdə, dini ayin və mərasimlərin icrasında iştirak etməsində, dini öyrənməsi yolunda hər hansı maneçiliyə yol verilmir. Dini etiqadların, dini həyat tərzinin və ibadətlərin zor işlədilməklə və ya insanlar arasında nifaq salmaq məqsədi ilə təbliği, dini etiqada məcbur etmək qadağandır.

Dini etiqad azadlığının həyata keçirilməsində yalnız dövlət təhlükəsizliyi və ictimai təhlükəsizlik mülahizələrinə görə və Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərinə müvafiq olan hüquq və azadlıqların mühafizəsi üçün zəruri hallarda məhdudiyyətlər qoyula bilər.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən dini təbliğat aparılması qadağandır.

Valideynlər və ya onları əvəz edən şəxslər, qarşılıqlı razılıq əsasında, uşaqlarını özlərinin dini əqidəsinə və dinə münasibətinə müvafiq olaraq tərbiyə edə bilərlər.

Azərbaycan Respublikasının vətəndaşları dinə münasibətindən asılı olmayaraq siyasi, iqtisadi, sosial və mədəni həyatın bütün sahələrində qanun qarşısında bərabərdirlər. Vətəndaşın dinə münasibətinin rəsmi sənədlərdə göstərilməsinə yalnız öz istəyi ilə yol verilir.

Öz dini əqidəsinə görə heç kəs qanunla müəyyən edilmiş vəzifələrin icrasından imtina edə və ya boyun qaçıra bilməz.

Bir vəzifənin icrasının dini əqidəyə görə digər vəzifənin icrası ilə əvəz edilməsinə yalnız Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda yol verilir.

Azərbaycan Respublikasında din və dini qurumlar dövlətdən ayrıdır.

Dövlət ona aid olan hər hansı işin yerinə yetirilməsini dini qurumlara tapşırmır və onların fəaliyyətinə qarışmır.

Bütün dinlər və dini qurumlar qanun qarşısında bərabərdir. Bir din və dini qurum üçün digərinə nisbətən hər hansı üstünlük və ya məhdudlaşdırmalar müəyyən edilməsinə yol verilmir.

Dini qurumlar ictimai həyatda iştirak etmək, habelə ictimai birliklərlə yanaşı kütləvi məlumat vasitələrindən istifadə etmək hüququna malikdirlər.

Dini qurumlar siyasi partiyaların fəaliyyətində iştirak etmir və onlara maliyyə yardımı göstərmirlər.

Dövlət orqanlarının tərkibinə seçildikdə və ya vəzifəyə keçdikdə din xadimlərinin din xadimi kimi fəaliyyəti həmin müddətdə dayandırılır.

Dini qurumlar Azərbaycan Respublikasının mövcud qanunlarına əməl edir və məsuliyyət daşıyırlar.

Qanunun 6-cı maddəsinə əsasən Azərbaycan Respublikasında dövlət təhsil sistemi dindən ayrıdır.

Dinşünaslıq, dini-idraki, dini-fəlsəfi fənlər, müqəddəs dini kitabların əsasları ilə tanışlıq dövlət təhsil müəssisələrinin tədris proqramına daxil edilə bilər.

Vətəndaşlar istədikləri dildə fərdi qaydada və ya başqaları ilə birlikdə ilahiyyəti öyrənə və dini təhsil ala bilərlər.

Dini qurumlar öz nizamnamələrinə (əsasnamələrinə) müvafiq olaraq uşaqların və yaşlıların dini təhsili üçün tədris müəssisələri və qmpları yaratmaq, habelə başqa formalarda təlim keçmək, bundan ötrü onlara məxsus olan və onların istifadəsinə verilən əmlakdan istifadə etmək ixtiyarına malikdirlər.

Qanuna əsasən dini icmalar, idarələr və mərkəz, dini qardaşlıqlar, dini tədris müəssisələri, onların birlikləri dini qurumlardır. Dini qurumlar öz mərkəzi (idarələri) ilə təmsil olunurlar.

Dini qurumlar yetkinlik yaşına çatmış şəxslərin dini etiqad azadlığı hüququnun birgə həyata keçirilməsi, həmçinin dini etiqadı və dini yaymaq üçün yaradılmış könüllü təşkilatlardır.

Dini icma dinə birlikdə ibadət və digər dini tələbatı ödəmək məqsədilə könüllülük əsasında birləşmiş dindar şəxslərin yerli dini qurumudur.

Azərbaycan Respublikasında təşkilat məsələlərində islam dini icmaları Qafqaz Müsəlmanları idarəsinə tabedirlər, qeyri-müsəlman dini icmalarının Azərbaycan Respublikasında və xaricdə fəaliyyət göstərən dini mərkəzlərə (idarələrə) tabe olmaq və tabeliyini dəyişdirmək hüququ vardır.

Azərbaycan Respublikasında islam dini qurumları öz tarixi islam dini mərkəzində - Qafqaz Müsəlmanları İdarəsində birləşirlər.

Təşkilati mərkəzlərin xaricdə olan qeyri-islam dini qurumları öz fəaliyyətində Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan hallarda həmin mərkəzlərin nizamnamələrini rəhbər tuta bilərlər.

Dövlətin dini mərkəzlə və idarələrlə, o cümlədən Azərbaycan Respublikasının hüdudlarından kənarda olan dini mərkəzlərlə və idarələrlə qanunla tənzimlənməyən münasibətləri onların öz aralarında və dövlət orqanları ilə razılaşmalara müvafiq surətdə nizamlanır.

Dini mərkəz və idarələr öz nizamnamələrində (əsasnamələrində) nəzərdə tutulmuş qaydada ibadətgahlar, ziyarətgahlar, dini tədris müəssisələri və dini qardaşlıqlar yarada bilərlər.

Din xadimləri və dini ixtisaslar üzrə digər kadrlar hazırlanması üçün dini tədris müəssisələri yalnız dini mərkəz və idarələr yarada bilərlər. Dini mərkəz və idarələr birdən çox ali dini tədris müəssisəsi yarada bilməz. Dini tədris müəssisələri ilə dini mərkəz və ya idarələr arasında münasibətlər təsis sənədləri ilə müəyyən edilir.

Əyani alı və orta dini tədris müəssisələrində təhsil alanlar dövlət tədris müəssisələrində təhsil alanlar üçün müəyyən olunmuş hüquq və güzəştlərdən istifadə edirlər.

Dini icmanın dövlət qeydiyyatına alınması üçün onu yaratmış azı on nəfər yetkin yaşlı şəxs icmanın təsis protokolu və nizamnaməsi (əsasnaməsi) əlavə olunmuş ərizə ilə dini mərkəzə və ya idarəyə müraciət edir. Dini mərkəz və ya idarə 15 gün ərzində həmin sənədləri öz təqdimatı ilə birlikdə dini işlər üzrə müvafiq icra hakimiyyəti orqanına göndərir.

Dini mərkəzin, dini idarələrin, dini tədris müəssisələrinin, dini qardaşlıqların dövlət qeydiyyatına alınması üçün dini işlər üzrə müvafiq icra hakimiyyəti orqanına təsis sənədi və nizamnamə (əsasnamə) təqdim edilir.

Dini işlər üzrə müvafiq icra hakimiyyəti orqanı 15 gün ərzində həmin sənədləri öz rəyi ilə birlikdə hüquqi şəxslərin dövlət qeydiyyatı orqanına göndərir.

Dini qurumların dövlət qeydiyyatına alınması, dövlət qeydiyyatından imtina edilməsi, mübahisəli məsələlərin həlli və məhkəməyə müraciət etmək hüququ Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun həyata keçirilir.

Dini qurumlar ibadətlər və dini yığıncaqlar üçün onlara münasib yerlərə, habelə bu və ya digər dində müqəddəs sayılan ziyarətgahlara himayədarlıq edib, onları saxlamaq və onlardan istifadə etmək hüququna malikdirlər.

İbadətlər, dini ayinlər və mərasimlər ibadətgahlarda və onlara məxsus ərazidə, ziyarətgahlarda, qəbristanlıqlarda, dini qurumların idarələrində, vətəndaşların mənzillərində və evlərində maneəsiz keçirilir.

Qoşun hissələrinin komandanlığı (müstəsna hallardan başqa) hərbi qulluqçuların boş vaxtlarında ibadət etmələrinə və dini ayinləri yerinə yetirmələrinə mane ola bilməz. Əsgəri bölmələrdə hərbi rəhbərliyin razılığı ilə ruhanilərin fəaliyyətinə yol verilir.

Xəstəxanalarda, qospitallarda, qocalar və əlillər evlərində, yataqxanalarda, ibtidai həbs yerlərində ibadətlər və dini ayinlər orada olan şəxslərin xahişi ilə keçirilir. Həmin idarələrin müdiriyyəti ruhanilərin dəvət olunmasına yardım göstərir, ibadətin, ayinin və ya mərasimin keçirilməsi vaxtının və başqa şərtlərinin müəyyənləşdirilməsində iştirak edir. Digər hallarda açıq ibadətlər, dini ayinlər və mərasimlər yığıncaq, mitinq, nümayiş və yürüşlərin keçirilməsi üçün müəyyən edilmiş qaydada icra olunur.

Dini qurumlar xəstəxanalarda, qospitallarda, qocalar və əlillər evlərində, yataqxanalarda, islah-əmək müəssisələrində olan vətəndaşlara ibadətlər keçirilməsi üzrə təkliflərlə müraciət etmək hüququna malikdirlər.

Vətəndaşlar və dini qurumlar istədikləri dildə dini ədəbiyyat, eləcə də dini təyinatlı başqa əşya və materiallar əldə edə və bunlardan istifadə edə bilərlər.

Dini qurumlar dini işlər üzrə müvafiq icra hakimiyyəti orqanının razılığı ilə dini təyinatlı ədəbiyyatı, əşyaları və dini məzmunlu başqa məlumat materiallarını istehsal, idxal edə və sərbəst yaya bilərlər.

Dini qurumlar həm müstəqil, həm də ictimai fondlar vasitəsi ilə və ya digər formada mədəni-maarif fəaliyyəti göstərirlər.

Vətəndaşlar və dini qurumlar tək və ya qrup halında beynəlxalq dini tədbirlərdə, xaricdə keçirilən dini mərasimlərdə iştirak edə, ziyarətlərə gedə bilərlər.

Vətəndaşların dini tədris müəssisələrində təhsil almaq üçün xaricə göndərilməsi, qəbulu və din xadimlərinin mübadiləsi dini mərkəz və ya dini idarələr tərəfindən həyata keçirilir.

Dini etiqad azadlığı haqqında qanunvericiliyin pozulmasında günahkar olan vəzifəli şəxslər və vətəndaşlar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya:***

**Maddə 10. İfadə etmək (ekspression) azadlığı.**

*1. Hər kəs ifadə etmək azadlığı hüququna malikdir. Bu hüquqa öz rəyində qalmaq azadlığı, dövlət hakimiyyəti orqanları tərəfindən hər hansı maneçilik olmadan və dövlət sərhədlərindən asılı olmayaraq, məlumat və ideyaları almaq və yaymaq azadlığı daxildir. Bu maddə dövlətlərin radioyayım, televiziya və kinematoqrafiya müəssisələrinə lisenziya tələbi qoymasına mane olmur.*

*2. Bu azadlıqların həyata keçirilməsi milli təhlükəsizlik, ərazi bütövlüyü və ya ictimai asayiş maraqları naminə, iğtişaşın və ya cinayətin qarşısını almaq üçün, sağlamlığın, yaxud mənəviyyatın mühafizəsi üçün, digər şəxsin nüfuzu və hüquqlarının müdafiəsi üçün gizli əldə edilmiş məlumatların açıqlanmasının qarşısını almaq üçün və ya ədalət mühakiməsinin nüfuz və qərəzsizliyini təmin etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan müəyyən formallıqlara, şərtlərə, məhdudiyyətlərə və ya sanksiyalara məruz qala bilər.*

## Azərbaycan Respublikasının qanunvericilik sistemi

**Azərbaycan Respublikası Konstitusiyasının 47-ci maddəsinin I bəndinə əsasən,** hər kəsin fikir və söz azadlığı vardır.

**Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsinə əsasən,** hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır.

Kütləvi informasiyanın azadlığına təminat verilir. Kütləvi informasiya vasitələrində, o cümlədən mətbuatda dövlət senzurası qadağandır.

**Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin III bəndinə əsasən,** müharibə, hərbi vəziyyət və fövqəladə vəziyyət, habelə səfərbərlik elan edilərkən insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsi Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərini nəzərə almaq şərti ilə qismən və müvəqqəti məhdudlaşdırıla bilər. Həyata keçirilməsi məhdudlaşdırılan hüquq və azadlıqlar haqqında əhaliyə qabaqcadan məlumat verilir.

**Azərbaycan Respublikasının Məlumat azadlığı haqqında Qanunu** məlumat azadlığının həyata keçirilməsi ilə əlaqədar yaranan münasibətləri tənzimləyir.

Qanuna əsasən hər kəsin məlumat əldə etmək üçün müraciət etmək hüququ vardır.

Məlumat azadlığının həyata keçirilməsi fiziki və hüquqi şəxslərin hüquq və mənafelərinin pozulmasına səbəb olmamalıdır.

Məlumat azadlığının məhdudlaşdırılmasına yalnız Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulmuş hallarda yol verilir. Məlumat azadlığından istifadə edilməsi qaydası Azərbaycan Respublikasının Konstitusiyası və ona müvafiq olaraq Azərbaycan Respublikasının Qanunları ilə müəyyən edilir.

Məlumat münasibətlərinin subyektləri fiziki və hüquqi şəxslərdir.

Məlumat azadlığının həyata keçirilməsinin əsas prinsipləri aşağıdakılardır:

- məlumat azadlığının təmin edilməsi;
- məlumatın açıqlığı və onun mübadilə edilməsinin azadlığı;
- məlumatın obyektivliyi, tamlığı və həqiqiliyi;
- məlumatın axtarılmasının, əldə edilməsinin, istifadə olunmasının, yayılmasının və qorunmasının qanuniliyi;

– hər kəsin şəxsi və ailə həyatının sirrinin saxlanması;
– şəxsiyyətin, cəmiyyətin və dövlətin təhlükəsizliyinin qorunması.

Qanun məlumatın əldə edilməsi üçün aşağıdakı təminatları nəzərdə tutur:

– dövlət hakimiyyəti orqanlarının və bələdiyyələrin öz fəaliyyətləri və qəbul olunmuş qərarları barədə məlumatlar vermələri yolu ilə;
– dövlət hakimiyyəti orqanlarında məlumatın əldə edilməsi üçün informasiya xidmətlərinin yaradılması ilə;
– statistik məlumatlardan, kitabxanaların, arxivlərin və muzeylərin fondlarından, habelə informasiya sistemlərindən maneəsiz istifadə edilməsi ilə;
– vətəndaşların həyatı və sağlamlığı üçün təhlükə yaradan fövqəladə hallar, təbii fəlakətlər və qəzalar barədə əhaliyə dər-hal məlumat verilməsi ilə;
– dövlətin təhlükəsizliyinə xətər yaradan fövqəladə hallar barədə əhaliyə dərhal məlumat verilməsi ilə;
– kütləvi informasiya vasitələrində, o cümlədən mətbuatda dövlət senzurasına yol verilməməsi ilə;
– normativ-hüquqi aktların qanunvericilikdə nəzərdə tutulmuş qaydada əhalinin nəzərinə çatdırılması ilə.

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya:***

**Maddə 11. Yığıncaqlar və birləşmək azadlığı.**

*1. Hər kəsin dinc toplaşmaq azadlığı və öz maraqlarını müdafiə etmək üçün həmkarlar ittifaqları yaratmaq və onlara qoşulmaq hüququ da daxil olmaqla başqaları ilə birləşmək azadlığı hüququ vardır.*

*2. Bu hüquqların həyata keçirilməsinə milli təhlükəsizlik və ictimai asayiş maraqları naminə, iğtişaşın və cinayətin qarşısını almaq üçün, sağlamlığın və mənəviyyatın mühafizəsi üçün və ya digər şəxşlərin hüquq və azadlıqlarının müdafiəsi üçün qanunla*

*nəzərdə tutulmuş və demokratik cəmiyyətə zəruri olanlardan başqa heç bir məhdudiyyətlər qoyula bilməz. Bu maddə silahlı qüvvələr, polis və ya inzibati dövlət orqanları üzvlərinin belə hüquqlarının həyata keçirilməsinə qanuni məhdudiyyətlər qoyulmasına mane olmur.*

## Azərbaycan Respublikasının qanunvericilik sistemi

**Azərbaycan Respublikası Konstitusiyasının 49-cu maddəsinə əsasən,** hər kəsin başqaları ilə birlikdə sərbəst toplaşmaq azadlığı vardır.

Konstitusiyaya əsasən hər kəsin başqaları ilə birlikdə müvafiq dövlət orqanlarını qabaqcadan xəbərdar etməklə dinc, silahsız yığışmaq, yığıncaqlar, mitinqlər, küçə yürüşləri keçirmək, piketlər düzəltmək hüququ vardır.

**Azərbaycan Respublikası Konstitusiyasının 58-ci maddəsinə əsasən,** hər kəsin başqaları ilə birləşmək hüququ vardır.

Konstitusiyaya əsasən hər kəs istənilən birlik, o cümlədən siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai birlik yaratmaq və ya mövcud birliyə daxil olmaq hüququna malikdir. Bütün birliklərin sərbəst fəaliyyətinə təminat verilir.

Heç kəs hər hansı birliyə daxil olmağa və ya onun üzvlüyündə qalmağa məcbur edilə bilməz.

Azərbaycan Respublikasının bütün ərazisində və ya hər hansı hissəsində qanuni dövlət hakimiyyətini zorla devirmək məqsədi güdən birliklər qadağandır.

Konstitusiyam və qanunları pozan birliklərin fəaliyyətinə yalnız məhkəmə qaydasında xitam verilə bilər.

**Siyasi partiyalar haqqında Azərbaycan Respublikasının Qanununa əsasən,** siyasi partiyalar assosiasiyalar azadlığı, könüllülük, üzvlərinin hüquq bərabərliyi, özünüidarə, qanunçuluq və aşkarlıq prinsipləri əsasında yaradılır və fəaliyyət göstərirlər.

Siyasi partiyalar ərazi əlaməti üzrə qurulur. Siyasi partiyaların ilk təşkilatlarının, komitələrinin və digər təşkilat strukturlarının Azərbaycan Respublikasının dövlət orqanlarında fəaliyyətinə yol verilmir.

Siyasi partiya yaradılmasının təşəbbüsçüləri təsis qurultayı (konfransı) və ya ümumi yığıncaq çağırır, orada nizamnamə qəbul olunur və rəhbər orqanlar təşkil edilir.

Siyasi partiyanın qeydə alınması üçün Azərbaycan Respublikasının azı 1000 vətəndaşı onun üzvü olmalıdır.

Məqsədi və ya fəaliyyət metodu Azərbaycan Respublikasının Konstitusiya quruluşunu devirməkdən, zorakılıqla dəyişdirməkdən və ya ərazi bütövlüyünü pozmaqdan, müharibəni, zorakılığı və qəddarlığı təbliğ etməkdən, habelə irqi, milli və dini ədavəti qızışdırmaqdan, Azərbaycan Respublikasının Konstitusiya quruluşuna zidd olan və beynəlxalq-hüquqi öhdəlikləri ilə bir araya sığmayan digər əməllər törətməkdən ibarət olan siyasi partiyaların yaradılmasına və fəaliyyətinə yol verilmir.

Azərbaycan Respublikasının ərazisində xarici dövlətlərin siyasi partiyalarının, habelə onların bölmələrinin və təşkilatlarının yaradılmasına və fəaliyyətinə yol verilmir.

Partiyalar aşağıdakı yolla siyasi fəaliyyət göstərirlər:

- nizamnamələrinə uyğun olaraq ictimai rəyin formalaşmasına təsir göstərmək;
- öz üzvlərinin siyasi fəallığına rəvac vermək;
- vətəndaşları öz sıralarından seçkili dövlət orqanlarına irəli sürmək;
- nizamnamələrinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericilik və icra hakimiyyəti orqanlarının fəaliyyətinə təsir göstərmək;
- siyasi və sosial proqramlar hazırlamaq yolu ilə Azərbaycan Respublikasının daxili və xarici siyasətinin formalaşmasına təsir göstərmək.

Siyasi partiyaların üzvləri Azərbaycan Respublikasının 18 yaşına çatmış, partiyaya könüllü daxil olmuş, onun nizamnaməsini və proqramını qəbul etmiş fəaliyyət qabiliyyətli vətəndaşlarıdır.

Siyasi partiyanın üzvlərinin hüquqları onun nizamnaməsi ilə müəyyən edilir və Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, şəxsiyyətin hüquq və azadlıqlarına dair Azərbaycan Respublikasının təsdiq etdiyi beynəlxalq hüquqi aktlara zidd ola bilməz.

Partiyanın hər bir üzvü və ya üzvləri qrupu öz iradəsini sərbəst ifadə etmək hüququna malikdir.

Siyasi partiyalar beynəlxalq ictimai (qeyri-hökumət) birliklərə daxil ola bilər, birbaşa beynəlxalq əlaqələr saxlaya, müvafiq sazişlər bağlaya bilərlər.

Öz nizamnamələrində, proqram sənədlərində, başqa aktlarda müəyyən edilmiş məqsədləri və vəzifələri həyata keçirmək üçün siyasi partiyalar:

– məqsədləri və fəaliyyəti barədə məlumatı sərbəst yayır;
– könüllülük əsasında birləşib siyasi bloklar, ittifaqlar, federasiyalar, birliklər yaradır;
– Azərbaycan Respublikası Prezidenti, parlamenti və digər seçkili dövlət orqanları seçkilərində, Azərbaycan Respublikası icra hakimiyyəti orqanlarının formalaşdınhnasında demokratik yolla (müstəqil surətdə, başqa partiyalar və təşkilatlar ilə blok və ya ittifaqda) iştirak edir;
– dövlət orqanları qərarlarının hazırlanmasına demokratik yolla təsir göstərir;
– dövlət orqanlarında və ictimai orqanlarda öz üzvlərinin mənafelərini təmsil edir və qoruyur;

Siyasi partiyalar haqqında Qanunda və Azərbaycan Respublikasının başqa qanunvericilik aktlarında nəzərdə tutulmuş digər funksiyaları həyata keçirirlər.

Siyasi partiyalar dövlət orqanlarının və vəzifəli şəxslərin fəaliyyətinə qarışa bilməzlər.

Partiyaların özlərinin fəaliyyəti haqqında məlumat yaymaq, ideyalarını, məqsədlərini və proqramlarını təbliğ etmək, kütləvi informasiya vasitələri təsis etmək, qanunla müəyyən edilən qaydada mitinqlər, nümayişlər, yığıncaqlar və başqa kütləvi tədbirlər keçirmək hüququ vardır.

Partiyaların rəhbər orqanları hökmən Azərbaycan Respublikasının ərazisində olmalıdırlar.

Dövlət siyasi partiyaların hüquqlarına və qanuni mənafelərinə əməl olunmasına, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğun olaraq onların öz nizamnamə vəzifələrini yerinə yetirmələri, habelə öz sənədlərini dövlət mətbuat orqanları vasitəsilə yaymaları üçün bərabər hüquqi şərait yaradılmasına, partiyaların rəhbər orqanlarının mühafızəsinə və təhlükəsizliyinə, bu məqsədlə dövlət mühafızə xidmətinin yaradılmasına və onun təchizatının təşkil edilməsinə təminat verir.

Qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, dövlət orqanlarının və vəzifəli şəxslərin siyasi partiyaların fəaliyyətinə qarışmasına yol verilmir.

**Siyasi partiyanın dövlət qeydiyyatına alınması qaydası «Siyasi partiyalar haqqında Qanunun» 14-cü maddəsinə** əsasən aşağıdakı qaydada müəyyən edilir.

Siyasi partiya müvafiq icra hakimiyyəti orqanında dövlət qeydiyyatına alınır.

Siyasi partiyanın dövlət qeydiyyatına alınması üçün nizamnamənin qəbul olunduğu gündən bir ay keçənədək partiyanın rəhbər orqanı üzvlərinin imzaları ilə, onların hər birinin yaşayış yeri göstərilməklə ərizə verilir. Ərizəyə nizamnamə, nizamnaməni qəbul etmiş təsis qurultaymın (konfransının) protokolu, partiya üzvlərinin sayını təsdiqləyən sənəd əlavə olunur.

Siyasi partiyanın nizamnaməsinə edilən dəyişikliklər və əlavələr siyasi partiyanın dövlət qeydiyyatına alındığı qaydada və müddətlərdə qeydə alınmalıdır.

Siyasi partiya dövlət qeydiyyatına alındığı gündən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hüquqi şəxs sayılır.

Partiyalar rəmz kimi emblemlərə, bayraqlara, vimpellərə və nişanlara malik ola bilərlər.

Müvafiq icra hakimiyyəti orqanının dövlət qeydiyyatına alınmış siyasi partiyanın rəhbər orqanlarından onların qəbul etdiyi qərarların təqdim olunmasım tələb etmək, partiyanın nizamnaməsinə əməl olunması ilə bağlı məsələlər barəsində izahat almaq hüququ vardır.

Siyasi partiyalar haqqında qanunvericiliyin pozulması Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə cinayət məsuliyyətinə, inzibati, maddi və ya başqa məsuliyyətə səbəb olur.

Siyasi partiyalar haqqında qanunvericiliym pozulmasına görə məsuliyyəti bunda müqəssir olan dövlət orqanlarının və ictimai orqanların vəzifəli şəxsləri, habelə vətəndaşlar daşıyırlar.

Siyasi partiyalar siyasi partiyalar haqqında qanunvericiliyi pozduqda Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə məsuliyyət daşıyırlar.

Siyasi partiya onun nizamnaməsi ilə müəyyən edilən məqsəd və vəzifələrdən kənara çıxan və ya qüvvədə olan qanunvericiliyə uyğun gəlməyən hərəkətlər etdikdə həmin partiyanın rəhbər orqanına Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən yazılı xəbərdarlıq edilə bilər.

Siyasi partiyanın ləğv edilməsi haqqında təqdimat Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən verilir.

**Siyasi partiyaların ləğvi haqqında qərarı məhkəmələr verə bilər.**

Azərbaycan Respublikası qanunvericiliyi həmkarlar ittifaqlarının hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında və Beynəlxalq Əmək Təşkilatının konvensiyalarında nəzərdə tutulan hüquqlarını məhdudlaşdırmamalıdır.

**Həmkarlar ittifaqları haqqında Azərbaycan Respublikasının Qanununun 3-cü maddəsinə əsasən** işçilər, pensiyaçılar, təhsil alan şəxslər heç bir fərq qoyulmadan öz istəkləri ilə, qabaqcadan icazə almadan könüllü surətdə həmkarlar ittifaqları yaratmaq, habelə öz qanuni mənafelərini, əmək, sosial, iqtisadi hüquqlarını müdafiə etmək üçün həmkarlar ittifaqlarına daxil olmaq və həmkarlar ittifaqı fəaliyyəti ilə məşğul olmaq hüququna malikdirlər.

İşləməyən pensiyaçıların və işsizlərin həmkarlar ittifaqında üzvlük qaydası həmkarlar ittifaqlarının nizamnamələri ilə tənzim edilir.

Azərbaycan Respublikasında hərbi xidmətdə olan şəxslərə həmkarlar ittifaqlarında birləşməyə icazə verilmir.

Müdiriyyətə daxil olan şəxslər həmin müəssisədə fəaliyyət göstərən həmkarlar ittifaqının üzvü ola bilməz.

Həmkarlar ittifaqları könüllü və müstəqil olaraq özlərinin ilk təşkilatlarım, peşə, sahə, respublika və digər ərazi birliklərini yarada bilərlər.

Həmkarlar ittifaqları dövlət orqanlarından, müəssisələrdən, siyasi partiyalardan və ictimai birliklərdən asılı olmayıb, onlara hesabat vermirlər. Bu Qanunda nəzərdə rutulmuş hallar istisna olmaqla, həmkarlar ittifaqlarının hüquqlarının həyata keçirilməsinə mane ola bilən hər hansı müdaxilə qadağandır.

Həmkarlar ittifaqları müstəqil surətdə öz nizamnamələrini, fəaliyyət proqramlarını hazırlayır və təsdiq edir, strukturlarını müəyyənləşdirir, rəhbər orqanlarını seçir və geri çağırır, yığıncaqlar, konfranslar, plenumlar, məclislər, qurultaylar keçirir və Konstitusiya hüquqları əsasında fəaliyyət göstərirlər.

Adından və təşkilati quruluşundan asılı olmayaraq bütün həmkarlar ittifaqları bərabər hüquqlara malikdirlər.

Həmkarlar ittifaqlarına siyasi fəaliyyətlə məşğul olmaq, siyasi partiyalarla birləşmək, yaxud onlarla birgə fəaliyyət göstərmək, siyasi partiyalara yardım, ianə vermək və onlardan yardım, ianə almaq qadağandır.

Həmkarlar ittifaqları birliklərinin sədrləri və ya onların müavinləri eyni zamanda siyasi partiyaların rəhbər orqanlarında ola bilməzlər. Siyasi partiyaların rəhbər orqanlarına seçilən, yaxud təyin edilən həmkarlar ittifaqları təşkilatmın sədrləri və ya onların müavinləri öz istəyi ilə bu iki fəaliyyətdən birini davam etdirə bilərlər.

Həmkarlar ittifaqlarında üzvlük, bu Qanunda göstərilən hallar istisna olmaqla, vətəndaşların qanunvericiliklə təmin edilən əmək, sosial, iqtisadi, siyasi, şəxsi hüquqları və azadlıqlarının məhdudlaşdırılmasına səbəb ola bilməz.

İşçilərin işə qəbulunu, irəli çəkilməsini, habelə işdən azad edilməsini onların müəyyən həmkarlar ittifaqma mənsubiyyəti, oraya daxil olması və ya oradan çıxması ilə şərtləndirmək qadağandır.

Həmkarlar ittifaqları təşkilatlarının fəaliyyətinə onların nizamnamələrində nəzərdə turulan qaydada xitam verilir.

Azərbaycan Respublikasının Konstitusiya quruluşunu devirmək, zorakılıqla dəyişdirmək və ya ərazi bütövlüyünü pozmaq, müharibəni, zorakılığı və qəddarlığı təbliğ etmək, habelə irqi, milli və dini ədavəti qızışdırmaq, Azərbaycan Respublikasının Konstitusiya quruluşuna zidd olan və beynəlxalq hüquqi öhdəlikləri ilə bir araya sığmayan digər əməllər törətmək məqsədi və ya fəaliyyət metodu olan həmkarlar ittifaqları təşkilatlarının yaradılmasına və fəaliyyətinə yol verilmir. Belə həmkarlar ittifaqı təşkilatının fəaliyyətinə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin təqdimatına əsasən Azərbaycan Respublikası Ali Məhkəməsi tərəfindən xitam verilir.

Həmkarlar ittifaqlarının peşə, sahə və respublika birliklərinin Azərbaycan xalqmın milli-etnik xüsusiyyətlərinə, Azərbaycan Respublikasının Konstitusiya quruluşuna, ərazi bütövlüyünə zidd əlamətləri olmayan rəmzi nişanları, bayraqları, üzvlük vəsiqələri ola bilər. Bu rəmzlər müvafiq həmkarlar ittifaqı birliklərinin orqanları tərəfindən qəbul edilir və müəyyən olunmuş qaydada dövlət qeydiyyatı orqanı tərəfindən təsdiq edilir.

Həmkarlar ittifaqları siyasi partiyaların rəmzi nişanlarından istifadə edə bilməzlər.

Həmkarlar ittifaqları əmək, sosial, iqtisadi məsələlər barəsində qanunvericilik aktlarının hazırlanmasında iştirak edə bilər.

İşçilərin əmək, sosial və iqtisadi hüquqlarına dair qanun layihələrinə həmkarlar ittifaqları respublika birliyinin rəyi müzakirə edilməklə baxılır.

Həmkarlar ittifaqlarının respublika birlikləri işçilərin mənafelərini və həmkarlar ittifaqlarının hüquqlarını pozan qanunvericilik aktları, dövlət orqanlarının qərarları, sərəncamları barədə müvafiq qanunvericilik, icra və məhkəmə orqanlarına müraciət edə və şikayət verə bilərlər.

Dövlət və təsərrüfat orqanları işçilərin əmək, sosial, iqtisadi hüquqlarına və mənafelərinə aid olan normativ aktları müvafiq həmkarlar ittifaqlarına azı 15 gün qabaq məlumat verməklə qəbul edirlər.

Qanunvericiliklə nəzərdə tutulan hallarda həmkarlar ittifaqları respublika birliyi əmək və sosial-iqtisadi məsələlər üzrə qanunvericiliyin tətbiq edilməsi qaydalarını nizama salan normativ aktların hazırlanmasında iştirak edə bilər.

Həmkarlar ittifaqları öz üzvlərinin əmək hüquqlarını müdafiə edir, dövlət məşğulluq siyasətinin hazırlanmasında iştirak edirlər.

Müdiriyyətin təşəbbüsü ilə müəssisənin və ya onun struktur bölmələrinin ləğv edilməsi istehsalm tamamilə və ya qismən dayandırılmasına, iş yerlərinin ixtisarına və ya əmək şəraitinin pisləşməsinə səbəb ola bilərsə, belə tədbirlər qanunvericilikdə nəzərdə tutulan hallar istisna olmaqla müvafiq həmkarlar ittifaqlarını azı üç ay qabaqcadan xəbərdar etmək və işçilərin hüquqlarının və mənafelərinin gözlənilməsi barədə onlarla danışıqlar aparmaqla həyata keçirilir.

Həmkarlar ittifaqları öz səlahiyyətləri daxilində qanunvericilikdə nəzərdə tutulan qaydada məşğulluğun vəziyyətinə, məşğulluq sahəsində təminatlar haqqında qanunvericiliyə əməl olunmasına nəzarət edirlər.

Həmkarlar ittifaqlarının müdiriyyət tərəfindən əmək və həmkarlar ittifaqları haqqında, habelə sosial, iqtisadi məsələlər barədə qanunvericiliyə əməl olunmasını və aşkara çıxarılmış pozuntuların aradan qaldırılmasını tələb etmək hüququ var.

Müdiriyyət bu tələblərə baxmağa və nəticələri barədə müəy-yən edilmiş müddətdə, lakin bir aydan gec olmayaraq həmkarlar ittifaqma məlumat verməyə borcludur.

Müəssisənin (filialm, nümayəndəliyin, şöbənin və digər əlahiddə bölmənin) rəhbəri və onun müavinləri əmək qanunvericiliyini pozduqda, qüvvədə olan kollektiv müqavilənin (sazişin) şərtlərini (təəhhüdlərini) yerinə yetirmədikdə həmkarlar ittifaqları onların intizam məsuliyyətinə cəlb edilməsi barədə buna səlahiyyəti olan orqanlar qarşısında məsələ qaldıra bilərlər.

Həmkarlar ittifaqları öz üzvlərinin hüquqlarını müdafiə etmək üçün məhkəməyə iddia ərizəsi ilə müraciət edə və məhkəmədə nümayəndəlik vəzifəsini yerinə yetirə bilərlər.

Həmkarlar ittifaqları öz üzvlərinə hüquqi yardım xidmətlərini müstəqil surətdə təşkil edir və bu məqsədlə həmkarlar ittifaqları vəkilliyi, hüquq müfəttişliyi, hüquqi ekspert qrupları, hüquq məsləhətxanaları, firmaları və başqa orqanlar yarada bilərlər.

Həmkarlar ittifaqları nizamnamə məqsəd və vəzifələrinə müvafiq olaraq beynəlxalq həmkarlar ittifaqları təşkilatlarına daxil ola, qanunvericiliklə müəyyən olunmuş qaydada xarici iqtisadi fəaliyyətlə məşğul ola bilərlər.

Dövlət və təsərrüfat orqanları, siyasi partiyalar və ictimai birliklər, müdiriyyət və vəzifəli şəxslər həmkarlar ittifaqlarının hüquqlarını pozmamalı, onların fəaliyyətinə yardım göstərməlidirlər.

Həmkarlar ittifaqlarının hüquqlarının pozulması və ya onların qanuni fəaliyyətinə mane olma qanunvericiliklə müəyyən edilmiş qaydada intizam, inzibati və ya cinayət məsuliyyətinə səbəb olur.

Müdiriyyət tərəfindən əmək və həmkarlar ittifaqları haqqında qanunvericiliyə, kollektiv müqavilənin şərtlərinə, əmək və sosial məsələlər üzrə sazişlərə əməl edilməsini yoxlamaq və nizamnamə vəzifələri ilə bağlı məsələlərlə əlaqədar həmkarlar ittifaqı nümayəndələrinin həmkarlar ittifaqı üzvlərinin iş yerlərinə getməsinə mane olmaq qadağan edilir.

**Sərbəst toplaşmaq azadlığı haqqında Azərbaycan Respublikasının Qanunu ilə Sərbəst toplaşmaq azadlığın həyata keçirilməsi və məhdudlaşdırılması ilə münasibətlər tənzimlənir.**

Dövlət sərbəst toplaşmaq azadlığının həyata keçirilməsini təmin edir və bu Qanuna uyğun təşkil edilən toplantıların dinc və silahsız keçməsi üçün müvafiq tədbirlər görür.

Azərbaycan Respublikası Konstitusiyasının 49-cu maddəsində təsbit edilmiş sərbəst toplaşmaq azadlığı beynəlxalq hüquq prinsiplərinə uyğun olaraq **Sərbəst toplaşmaq azadlığı haqqında Azərbaycan Respublikasının Qanunu** əsasında tətbiq edilir. Dövlət sərbəst toplaşmaq azadlığının həyata keçirilməsi zamanı şəxslərin bərabərlik hüququna təminat verir.

Aşağıdakı yerlərdə keçirilən dinc toplantılar bu Qanunla tənzimlənmir:

- şəxslərin xüsusi mülkiyyətində, icarəsində və ya başqa növ qanuni; - istifadəsində olan yerlərdə;
- ictimai tədbirlərin keçirilməsi üçün xüsusi olaraq ayrılmış qapalı yerlərdə.

Toplantıların aşağıdakı formaları bu Qanunla tənzimlənmir:

- toy və dəfn mərasimləri;
- bayram və matəm tədbirləri;
- dini mərasimlər.

Toy və dəfn mərasimlərindən, bayram və matəm tədbirlərindən, dini mərasimlərdən yığıncaq, mitinq, nümayiş, küçə yürüşü və piket keçirilməsi üçün istifadə etmək qadağandır.

Sərbəst toplaşmaq azadlığına hər hansı məhdudiyyət yalnız qanunla və demokratik cəmiyyətdə zəruri olan aşağıdakı mənafelərin qorunması məqsədilə qoyula bilər:

- ictimai və dövlət təhlükəsizliyi mənafelərinin qorunması üçün;
- ictimai asayişin pozulmasının qarşısını almaq üçün;
- iğtişaş və ja cinayətlərin baş verməməsi üçün;
- əhalinin sağlamlığının mühafizəsi üçün;
- əxlaq normalarının və mənəviyyatın mühafızəsi üçün;
- başqa şəxslərin hüquq və azadlıqlarının müdafiəsi üçün.

Ayrı-seçkiliyə, ədavətə və ya zorakılığa çağırışlarla müşaiyət olunan, milli, irqi və ya dini ədavəti həmçinin müharibəni təbliğ edən toplantılar qadağan edilir.

Siyasi məqsədlə dinc toplantı keçirmək aşağıdakı hallarda qadağan edilir:

- Azərbaycan Respublikası Prezidentinin seçkiləri (ölkə ərazisində), Azərbaycan Respublikası Milli Məclisi deputatlarının seçkiləri (ölkə ərazisində), Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının seçkiləri (Naxçıvan Muxtar Respublikasının ərazisində), bələdiyyə seçkiləri (müvafiq şəhər və rayonun ərazisində) gününə 24 saat qalmışdan seçki günü səsvermə məntəqələri bağlananadək;
- referendumun keçirildiyi günə 24 saat qalmışdan səsvermə məntəqələri bağlananadək;
- müvafiq icra hakimiyyəti orqanının qərarı ilə müəyyən edilmiş mühüm dövlət əhəmiyyətli beynəlxalq tədbirlərə hazırlıq dövründə və onların keçirildiyi günlərdə həmin tədbirin keçirildiyi şəhər və rayonların ərazilərində.

Aşağıdakı yerlərdə yığıncaqların, mitinqlərin, nümayişlərin keçirilməsi qadağandır:

- Azərbaycan Respublikasının qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının yerləşdiyi binaların ətrafında 300 metr radius çərçivəsində;
- dəmir yolu, neft və qaz boru kəmərlərinin, yüksək gərginlikli elektrik xətlərin keçdiyi ərazilərdə;
- xüsusi dövlət tədbirlərinin keçirilməsi üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən ayrılmış yerlərdə;
- hərbi məqsədlər üçün istifadə olunan ərazilərdə və bu ərazilərin sərhədlərinə 300 metrdən yaxın olan yerlərdə;
- azadlıqdan məhrum etmə yerlərinin, psixiatriya müalicə müəssisələrinin ərazilərində və bu ərazilərin sərhədlərinə 300 metrdən yaxın olan yerlərdə. Siyasi məzmunlu toplantılar ziyarətgahlarda, ibadətgahlarda və qəbiristanlarda keçirilə bilməz.

Piket düzəldənlər 50 nəfərdən çox olmamalı və piket edilən obyektin girişinə 10 metrdən yaxın məsafədə yerləşməməli,

piket edilən obyektə giriş və çıxış üçün maneələr yaratmamalı və 10 vattdan yüksək olan səs gücləndirici qurğulardan istifadə etməməlidirlər.

Yığıncaqların, mitinqlərin və nümayişlərin keçirilməsi üçün hər bir şəhər və rayonda müvafiq icra hakimiyyəti orqanı xüsusi yerlər ayırmalıdır. Yığıncaqların, mitinqlərin və nümayişlərin keçirilməsi üçün ayrılmış yerlərin siyahısı yerli mətbuatda dərc edilir və başqa üsullarla əhaliyə çatdırılır. Təşkilatçılar yığıncaq, mitinq və ya nümayiş üçün ayrılmış yerlərin birini seçə bilərlər.

Küçə yürüşünün təşkilatçıları onun marşrutunu müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmalıdırlar.

Toplantı yay vaxtının tətbiqi dövründə saat 8-00-dan 19-00-dək, ilin digər dövründə isə saat 9-00-dan 17-00-dək keçirilə bilər. Keçirilən hər bir toplantının vaxtı müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmalıdır.

Şəxslər toplantıda könüllü iştirak edirlər. Heç kəs toplantıda iştirak etməyə məcbur edilə bilməz. Kimi isə toplantıda iştirak etməyə məcbur edən şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş məsuliyyət daşıyırlar.

Azərbaycan Respublikasının Konstitusiyasına uyğün olaraq toplantı zamanı iştirakçıların şifahi və yazılı fikir və söz azadlığı vardır. Bu azadlığın həjata keçirilməsi Azərbaycan Respublikasının Konstitusiyasına və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq hüquq normalarına uyğun məhdudlaşdırıla bilər.

Toplantı zamanı iştirakçılar ictimai qaydanın qorunmasına köməklik göstərməli və təşkilatçıların, habelə müvafiq icra hakimiyyəti orqanı nümayəndələrinin qanuni tələblərinə əməl etmək üçün bütün mövcud imkanlardan istifadə etməlidirlər.

Qanuni toplantının iştirakçısı həmin toplantıda iştirak etməsinə görə sonradan hüquqi məsuliyyətə cəlb edilə bilməz. Yalnız hüquq pozuntusuna yol vermiş qanuni toplantının iştirakçıları hüquqi məsuliyyətə cəlb edilə bilərlər.

Toplantı iştirakçılarının odlu və ja soyuq silah, habelə insanların həyat və sağlamlığı üçün təhlükə yarada bilən və ja əmlaka zərər

vura bilən daş-kəsək, şüşə və taxta parçaları, dəyənəklər, bədən xəsarəti yetirmək üçün xüsusi düzəldilmiş əşyalar, partlayıcı maddələr və ya pirotexnika məmulatı, güclü təsir edən, zəhərli, tez alışan və ya aşındırıcı maddələr, radioaktiv materiallar gəzdirməsi qadağandır.

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya:***

**Maddə 12. Nikah hüququ.**

Nikah yaşına çatmış kişilər və qadınlar bu hüququn həyata keçirilməsini tənzimləyən milli qanunvericiliyə müvafiq olaraq, nigaha daxil olmaq və ailə qurmaq hüququna malikdirlər.

**Azərbaycan Respublikasının qanunvericilik sistemi**

**Azərbaycan Respublikası Konstitusiyasının 34-cü maddəsinə əsasən,** hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququ vardır.

Nikah könüllü razılıq əsasında bağlanılır. Heç kəs zorla evləndirilə (ərə verilə) bilməz.

Nikah və ailə dövlətin himayəsindədir. Analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir. Dövlət çoxuşaqlı ailələrə yardım göstərir.

Ər ilə arvadın hüquqları bərabərdir. Uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək valideyinlərin həm hüququ, həm də borcudur.

Valideyinlərə hörmət etmək, onların qayğısına qalmaq uşaqların borcudur. 18 yaşına çatmış əmək qabiliyyətli uşaqlar əmək qabiliyyəti olmayan valideyinlərini saxlamağa borcludurlar.

**Azərbaycan Respublikasının Ailə Məcəlləsi** Azərbaycan Respublikası Konstitusiyasında nəzərdə tutulan əsas insan və vətəndaş hüquqlarına və azadlıqlarına uyğun olaraq ailə münasibətlərinin yaranmasının və möhkəmlənməsinin, onlara xitam verilməsinin prinsiplərini, ailə münasibətlərinin iştirakçılarının hüquq və vəzifələrini, dövlət orqanlarının bu sahədə vəzifələrini, habelə vətəndaşlıq vəziyyəti aktlarının qeydə alınması qaydalarını tənzimləyən normaları müəyyən edir.

Azərbaycan Respublikasının ailə qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Ailə Məcəlləsindən, bu Məcəlləyə uyğun olaraq qəbul edilmiş digər müvafiq qanunvericilik aktlarından və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

Ailə qanunvericiliyi ailənin möhkəmləndirilməsi zəruriyyətindən, ailə münasibətlərinin qarşılıqlı məhəbbət və hörmət hissələri əsasında qurulmasından, ailənin işinə hər kəsin qarışmasının yolverilməzliyindən, ailə üzvlərinin ailə qarşısında qarşılıqlı yardım və məsuliyyətindən, onların hüquqlarının maneəsiz həyata keçirilməsinin təmin olunmasından və bu hüquqların məhkəmədə müdafiəsi imkanlarından irəli gəlir.

Azərbaycan Respublikasında nikah və ailə münasibətlərinin hüquqi baxımdan tənzimlənməsi dövlət tərəfindən həyata keçirilir və yalnız müvafiq icra hakimiyyəti orqanında bağlanmış nikah tanmır.

Dini kəbinkəsmə (dini nikah) hüquqi əhəmiyyətə malik deyildir.

Bu müddəa müvafiq icra hakimiyyəti orqanının yaradılmasınadək bağlanmış dini nikahlara və onların təsdiqinə dair sənədlərə, doğum, nikahın bağlanması, nikahın pozulması və ölüm haqqında sənədlərə aid deyildir.

Azərbaycan Respublikasının Ailə Məcəlləsi nikahın bağlanması, nikaha xitam verilməsi və onun etibarsız sayılması qaydaları və şərtlərini müəyyən edir, ailə üzvləri (ər-arvad, valideynlər və uşaqlar), eləcə də ailə qanunvericiliyində nəzərdə tutulmuş hallarda və həddə başqa qohumlar və digər şəxslər arasında yaranan əmlak və şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyir, habelə valideyn himayəsindən məhrum olan uşaqların tərbiyəyə götürülməsi qaydalarını müəyyən edir.

Ailə münasibətlərinin hüquqi tənzimi qadınla kişinin nikahının könüllülüyü, ər-arvadın hüquq bərabərliyi, ailədaxili məsələlərin qarşılıqlı razılıq əsasında həll olunması, uşaqların ailə tərbiyəsinin üstünlüyü, onların rifahına və inkişafına qayğı, ailənin yetkinlik yaşına çatmayan və əmək qabiliyyəti olmayan üzvlərinin

hüquq və mənafelərinin müdafiəsinin təmin olunması prinsiplərinə uyğun həyata keçirilir.

Nikah kişi ilə qadının ailə qurmaq məqsədilə müvafiq icra hakimiyyəti orqanmda qeydiyyata alman könüllü ittifaqıdır.

Nikaha daxil olarkən və ailə münasibətlərində sosial, irqi, milli, dini və dil mənsubiyyətinə görə vətəndaşların hüquqlarının hər hansı formada məhdudlaşdırılması qadağandır.

Yalnız qanun esasında ailənin başqa üzvlərinin və digər vətəndaşların mənəviyyatının, sağlamlığının, hüquqlarının və qanuni mənafelərinin müdafiəsi məqsədilə vətəndaşların ailədəki hüquqları məhdudlaşdırıla bilər.

Azərbaycan Respublikasının Ailə Məcəlləsi aşağıdakı vəzifələri həyata keçirir:

- ailənin ümumbəşəri prinsiplər əsasında qurulması;
- ailə münasibətlərinin qadın və kişinin könüllü nikah ittifaqı, bütün - ailə üzvlərinin maddi mülahizələrdən azad olan qarşılıqlı məhəbbəti, dostluğu və hörmət hissləri əsasında qurulması;
- ailədə uşaqların ictimai tərbiyə ilə üzvi əlaqədar şəkildə Vətənə sədaqət ruhunda tərbiyə edilməsi;
- ana və uşaqların mənafeyinin hərtərəfli müdafiəsi və hər bir uşağın xoşbəxt həyatının təmin edilməsi;
- ailə münasibətlərində zərərli adətlərin aradan qaldırılması;
- ailə və cəmiyyət qarşısında uşaqlarda məsuliyyət hissinin tərbiyə edilməsi.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 6-cı maddəsi Ailə hüquqlarının həyata keçirilməsi və müdafiəsi ilə bağlı müddəaları müəyyən edir.

Vətəndaşlar ailə hüquqlarını, habelə həmin hüquqların müdafiəsini, Azərbaycan Respublikasının Ailə Məcəlləsində başqa qayda nəzərdə tutulmayıbsa, müstəqil həyata keçirirlər.

Ailənin bir üzvü öz hüquqlarını həyata keçirərkən və vəzifələrini yerinə yetirərkən ailənin başqa üzvlərinin və digər vətəndaşların hüquqlarını, azadlıqlarını və qanuni mənafelərini pozmamalıdır.

Ailə hüquqları məhkəmələr, Azərbaycan Respublikasının Ailə Məcəlləsində nəzərdə tutulmuş hallarda müvafiq icra hakimiyyəti və digər dövlət orqanları tərəfindən qanunvericilikdə müəyyən olunmuş qaydada müdafiə olunur.

Pozulmuş hüquqların müdafiəsi üçün Ailə Məcəlləsində müəyyən olunmuş müddətlər istisna olmaqla, ailə münasibətlərindən irəli gələn tələblərə iddia müddəti şamil olunmur.

İddia müddətini müəyyən edən normaların tətbiqi zamanı məhkəmə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydaları rəhbər tutur.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 9-cu maddəsinə əsasən, Nikah müvafiq icra hakimiyyəti orqanmda nikaha daxil olmaq istəyən şəxslərin bu barədə ərizə verdikləri gündən 1 ay sonra onların iştirakı ilə bağlanır.

Üzrlü səbəblər olduqda nikahın bağlanma müddəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən azaldıla və ya 1 aydan çox olmayan müddətə uzadıla bilər.

Xüsusi hallarda (hamiləlik, uşağın doğulması və digər hallarda) nikah ərizə verilən gün bağlana bilər.

Ər-arvadın hüquq və vəzifələri müvafiq icra hakimiyyəti orqanında nikahın bağlanmasının dövlət qeydiyyatı günündən yaranır.

Müvafiq icra hakimiyyəti orqanı nikahın qeydiyyatından imtina etdikdə nikaha daxil olmaq istəyən şəxslər (onlardan biri) məhkəməyə şikayət edə bilərlər.

***Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 10-cu maddəsinə əsasən,*** Azərbaycan Respublikasında nigah yaşı kişilər üçün 18 yaş, qadınlar üçün 17 yaş müəyyən olunur.

Uzürlü səbəblər olduqda, nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin yaşadıqları ərazinin müvafiq icra hakimiyyəti orqanı onların xahişi ilə nikah yaşının 1 ildən çox olmayaraq azaldılmasına icazə verə bilər.

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya:***

**Maddə 13.** Səmərəli hüquqi müdafiə vasitələri hüququ.

Bu konvensiyada təsbit olunmuş hüquq və azadlıqları pozulan hər kəs, hətta bu pozulma rəsmi fəaliyyət göstərən şəxslər tərəfindən törədildikdə belə, dövlət orqanları qarşısında səmərəli hüquqi vasitələrinə malikdir.

**Azərbaycan Respublikasının qanunvericilik sistemi**

**Azərbaycan Respublikası Konstitusiyasının 26-cı maddəsinə əsasən,** hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır.

Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir.

**Azərbaycan Respublikası Konstitusiyasının 61-ci maddəsinə əsasən,** hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ vardır.

Qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardım ödənişsiz, dövlət hesabına göstərilir.

Hər bir şəxsin səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə ahndığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ vardır.

**Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu** cinayət işi üzrə zərər çəkən şəxslərin, şahidlərin və cinayət prosesində iştirak edən digər şəxslərin təhlükəsizliyinin təmin edilməsini və sosial müdafiəsini nəzərdə tutan tədbirlər sistemini müəyyənləşdirir. Bu Qanunla müəyyənləşdirilmiş tehlükəsizlik tədbirləri o halda tətbiq edilir ki, yuxarıda göstərilən şəxslərin təhlükəsizliyinin başqa vasitələrlə təmin edilməsi mümkün deyildir.

**Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanununun 2-ci maddəsinə əsasən,** müdafiə olunan şəxslərin dövlət müdafiəsi ilə təmin edilməsi haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından ibarətdir.

**Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanununun 3-cü maddəsinə əsasən,** səlahiyyətli dövlət orqanları tərəfindən barəsində təhlükəsizlik tədbirlərinin tətbiq.edilməsi haqqında qərar qəbul edilmiş şəxs, müdafiə olunan şəxs adlanır.

Müdafiə olunan şəxslər aşağıdakılardır:

1) hüquq-mühafızə orqanlarına cinayət haqqında məlumat vermiş və ya cinayətin aşkar edilməsində, qarşısının alınmasında və ya açılmasında iştirak etmiş şəxs;

2) cinayət işi üzrə zərər çəkən şəxs və onun nümayəndəsi;

3) şübhə edilən şəxs, təqsirləndirilən, onların müdafiəçiləri və nümayəndələri;

4) cinayətin törədilməsi nəticəsində dəymiş zərərin ödənilməsi barədə iddiaya dair mülki iş üzrə mülki iddiaçı, mülki cavabdeh və onların nümayəndələri;

5) şahidlər;

6) ekspert, mütəxəssis, tərcüməçi və hal şahidləri. Müdafiə olunan şəxslərə təzyiq göstərmək məqsədilə onların

yaxın qohumlarına təsir göstərildiyi hallarda təhlükəsizlik tədbirləri müdafiə olunan şəxslərin yaxın qohumları barəsində də tətbiq edilə bilər.

**Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanununun 4-cü maddəsinə əsasən,** bu Qanunun 3-cü maddəsində nəzərdə tutulan şəxslərin təhlükəsizliyinin təmin edilməsi, bu şəxslərin həyatının və sağlamlığının, əmlakının qorunması məqsədilə səlahıyyətli dövlət orqanları tərəfindən hüquqi, təşkilati-texniki və digər tədbirlərin həyata keçirilməsindən ibarətdir.

**Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanununun 5-ci maddəsinə əsasən,** müdafiə olunan şəxslərin təhlükəsizliyinin təmin edilməsi bu Qanunla müəyyənləşdirilmiş təhlükəsizlik tədbirlə-rinin qanunçuluq, insan və vətəndaş hüquq və azadlıqlarına hörmət edilməsi, təhlükəsizlik tədbirlərini tətbiq edən orqanın və müdafiə olunan şəxslərin öhdəlikləri əsasında həyata keçirilir.

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya:***

**Maddə 14. Ayrı-seçkiliyin qadağan olunması.**

*Bu konvensiyada təsbit olunmuş hüquq və azadlıqlardan istifadə cins, irq, rəng, dil, din, siyasi və digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və ya digər status kimi hər hansı əlamətlərinə görə ayrı-seçkilik olmadan təmin olunmasıdır.*

## Azərbaycan Respublikasının qanunvericilik sistemi

**Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinə əsasən,** hamı qanun və məhkəmə qarşısında bərabərdir.

Kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır.

Dövlət irqindən, milliyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını, irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətinə görə məhdudlaşdırmaq qadağandır.

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 111-ci maddəsi irqi ayrı-seçkilik (aparteid) cinayətinə görə məsuliyyət müəyyən edir.**

Həmin maddəyə əsasən, hər hansı bir irqi qrupu əsarət altında saxlamaq üçün digər irqi qrup tərəfindən üstünlüyü təşkil və təmin etmək məqsədilə:

– irqi qrupa və ya qruplara mənsub olan şəxslərin yaşamaq və azadlıq hüquqlarını inkar etmə, yəni irqi qrupa və ya qruplara mənsub olan şəxsləri öldürmə, onların sağlamlığına ağır zərər vurma və ya əqli qabiliyyətlərinə ciddi zərər vurma, işgəncə və ya qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza tətbiq etmə, yaxud özbaşınalıqla həbs və qanunsuz olaraq azadlıqdan məhrum etmə;
– irqi qrupun və ya qrupların, bütövlükdə və ya qismən, fiziki məhvi ilə nəticələnə biləcək yaşayış şəraiti yaratma;
– irqi qrupun və ya qrupların ölkənin siyasi, sosial, iqtisadi və mədəni həyatında iştirakının qarşısını almaq, habelə qrupa və ya qruplara mənsub olan şəxslərin işləmək, həmkarlar təşkilatlarını yaratmaq, təhsil almaq, ölkədən getmək və ölkəyə qayıtmaq, vətəndaşlıq, hərəkət etmək və yaşayış yerini seçmək, fikir və söz azadlığı, toplaşmaq və birləşmək hüquqları daxil olmaqla əsas insan hüquq və azadlıqlarını inkar etməklə tam inkişafın qarşısmı almaq məqsədilə hər hansı qanunverici və digər tədbiri həyata keçirmə;
– düşərgə və qettoların yaradılması ilə əhalini irqi qruplara bölmək, irqi qruplar arasında qarışıq nikahları qadağan etmək, irqi qrupa və ya qruplara və ya onların üzvlərinə mənsub olan torpaq sahələrini onların razılığı olmadan almaq məqsədilə, qanunverici tədbirlər daxil olmaqla, hər hansı bir tədbiri həyata keçirmə;
– ırqi qrupa və ya qruplara mənsub olan şəxslərin əməyini istismar etmə;
– aparteidə qarşı çıxan şəxsləri və təşkilatları, əsas hüquq və azadlıqlardan məhrum etmə vasitəsilə təqib etmə - on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Azərbaycan Respublikasının Polis haqqında Qanununun**

**5-ci maddəsinə əsasən,** polis öz vəzifələrini yerinə yetirərkən irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, bütün şəxslərin Azərbaycan Respublikasının Konstitusiyasında və tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdə nəzərdə tutulmuş hüquqlarını və qanuni mənafelərini hüquqa zidd əməllərdən qoruyur.

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya:***

**Maddə 15. Fövqəladə hallar zamanı məhdudlaşdırma.**

1. Müharibə və ya millətin həyatını təhdid edən digər fövqəladə hallar zamanı Razılığa gələn Yüksək Tərəflərdən hər hansı hiri onun beynəlxalq hüquqa müvafiq digər öhdəliklərinə zidd olmamaq şərtilə, yalnız vəziyyətin fövqəladəliliyinin şərtləndirə biləcəyi səviyyədə bu konvensiya üzrə öhdəliklərindən geri çəkilən tədbirlər görə bilər.

## Azərbaycan Respublikasının qanunvericilik sistemi

Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin III bəndinə əsasən, müharibə, hərbi vəziyyət və fövqəladə vəziyyət, habelə səfərbərlik elan edilərkən insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsi Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərini nəzərə almaq şərti ilə qismən və ya müvəqqəti məhdudlaşdırıla bilər. Həyata keçirilməsi məhdudlaşdırılan hüquq və azadlıqlar haqqında əhaliyə qabaqcadan məlumat verilir.

«Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» Azərbaycan Respublikasının Konstitusiya Qanununun 3-cü maddəsi qanun əsasında insan hüquqlarının və azadlıqlarının məhdudlaşdırılmasına dair tələbləri təsbit edir.

Azərbaycan Respublikasının Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş insan hüquqları və azadlıqları yalnız qanunla məhdudlaşdırıla bilər.

İnsan hüquqlarını və azadlıqlarını məhdudlaşdıran qanunda məhdudlaşdırılan hüquq və ya azadlıq, habelə Azərbaycan Respublikasının Konstitusiyasının müvafiq maddəsi göstərilməlidir.

İnsan hüquqlarına və azadlıqlarına qoyulan məhdudiyyətlər həmin hüquqların və azadlıqların mahiyyətini dəyişməməlidir.

İnsan hüquqlarına və azadlıqlarına qoyulan məhdudiyyətlər Azərbaycan Respublikasının Konstitusiyasında və bu Konstitusiya Qanununda nəzərdə tutulan qanuni məqsədə yönəlməli və həmin məqsədə mütanasib olmalıdır.

Azərbaycan Respublikasının Konstitusiyasının 71-ci maddəsinin III hissəsində göstərilən əsaslarla yanaşı, insan hüquqları və azadlıqları digər insanların hüquqlarının və azadlıqlarının həyata keçirilməsinə təminat verilməsi və onların müdafiə edilməsi məqsədi ilə məhdudlaşdırıla bilər.

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya:***

**Maddə 16. Əcnəbilərin siyasi fəaliyyətinin məhdudlaşdırılması.**

*Konvensiyanın 10, 11 və 14-cü maddələrində heç nə Razılığa gələn Yüksək Tərəflər üçün əcnəbilərin siyasi fəaliyyətinə məhdudiyyətlər qoyulmasına maneə kimi nəzərdən keçirilə bilməz.*

## Azərbaycan Respublikasının qanunvericilik sistemi

**Azərbaycan Respublikası Konstitusiyasının 69-cu maddəsinə əsasən,** Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında olarkən, qanunla və ya Azərbaycan Respubhkasının tərəfdar çıxdığı beynəlxalq müqavilə ilə başqa nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının vətəndaşları

ilə bərabər bütün hüquqlardan istifadə edə bilər və bütün vəzifələri yerinə yetirməlidirlər.

Azərbaycan Respublikası ərazisində daimi yaşayan və ya müvəqqəti qaJan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Iıüquq və azadlıqları yalnız beynəlxalq hüquq normalarına və Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq məhdudlaşdırıla bilər.

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin 9.3-cu maddəsinə əsasən, əcnəbi və ya vətəndaşlığı olmayan məhkum şəxslər Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual məcəllələri, bu Məcəllə və digər qanunvericilik aktları ilə müəyyən edilmiş məhdudlaşdırmalar istisna edilməklə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyətinə dair qanunvericilikdə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə müəyyən edilmiş hüquqlardan istifadə edir və vəzifələr daşıyırlar.

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya:***

**Maddə 17. Hüquqlardan sui-istifadənin qadağan olunması.**

Bu Konvensiyada heç nə hər hansı dövlətin, qrupun və ya şəxsin burada təsbit olunmuş hüquq və azadlıqlarının ləğvinə yönəlmiş hər hansı fəaliyyətlə məşğul olmaq və ya hər hansı əməl törətmək və ya onları Konvensiyada nəzərdə tutulandan daha artıq məhdudlaşdırmaq hüququna malik olması kimi şərh oluna bilməz.

**Azərbaycan Respublikasının qanunvericilik sistemi**

**«Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» Azərbaycan Respublikasının Konstitusiya Qanununun 1-ci maddəsinə əsasən,** Azərbaycan Respublikası Konstitusiyasının və bu Konstitusiya Qanununun heç bir müddəasıdövlət orqanları, təşkilatlar və ya

ayrı-ayrı şəxslər tərəfindən insan və vətəndaş hüquqlarının ləğvinə və ya Azərbaycan Respublikasının Konstitusiyasında və bu Konstitusiya Qanununda nəzərdə tutulduğundan daha artıq dərəcədə məhdudlaşdınlmasına yönəlmiş fəaliyyət və ya hərəkətlər üçün hüquqi əsas yaradan müddəa kimi şərh edilə və ya başa düşülə bilməz.

Heç kəs öz hüquqlarından və azadlıqlarından sui-istifadə etməməlidir.

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya:***

**Maddə 18. Hüquqlarla bağlı məhdudlaşdırılmalardan istifadənin hədləri.**

*Qeyd olunan hüquq və azadlıqlarla bağlı bu Konvensiyada yol verilən məhdudiyyətlər, nəzərdə tutulduğundan başqa hər hansı məqsəd üçün tətbiq olunmamalıdır.*

## Azərbaycan Respublikasının qanunvericilik sistemi

**Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinə əsasən,** insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz.

Müharibə, hərbi vəziyyət və fövqəladə vəziyyət, habelə səfərbərlik elan edilərkən insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsi Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərini nəzərə almaq şərti ilə qismən və ya müvəqqəti məhdudlaşdırıla bilər. Həyata keçirilməsi məhdudlaşdırılan hüquq və azadlıqlar haqqında əhaliyə qabaqcadan məlumat verilir.

**«Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» Azərbaycan Respublikasının Konstitusiya Qanununun 3-cü maddəsi qanun əsasında insan hüquqlarının və azadlıqlarının məhdudaşdırılmasına dair tələbləri müəyyən edir.**

Azərbaycan Respublikasının Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş insan hüquqları və azadlıqları yalnız qanunla məhdudlaşdırıla bilər.

İnsan hüquqlarını və azadlıqlarını məhdudlaşdıran qanunda məhdudlaşdırılan hüquq və ya azadlıq, habelə Azərbaycan Respublikasının Konstitusiyasının müvafiq madəsi göstərilməlidir.

İnsan hüquqlarına və azadlıqlarına qoyulan məhdudiyyətlər həmin hüquqların və azadlıqların mahiyyətini dəyişməməlidir.

İnsan hüquqlarına və azadlıqlarına qoyulan məhdudiyyətlər Azərbaycan Respublikasının Konstitusiyasında və bu Konstitusiya Qanununda nəzərdə tutulan qanuni məqsədə yönəlməli və həmin məqsədə mütanasib olmalıdır

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyanın 1 saylı Protokolu***

**Maddə 1. Mülkiyyətin müdafiəsi**

Hər bir fiziki və hüquqi şəxs öz mülkiyyətindən dinc istifadə hüququna malikdir. Heç kəs cəmiyyətin maraqları naminə, qanunla və beynəlxalq hüququn ümumi prinsipləri ilə nəzərdə tutulmuş şərtlər istisna olmaqla, öz mülkiyyətindən məhrum edilə bilməz.

Yuxarıdakı müddəalar dövlətin ümumi maraqlara müvafiq olaraq, mülkiyyətdən istifadə nəzarəti həyata keçirmək üçün, yaxud vergilərin və ya digər rüsum və ya cərimələrin ödənilməsini təmin etmək üçün zəruri olan qanunları yerinə yetirmək hüququnu məhdudlaşdırmır.

## Azərbaycan Respublikasının qanunvericilik sistemi

Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur.

**Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinə əsasən,** mülkiyyət, dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti növündə ola bilər.

Mülkiyyətdən insan və vətəndaş hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin mənafeləri, şəxsiyyətin ləyaqəti əleyhinə istifadə edilə büməz.

**Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinə əsasən,** hər kəsin mülkiyyət hüququ vardır.

Mülkiyyətin heç bir növünə üstünlük verilmir. Mülkiyyət hüququ o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur.

Hər kəsin mülkiyyətində daşınar və daşınmaz əmlak ola bilər. Mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir.

Heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə büməz. Əmlakın tam müsadirəsinə yol verilmir. Dövlət ehtiyacları və ya ictimai ehtiyaclar üçün mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun deyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər.

**Azərbaycan Respublikası Konstitusiyasının 59-cu maddəsinə əsasən,** hər kəs qanunla nəzərdə tutulmuş qaydada öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək təkbaşına və ya başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər.

Sahibkarlıq fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu Azərbaycan Respublikasında sahibkarlığın prinsiplərini, sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarını və vəzifələrini, onun dövlət tərəfindən müdafiə və təqdir olunmasının forma və üsullarını, sahibkarların dövlət orqanları ilə qarşılıqlı münasibətlərini müəyyənləşdirir.

Qanun mülkiyyətin bütün formalarının bərabərliyi prinsipinin həyata keçirilməsi, müstəqil olaraq fəaliyyət sahələri seçilməsi və ıqtisadi qərarlar qəbul edilməsi əsasında iqtisadi təşəbbüsün və işgüzarlığın geniş təzahür etməsi üçün şərait yaradılmasına yönəldilmişdir.

Sahibkarlıq fəaliyyəti (sahibkarlıq) fiziki şəxslərin, onların birliklərinin, habelə hüquqi şəxslərin mənfəət və ya şəxsi gəlir əldə edilməsi məqsədilə özlərinin cavabdehliyi və əmlak məsuliyyəti ilə, yaxud digər hüquqi və ya fiziki şəxslərin adından qanunvericiliklə qadağan edilməyən təsərrüfat fəaliyyətinin bütün növləri, o cümlədən məhsul istehsalı, satışı və xidmətlər göstərilməsi formasında həyata keçirdikləri müstəqil təşəbbüskarlıq fəaliyyətidir.

Sahibkarlıqla bağlı münasibətlər mülkiyyət formasından, fəaliyyət növündən və sahəsindən asılı olmayaraq Azərbaycan Respublikasının Konstitusiyası, «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında» Konstitusiya aktı, «Azərbaycan Respublikasının iqtisadi müstəqilliyi haqqında» Konstitusiya Qanunu, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, «Mülkiyyət haqqında« Azərbaycan Respublikasının Qanunu, Sahibkarlıq fəaliyyəti haqqında Qanun və bunların əsasında qəbul edilmiş digər qanunvericilik aktları ilə tənzimlənir.

Müəssisə yaratmaqla həyata keçirilən sahibkarlıq fəaliyyəti, həmçinin Azərbaycan Respublikasının müəssisələr haqqında qanunvericiliyi ilə də tənzimlənir.

Sahibkarlıqla Azərbaycan Respublikasının qanunvericilik aktlarında nəzərdə tutulmuş hallar istisna edilməklə aşağıdakılar məşğul ola bilərlər:

- fəaliyyət qabiliyyəti olan Azərbaycan Respublikasının hər bir vətəndaşı;
- mülkiyyət formasından asılı olmayaraq hüquqi şəxslər;
- hər bir xarici vətəndaş və ya vətəndaşlığı olmayan şəxs;
- xarici hüquqi şəxslər.

Sahibkarlıq fəaliyyəti ilə bağlı məsələlərin həllini və ya bu fəaliyyətə nəzarəti həyata keçirən dövlət orqanlarının vəzifəli şəxslərinə və mütəxəssislərinə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq qadağandır.

Sahibkarlıq fəaliyyətinin və mülkiyyətçi ilə münasibətlərin xarakterindən asılı olaraq sahibkarlıq fəaliyyəti ilə həm mülkiy-

yətcinin özü, həm də onun müəyyən etdiyi səlahiyyətlər daxilində təsərrüfatın başçısı hüququ əsasında mülkiyyətçinin əmlakını idarə edən subyekt məşğul ola bilər.

Müəssisəni idarə edən subyektin və əmlakın mülkiyyətçisinin münasibətləri tərəflərin qarşılıqlı öhdəliklərini, hüquqlarını və məsuliyyətlərini müəyyən edən müqavilə (bağlaşma) ilə tənzimlənir. Müəssisənin mülkiyyətçisi müəssisəni idarə edən şəxslə müqavilə bağlandıqdan sonra müqavilədə, müəssisənin nizamnaməsində və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan hallar istisna edilməklə müəssisənin fəaliyyətinə qarışa bilməz.

Azərbaycan Respublikasında sahibkarlığın qanun çərçivəsində həyata keçirilən bütün formalarına icaza verilir. Mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq sahibkarlığın bütün formaları bərabər hüquqludur.

Fərdi və şərikli şəkildə həyata keçirilən sahibkarlıq qanunvericilikdə nəzərdə tutulmuş formalarda təşkil edilə bilər.

Sahibkarlıq fəaliyyətinin məhdudlaşdırılmasına yalnız dövlətin səlahiyyətlərinə aid məsələlər-qanunçuluğun gözlənilməsi, ölkənin və vətəndaşların təhlükəsizliyi və müdafiəsi, vergi, qiymət və antiinhisar tənzimlənməsi, sosial təminatlar verilməsi, ekologiya, sanitariya, yanğından qorunma və arxitektura normalarının gözlənilməsi və tarixi abidələrin mühafizəsi məsələləri üzrə yol verilir.

Dövlət hakimiyyəti və dövlət idarəetmə orqanlarına mülkiyyət və təşkilati-hüquqi formasından asılı olaraq bu və ya digər sahibkarlıq növünə imtiyazlar verən qərarlar çıxarmaq qadağan olunur.

Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan hallar istisna edilməklə dövlət orqanlarının, həmkarlar təşkilatlarının sahibkarlıq fəaliyyətinə müdaxiləsi qadağandır.

Sahibkarlıq fəaliyyətinə siyasi partiyaların və ictimai birliklərin müdaxiləsinə yol verilmir.

Sahibkar öz fəaliyyətini həyata keçirmək üçün Azərbaycan Respublikasının qanunvericiliyinə əməl etməklə aşağıdakı hüquqlara malikdir:

- istənilən müəssisələr yaratmaq, onların idarəetmə orqanlarında vəzifə tutmaq və bu orqanların işində iştirak etmək;
- dövlət və digər mülkiyyət formalarına əsaslanan müəssisələrin əmlakının, başqa əmlakı və əmlak hüquqlarını tamamilə və ya qismən əldə etmək;
- başqa müəssisələrin fəaliyyətində öz sərəncamında olan əmlakla iştirak etmək;
- tərəflərin razılığı ilə başqa fiziki və hüquqi şəxslərin əmlakından və intellektual mülkiyyət obyektlərindən istifadə etmək;
- işçiləri işə qəbul etmək və işdən azad etmək;
- işçilərin əməyinin ödənilməsinin forma və sistemini, onların əmlakının məbləğini və gəlirinin digər növlərini müəyyənləşdirmək;
- təsərrüfat-maliyyə fəaliyyətini müstəqil həyata keçirmək, məhsul göndərənləri və istehsal olunan məhsulun (işlərin, xidmətlərin) istehlakçılarını seçmək, dövlət ehtiyacları üçün müqavilə əsasında iş görmək və məhsul göndərmək;
- öz məhsulları (işləri, xidmətləri) üçün qiymətlər (tariflər) müəyyənləşdirmək;
- pul vəsaitinin saxlanılması, hesablaşma, kredit və kassa əməliyyatlarının bütün növlərinin həyata keçirilməsi üçün banklarda hesablar açmaq;
- sahibkarlıq fəaliyyətindən əldə edilən mənfəətdən vergilər və digər icbari ödənişlərdən sonra onun qalan hissəsindən sərbəst istifadə etmək. Sahibkarlıq fəaliyyəti bağlaşma əsasında həyata keçirilərkən mənfəətin bölüşdürülməsi qaydası bağlaşmada müəyyən edilir;
- məbləğinə məhdudiyyət qoyulmayan şəxsi gəlir əldə etmək;
- dövlət sosil təminatı sistemindən istifadə etmək;
- sığorta növünü sərbəst surətdə seçmək;

– hüquqlarına və qanuni mənafeyinə xələl gətirən dövlət orqanlarının və digər orqanların, təsərrüfat subyektlərinin və fiziki şəxslərin hərəkətlərindən şikayət etmək;
– xarici iqtisadi münasibətlərdə iştirak etmək;
– valyuta əməliyyatları aparmaq;
– ictimai fondlara, səhiyyəyə, xeyriyyəçilik, maarifçilik məqsədlərinə, elmi və mülki məqsədlərə, müharibə və başqa fövqəfadə hadisələr zamanı isə dövlətə lazımi yardım göstərilməsinə ianələr vermək;
– həmkarlar ittifaqında və digər birliklərdə iştirak etmək.

***İnsan hüquqlırının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyanın lsaylı Protokolu***

**Maddə 2. Təhsil hüququ.**

Heç bir şəxsin təhsil hüququndan imtina edilə bilməz. Dövlət təhsil və tədris sahəsində öz üzərinə götürdüyü funksiyanı yerinə yetirərkən, valideynlərin öz dini və fəlsəfı baxışlarına müvafiq olan təhsil və tədrisi təmin etmək hüququna hörmət edir.

**Azərbaycan Respublikasının**
**qanunvericilik sistemi**

**Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsinə əsasən,** hər bir vətəndaşın təhsil almaq hüququ vardır.

Dövlət pulsuz, icbari, ümumi, orta təhsil almaq hüquqnu təmin edir.

Təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir.

Maddi vəziyyətindən asılı olmayaraq istedadlı şəxslərin təhsili davam etdirməsinə dövlət təminat verir.

Dövlət minimum təhsil standartlarını müəyyən edir.

Azərbaycan Respublikasının Təhsil Qanunu təhsillə bağlı yaranan bütün münasibətləri tənzimləyir.

Təhsil cəmiyyət və dövlətin inkişafının əsasında durmaqla strateji əhəmiyyətə malik olan və üstün inkişaf etdirilən fəaliyyət sahəsidir. Azərbaycan Respublikasının təhsil sistemi milli zəminə, ümumbəşəri dəyərlərə əsaslanır, demokratik xarakter daşıyır.

Təhsil hüququ vətəndaşların əsas hüquqlarındandır. Təhsil sistemi qarşısında duran vəzifələr Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya aktına, Azərbaycan Respublikasının Konstitusiyasına, Təhsil Qanununa və müvafiq beynəlxalq hüquq normalarına uyğun olaraq həyata keçirilir. Təhsil Qanunu təhsil sisteminin ümumi əsaslarını müəyyən edir.

**Təhsil qanunvericiliyinə daxildir: həmin Təhsil Qanunu; ona müvafiq olaraq Azərbaycan Respublikasında verilmiş digər təhsil qanunvericiliyi aktları; Azərbaycan Respublikası tərkibinə daxil olan Naxçıvan Muxtar Respublikasında həmin Təhsil Qanunu əsasında qəbul edilmiş qanunvericilik aktları.**

Təhsil Qanunu Azərbaycan ərazisində olan bütün təhsil müəssisələrinə, müvafiq orqan və təşkilatlara şamil edilir. Azərbaycanın təhsil sistemi həmin Qanun əsasında fəaliyyət göstərir.

Təhsil qanunvericiliyini pozanlar qanunla müəyyən olunmuş qaydada məsuliyyət daşıyırlar.

**Təhsil qanunvericiliyinin vəzifələri aşağıdakılardır:**

- təhsil sahəsində dövlət siyasəti prinsiplərinin müəyyən edilməsi;
- təhsil sisteminin sərbəst fəaliyyəti və təhsilin inkişafı üçün hüquqi təminat yaradılması;
- hüquqi şəxslər və təhsil subyektlərinin hüquq və vəzifələrinin səlahiyyət və məsuliyyətinin müəyyən olunması;
- vətəndaşların təhsil haqqında konstitusiya hüquqlarının təmin olunması və müdafiəsi.

**Maddə 2. Təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri.**

Azərbaycan Respublikası fasiləsiz təhsil sistemi yaratmaq siyasəti yeridir. Dövlətin təhsil siyasəti aşağıdakı prinsiplərə əsaslanır:

- Hüquqi baxımdan hammm dövlət standartı çərçivəsində təhsil almaq imkanına malik olması;
- bilik, bacarıq və istedadı reallaşdırmaq üçün hamıya bərabər şərait yaradılması;

- təhsilin demokratikləşdirilməsi və dövlət-ictimai xarakter daşıması;
- təhsil müəssisələrinin müstəqilliyinin artırılması;
- təhsilin humanistləşdirilməsi;
- ümumbəşəri dəyərlərin, insan həyatı və sağlamlığının, şəxsiyyətin azad inkişafının üstün tutulması;
- təhsilin humanitarlaşdırılması;
- təhsildə milli zəminin və bölgə komponentinin gücləndirilməsi;
- təhsilin fərdiləşdirilməsi və differensiallaşdırılması;
- təhsilin məzmununun inteqrasiya edilməsi;
- təhsilin elmi-dünyəvi xarakter daşımasi;
- elm, istehsalat, xarici ölkələrin təhsil müəssisələri və orqanları ilə sıx əlaqə;
- təhsil müəssisələrinin partiyalardan, ictimai-siyasi və dini təşkilatlardan, hərəkatlardan asılı olmaması;
- təhsildə azadlıq və plüralizm;,
- yaradıcılıq; tamlıq; varislik; çeviklik;
- təhsilin dünya standartları səviyyəsində olması.

**Azərbaycan Respublikasının Təhsil Qanununun 3-cü maddəsi vətəndaşların təhsil hüquqlarını təsbit edir.**

İrqindən, milli və dini mənsubiyyətindən, dilindən, cinsindən, yaşından, səhhətindən, sosial-maddi vəziyyətindən, fəaliyyət sahəsindən, ictimai mənşəyindən, yaşayış yerindən, dinə münasibətindən, siyasi əqidəsindən, həmçinin üzərində məhkumluğun olmasından asılı olmayaraq, vətəndaşların təhsil hüququna təminat verilir.

Müəyyən peşələr və ixtisaslar üzrə hökumət tərəfindən yaş həddinə, habelə cinsə, sağlamlığa, mühakimə olunmaya görə məhdudiyyətlər qoyula bilər.

Dövlət təhsil müəssisələrində vətəndaşlar pulsuz təhsil almaq hüququna malikdirlər. Həmin təhsil müəssisələrində əlavə pullu təhsil qrupları da yaradıla bilər.

Vətəndaşların təhsil formasını, təhsil müəssisəsinin və təlim dılini seçmək azadlığı təmin olunur.

Sosial müdafiəyə və yardıma ehtiyacı olan vətəndaşların təhsil hüququnu təmin etmək məqsədilə dövlət onların təhsil xərcini qismən, yaxud bütünlüklə öz üzərinə götürür.

Pullu təhsil müəssisələrində təhsil alan aztəminatlı vətəndaşlara eyni növdən və tipdən olan dövlət təhsil müəssisələrinin normativləri əsasında dövlət tərəfindən ödənc verilir.

Dövlət xüsusi istedada malik olan və sosial yardıma ehtiyacı olan şəxslərin respublikada və ya xaricdə təhsil ala bilməsi üçün tam şərait yaradır.

Dövlət ali məktəb tələbələrinə təhsilini başa vurduqdan sonra beş il müddətində ödəmək şərtilə kredit verə bilər.

Vətəndaşlar təhsil müəssisələrinin proqramlarını sərbəst surətdə öyrənib ekstern yolu ilə imtahanlar verərək müvafiq təhsil sənədi (ali təhsilin birinci - bakalavr pilləsi də daxil olmaqla) almaq hüququna malikdirlər.

Dövlət və qeyri-dövlət təhsil müəssisələrinin məzunları yuxarı pillədən olan növbəti təhsil müəssisəsinə qəbul olunarkən bərabər hüquqa malikdirlər.

**Azərbaycan Respublikasının Təhsil Qanununun 4-cü maddəsi təhsil prosesi və ictimai-siyasi fəaliyyəti tənzimləyir.**

Təlim-tərbiyə prosesi pozulmazdır. Siyasi partiyalar, ictimai-siyası cəmiyyətlər və təşkilatlar, dini və digər qurumlar təhsil müəssisələrinin fəaliyyətinə və təlim-tərbiyə prosesinə müdaxilə edə bilməzlər.

Təhsil işçisinin konstitusiya çərçivəsində fəaliyyət göstərən hər hansı partiyanın, habelə digər ictimai-siyasi və ya dini təşkilatın üzvü olması onun pedaqoji fəaliyyətinə mane ola bilməz.

Yetkinlik yaşına çatmayanların siyasi aksiyalara cəlb olunmasına yol verilmir.

Təhsil müəssisələrində və təhsil orqanlarında siyasi partiyaların, ictimai-siyasi hərəkatların təşküat strukturlarının yaradılmasına və fəaliyyətinə yol verilmir.

**Azərbaycan Respublikasında təhsil dünyəvi xarakter daşıyır.**

Dünyavi təhsil ocaqları ilə bərabər ümumi orta təhsili başa çatdıranlar üçün dini təhsil müəssisələri də fəaliyyət göstərə bilər.

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyanın l saylı Protokolu***

**Maddə 3. Azad seçkilər hüququ**

*Yüksək Müqavilə Tərəfləri qanunverici hakimiyyət orqanını seçərkən xalqın iradəsini sərbəst ifadə edə biləcək şəraitdə, gizli səsvermə yolu ilə, ağlabatan dövrilikdə azad seçkilər keçirməyi öhdələrinə götürür.*

**Azərbaycan Respublikasının qanunvericilik sistemi**

**Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsinə əsasən,** Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ vardır.

Məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslərin seçkilərdə, habelə referendumda iştirak etmək hüququ yoxdur.

Hərbi qulluqçuların, hakimlərin, dövlət məmurlarının, din xadimlərinin, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum edilmiş şəxslərin, bu Konstitusiyada və qanunda nəzərdə tutulan digər şəxslərin seçkilərdə iştirak etmək hüququ qanunla məhdudlaşdırıla bilər.

**Azərbaycan Respublikası Konstitusiyasının 83-cü maddəsi Azərbaycan Respublikası Milli Məclisi deputatlarının seçkilərinin əsaslarını təsbit edir.**

Azərbaycan Respublikası Milli Məclisinin deputatları majoritar seçki sistemi, ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, səxsi və gizli səsvermə yolu ilə seçilirlər.

**Azərbaycan Respublikası Konstitusiyasının 84-cü maddəsinə əsasən,** Azərbaycan Respublikası Milli Məclisinin hər çağırışının səlahiyyət müddəti 5 ildir.

Azərbaycan Respublikası Milli Məclisinin hər çağırışının seçkiləri hər beş ildən bir noyabr ayının birinci bazar günü keçirilir.

Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının səlahiyyət müddəti Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddəti ilə məhdudlaşır.

Azərbaycan Respublikası Milli Məclisinin deputatlığından çıxanların yerinə yeni seçkilər keçirilərsə, yeni seçilən deputatın səlahiyyət müddəti deputatlıqdan çıxanın qalan səlahiyyət müddəti ilə məhdudlaşır.

**Azərbaycan Respublikası Konstitusiyasının 85-ci nıaddəsi Azərbaycan Respublikası Milli Məclisinin deputatlığına namizədlərə aid tələbləri təsbit edir.**

Azərbaycan Respublikasının yaşı 25-dən aşağı olmayan hər bir vətəndaşı qanunla müəyyən edilmiş qaydada Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilə bilər.

İkili vətəndaşlığı olan, başqa dövlətlər qarşısında öhdəliyi olan, icra və ya məhkəmə hakimiyyəti sistemlərində qulluq edən, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olan şəxslər, din xadimləri, fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilən, ağır cinayətlərə görə məhkum olunmuş şəxslər, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza çəkən şəxslər Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilə bilməzlər.

**Azərbaycan Respublikası Konstitusiyasının 86-cı maddəsinə əsasən,** seçkilərin nəticələrinin düzgünlüyünü qanunla müəyyən olunmuş. qaydada Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi yoxlayır və təsdiq edir.

**Azərbaycan Respublikası Konstitusiyasının 87-ci maddəsinə əsasən,** Azərbaycan Respublikası Milli Məclisi deputatlarının səlahiyyətləri Azərbaycan Respublikası Milli Məclisinin yeni çağırışının ilk iclas günü bitir.

Azərbaycan Respublikası Milli Məclisi deputatlığından çıxanların yerinə seçkilər Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyət müddətinin bitməsinə 120 gündən az müddət qalarsa, keçirilmir.

Azərbaycan Respublikasının Milli Məclisi 83 deputatının səlahiyyətləri təsdiq olunduqda səlahiyyətlidir.

Azərbaycan Respublikasında Milli Məclisə seçkilərlə bağlı digər müddəalar Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

**Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsi Azərbaycan Respublikası Prezidenti seçkilərinin əsasları müəyyən edir.**

Azərbaycan Respublikasının Prezidenti ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə 5 il müddətinə seçilir.

Azərbaycan Respublikasının Prezidenti səsvermədə iştirak edənlərin yarısından çoxunun səs çoxluğu ilə seçilir.

Bu səs çoxluğu səsvermənin birinci dövrəsində toplanmayıbsa, səsvermə günündən sonra ikinci bazar günü səsvermənin ikinci dövrəsi keçirilir. İkinci dövrədə ancaq birinci dövrədə ən ox səs toplamış iki namizəd, yaxud ən çox səs toplamış və öz namizədliyini geri götürmüş namizədlərdən sonra gələn iki namizəd iştirak edir.

Səsvermənin ikinci dövrəsində səs çoxluğu toplayan namizəd Azərbaycan Respublikasının Prezidenti seçilmiş sayılır.

Heç kəs iki dəfədən artıq təkrarən Azərbaycan Respublikasının Prezidenti seçilə bilməz.

Bu maddənin tətbiqi qaydası qanunla müəyyən edilir.

**Azərbaycan Respublikası Konstitusiyasının 102-ci maddəsinə əsasən,** Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunları haqqında məlumatı səsvermə günündən sonra 14 gün ərzində Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi rəsmən elan edir.

**Azərbaycan Respublikası Konstitusiyasının 103-cü maddəsinə əsasən,** Azərbaycan Respublikasının Prezidenti seçilmiş şəxs Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunları haqqında məlumatın elan olunduğu gündən başlayaraq 3 gün ərzində

Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə belə bir and içir: «Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm.

And içdiyi gündən Azərbaycan Respublikasının Prezidenti öz səlahiyyətlərinin icrasına başlamış sayılır.

**Azərbaycan Respublikasında Prezident seçkilərin keçirilməsi ilə bağlı digər müddəalar «Azərbaycan Respublikası Prezidentinin seçkiləri haqqında« Azərbaycan Respublikasının Qanunu ilə nizama salınır.**

**Azərbaycan Respublikası Konstitusiyasının 2-ci maddəsinin II hissəsinə görə ümumxalq səsverməsi** - referendum Azərbaycan xalqının öz suveren hüququnu büavasitə həyata keçirməsinin vasitəsidir.

**Azərbaycan Respublikası Konstitusiyasının 3-cü maddəsinin I hissəsinə əsasən,** Azərbaycan xalqı öz hüquqları və mənafeləri ilə bağlı olan hər bir məsələni referendumla həll edə bilər.

**Azərbaycan Respublikası Konstitusiyasının 3-cü maddəsinin II əsasən,** aşağıdakı məsələlər yalnız referendum yolu ilə həll oluna bilər:

1) Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi və ona dəyişikliklər edilməsi;

2) Azərbaycan Respublikası dövlət sərhədlərinin dəyişdirilməsi.

**Referendum haqqında Azərbaycan Respublikası Qanunu referendumun keçirilməsi ilə bağlı münasibətləri tənzimləyir.**

Həmin Qanunun 3-cü maddəsinə əsasən, referendum xalq iradəsinin ümumi, bərabər, və birbaşa ifadə etmək hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə həyata keçirilir.

**Qanunun 4-cü maddəsinə əsasən,** referendumda qanuna müvafiq olaraq seçki hüququ olan Azərbaycan Respublikası vətəndaşları iştirak edə bilərlər. Məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyətsizliyi təstiq olunmuş şəxslər referendumda iştirak etmirlər.

**Azərbaycan Respublikası Konstitusiyasının 142-ci maddəsinə əsasən,** yerli özünüidarəni bələdiyyələr həyata keçirir.

Bələdiyyələr seçkilər əsasenda yaradılır.

Bələdiyyələrin statusunun əsasları bu Konstitusiya ilə, bələdiyyələrə seçkilərin qaydaları isə qanunla müəyyən edilir.

**Bələdiyyələrə seçkilərin qaydaları haqqında Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə əsasən,** Azərbaycan Respublikasında yerli özünüidarəni həyata keçirən bələdiyyələri Azərbaycan Respublikasının vətəndaşları bu Qanunla müəyyən edilmiş qaydada çoxmandatlı seçki əraziləri üzrə ümumi, bərabər, birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçirlər.

**Bələdiyyələrə seçkilərin qaydaları haqqında Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinə əsasən,** bələdiyyələrin səlahiyyət müddəti 5 ildir.

Bələdiyyələrin səlahiyyətləri onların ilk iclas günü başlanır və yeni seçilən bələdiyyələrin birinci iclas günü başa çatır. Bələdiyyə üzvlərinin səlahiyyətləri yalnız bələdiyyənin səlahiyyət müddətində qüvvədədir.

**Həmin Qanunun 3-cü maddəsinə əsasən,** seçkilər günü 18 yaşı tamam olan və yaşı 18-dən yuxarı olan Azərbaycan Respublikası vətəndaşlarının bələdiyyələrə üzv seçmək hüququ vardır.

Seçkilər günü 21 yaşı tamam olan və yaşı 21-dən yuxarı olan Azərbaycan Respublikasının vətəndaşları bələdiyyələrə üzv seçilə bilərlər.

İcra hakimiyyəti orqanlarında işləyən vəzifəli şəxslər, hakimlər, hüquq mühafızə orqanlarının işçiləri, din xadimləri, hərbi qulluqçular bələdiyyə üzvü seçilə bilməzlər. İcra hakimiyyəti orqanlarında işləyən vəzifəli şəxslərin, hakimlərin, hüquq mühafizə orqanlarının işçilərinin bələdiyyə üzvlüyünə namizədliyi qeydə alındıqdan sonra 3 gün ərzində onlar tutduqları vəzifədən azad olunmalı və bu barədə müvafiq sənədi ərazi seçki komissiyasına təqdim etməlidirlər. Bu qaydaya riayət olunmadıqda həmin şəxslərin qeydiyyatı ləğv edilir.

Məhkumluğun ödənilməsindən və ya götürülməsindən asılı olmayaraq, Azərbaycan Respublikası Cinayət Məcəlləsində nəzərdə tutulan ağır cinayətlərə görə məhkum olunmuş şəxslər, məhkəmənin qanuni qüwəyə minmiş hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza çəkənlər bələdiyyə üzvü seçilə bilməzlər.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada fəaliyyət qabiliyyətsizliyi təsdiq edilmiş şəxslər bələdiyyələrə seçkilərdə iştirak edə bilməzlər.

Mənşəyinə, siyasi baxışlarına, sosial və əmlak vəziyyətinə, irqi və milli mənsubiyyətinə, cinsinə, təhsilinə, dilinə, dinə münasibətinə, məşğuliyyət növünə və xarakterinə görə Azərbaycan Respublikası vətəndaşlarının seçki hüquqlarının qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, birbaşa, dolayısı ilə və ya başqa şəkildə məhdudlaşdırılması qadağandır.

Bələdiyyə üzvlərini seçicilər bilavasitə seçirlər.

Seçicilər şəxsən və gizli səs verirlər. Seçkilərdə seçicilərin öz iradəsini ifadə etməsi üzərində nəzarətə yol verilmir.

**Bələdiyyələrə seçkilərin qaydaları haqqında Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinə əsasən,** bələdiyyələrə seçkiləri Azərbaycan Respublikasının Prezidenti təyin edir. Seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı rəsmi dərc edilir.

Bələdiyyələrə seçkilər üzrə səsvermə bazar günü keçirilir.

Bələdiyyələrin səlahiyyətlərinin qurtarmasına ən geci 120 gün qalmış yeni seçkilər təyin edilir.

**Həmin Qanununun 5-ci maddəsinə əsasən**, majoritar seçki sistemi əsasında seçki əraziləri üzrə aşağıdakı sayda bələdiyyə üzvləri seçilir:

– 500-dən az əhalisi olan ərazilərdə - 5 bələdiyyə üzvü;
– 500-dən 1000-dək əhalisi olan ərazilərdə - 7 bələdiyyə üzvü;
– 1000-dən 5000-dək əhalisi olan ərazilərdə - 9 bələdiyyə üzvü;
– 5000-dən 10000-dək əhalisi olan ərazilərdə - 11 bələdiyyə üzvü;

- 10000-dən 20000-dək əhalisi olan ərazilərdə - 13 bələdiyyə üzvü;
- 20000-dən 50000-dək əhalisi olan ərazilərdə - 15 bələdiyyə üzvü;
- 50000-dən 100000-dək əhalisi olan ərazilərdə - 17 bələdiyyə üzvü;
- 100000-dən 300000-dək əhalisi olan ərazilərdə - 19 bələdiyyə üzvü seçilir.

Azərbaycanda seçki sahəsində həyata keçirilən islahatların məntiqi davamı kimi Seçki Məcəlləsinin layihəsi hazırlanmışdır. Venesiya ekspert komissiyasının iştirakı ilə hazırlanan Seçki Məcəlləsində Azərbaycan Respublikası parlamenti -Milli Məclisin deputatlarının, Azərbaycan Respublikası Prezidentinin, bələdiyyələrin seçkilərjnin təşkili və keçirilməsi qaydalarım, ümumxalq səsverməsinin - referendumun təşkili və keçirilməsi qaydalarını müəyyən edir.

Azərbaycan Respublikasının Cinayət Qanunvericiliyində vətəndaşların seçki hüququnun həyata keçirilməsinə mane olan hallara qarşı müvafiq cəza siyasəti təsbit olunmuşdur.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 159-cu maddəsi seçki hüquqlarının həyata keçirilməsinə mane olma ya görə məsuliyyət nəzərdə tutur.

CM-nin 159-cu madəsinə əsasən, vətəndaşın seçki hüquqlarının həyata keçirilməsinə, habelə ümumxalq səsverməsində (referendumda) iştirak etməsinə mane olma - minimum əmək haqqı məbləğinin yüz mislindən beş yüz mislinədək miqdarda cərimə və ya yüz elli saatdan iki yüz qırx saatadək ictimai işlər və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Eyni əməllər:

- ələ alma, aldatma, hədələmə, zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə;
- qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

– vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə - minimum əmək haqqı məbləğinin beş yüz mislindən min mislinədək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 160-cı maddəsinə əsasən, seçki komissiyalarının qanuni fəaliyyətinə mane olma - minimum əmək haqqı məbləğinin yüz mislindən beş yüz nıislinədək miqdarda cərimə və ya yüz əlli saatdan iki yüz qırx saatadək ictimai işlər və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır.

Eyni hərəkətlər:

– ələ alma, aldatma, hədələmə, zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə;
– qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;
– vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə - minimum əmək haqqı məbləğinin beş yüz mislindən min mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 161-cı maddəsinə əsasən,** seçki və ya ümumxalq səsverməsi (referendum) sənədlərini saxtalaşdırma, bilə-bilə səsləri düzgün hesablamama, yaxud səsvermənin gizliliyini pozma cinayət məsuliyyəti yaradır.

Belə ki, seçki və ya ümumxalq səsverməsi (referendum) komissiyasının üzvü tərəfindən seçki və ya ümumxalq səsvepməsi (referendum) sənədlərinin saxtalaşdırılması, bilə-bilə səslərin düzgün hesablanmaması və ya səsvermənin nəticələrinin düzgün müəyyənləşdirilməməsi və ya səsvermənin gizliliyinin

pozulması - minimum əmək haqqı məbləğinin yüz mislindən beş yüz mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri ilə cəzalandırılır.

Seçki sənədlərinin başqa şəxslər tərəfindən saxtalaşdırılması - minimum əmək haqqı məbləğinin yüz mislindən beş yüz mislinədək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır.

**Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 39-cu maddəsinə əsasən,** seçkiqabağı və ya referendum ilə bağlı təbliğatın aparılmasının qanunvericiliklə müəyyən edilmiş qaydalarının və müddətinin pozulmasına görə - minimum əmək haqqı məbləğinin iyirmi beş mislindən əlli mislinədək miqdarda cərimə edilir.

**Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 40-cı maddəsinə əsasən,** Təşviqat-nəşr materallarını qəsdən məhv etmə və ya namizədin seçicilərlə görüşünə mane olma inzibati məsuliyyət yaradır.

Belə ki, mülkiyyətçinin və ya obyekt sahibinin razılığı ilə qanunvericiliklə müəyyən edilmiş yerlərdə asdmış deputatlığa və ya seçkili orqana (vəzifəyə) namizədin portretini, onun tərcümeyi-hah olan plakatları və digər təşviqat-nəşr materialların qəsdən məhv etməyə, korlamağa, zədələməyə, yaxud namizədin seçicilərlə görüşünə mane olmağa görə - minimum əmək haqqı məbləğinin otuz beş mislindən altmış mislinədək miqdarda cərimə edilir.

Namizəd haqqında yalan məlumatlar yayma Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 41-ci maddəsi ilə məsuliyyət yaradır. Belə ki, seçkinin nəticəsinə təsir göstərmək məqsədilə deputatlığa və ya seçkili orqana (vəzifəyə) namizəd haqqında yalan məlumatlar dərc etməyə və ya onları başqa üsullarla yaymağa görə - minimum əmək haqqı məbləğinin iyirmi mislindən əlli beş mislinədək miqdarda cərimə edilir.

**Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 42-ci maddəsinə əsasən,** seçki komissiyası (referendumun keçirılməsi üzrə komissiya) üzvünün, müşahidəçilərin, vəkil edilmiş

şəxslərin, siyasi partiyaların, siyasi partiyaların bloklarının səlahiyyətli nümayəndələrinin, kütləvi-informasiya vasitələri nümayəndələrinin qanunvericiliklə müəyyen edilmiş hüquqlarını pozmağa görə - minimum əmək haqqı məbləğinin otuz beş mislindən altmış beş mislinədək miqdarda cərimə edilir.

**Başqasının yerinə səsin verilməsi məqsədilə seçki bülletenlərinin (səsvermə vəsiqələrinin) vətəndaşlara verilməsi və ya seçki bülletenlərinin (səsvermə vəsiqələrinin) qalıqlarının gizlədilməsi, yaxud onların əlavə tirajmın hazırlanması Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 43-cü maddəsinə əsasən inzibati məsuliyyət yaradır.** Belə ki, başqasının yerinə səsin verilməsi məqsədilə seçki komissiyasının (referendumun keçirilməsi üzrə komissiyanın) üzvü tərəfindən seçki bülletenlərinin (səsvermə bülletenlərinin) vətəndaşlara verilməsinə və ya onlara doldurulmuş seçki bülleteninin (səsvermə vəsiqələrinin) verilməsinə, yaxud birdən artıq seçki bülleteninin (səsvermə vəsiqələrinin) alınmasına imkan yaradılmasına görə - seçki komissiyasının (referendumun keçirilməsi üzrə komissiyanm) üzvü minimum əmək haqqı məbləğinin iyirmi mislindən otuz mislinədək miqdarda cərimə edilir.

Seçki bülletenlərinin (səsvermə vəsiqələrinin) qalıqlarının gizlədilməsinə və ya seçki komissiyasının qeydə almadığı seçki bülletenlərinin (səsvermə vəsiqələrinin) əlavə tirajının hazırlanmasına görə - minimum əmək haqqı məbləğinin iyirmi beş mislindən qırx mislinədək miqdarda cərimə edilir.

**Seçici siyahıları ilə vətəndaşların tanış olmaq hüququnun və digər hüquqlarının pozulması Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 44-cü maddəsinə əsasən məsuliyyət yaradır.** Belə ki, seçki komissiyasının (referendumun keçirilməsi üzrə komissiyanın) üzvü tərəfindən:

– vətəndaşların seçici siyahıları (referendumda iştirak etmək hüququ olan şəxslərin siyahısı) ilə tanış olması hüququnun pozulmasına;
– seçici siyahılarındakı (referendumda iştirak etmək hüququ

olan şəxslərin siyahısındakı) yanhşlıqlar haqqında vətəndaşların ərizələrinə qanunvericiliklə müəyyən edilmiş müddətdə baxılmamasına;

– seçici siyahılarına düzəlişlərin edilməsindən imtina barədə vətəndaşa yazılı şəkildə əsaslandırılmış cavab verilməməsinə;
– qeydiyyatdan keçmiş seçicilər barəsində məlumatların vaxtında rəsmiləşdirilməməsinə və dəqiqləşdirilməməsinə görə - seçki komissiyasının (referendumun keçirilməsi üzrə komissiyanm) üzvü minimum əmək haqqı məbləğinin qırx mislindən altmış mislinədək miqdarda cərimə edilir.

**Seçkilərdə (referendumda) iştirak etmək üçün məzuniyyətin verilməsindən imtina etmə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 45-ci maddəsi ilə məsuliyyət yaradır.** Belə ki, dövlət və ya yerli özünüidarəetmə orqanlarına seçkilərin hazırlanmasında və ya keçirilməsində onun iştirakmın təmin edilməsi məqsədilə deputatlığa və ya seçkili orqana (vəzifəyə) qeydə alınmış namizədə, namizədin vəkilinə və ya seçki komissiyasının (referendumun keçirilməsi üzrə komissiyanın) üzvünə qanunvericiliklə müəyyən edilmiş məzuniyyətin verilməsindən imtina etməyə görə - minimum əmək haqqı məbləğinin qırx mislindən altmış mislinədək miqdarda cərimə edilir.

Yerli özünüidarəetmə orqanlarına və ya deputatlığa seçilmiş şəxslərin dövlət vəzifələrinin icra edilməsi məqsədilə həmin şəxsləri işdən azad etməməyə görə- minimum əmək haqqı məbləğinin əlli mislindən yetmiş mislinədək miqdarda cərimə edilir.

**Seçki kampaniyasının maliyyələşdirilməsi və ya maliyyə hesabatlarının təqdim edilməsi qaydalarının pozulması Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 46-cı maddəsinə əsasən məsuliyyət yaradır.**

Belə ki, seçki kampaniyasının maliyyələşdirilməsinin qanunvericiliklə müəyyən edilmiş qaydalarının pozulmasına görə - minimum əmək haqqı məbləğinin on beş mislindən iyirmi beş mislinədək miqdarda cərimə edilir.

Seçkilərin hazırlanmasına və keçirilməsinə ayrılmış vəsaitlərin xərclənməsi hesabatları barədə namizədlər, qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları tərəfindən maliyyə hesabatlarının təqdim və ya dərc edilməməsinə görə - minimum əmək haqqı məbləğinin iyirmi mislindən otuz mislinədək miqdarda cərimə edilir.

**Anonim təşviqat materiallarının və ya reklamların hazırlanması və yayılması qaydalarının pozulması Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 47-ci maddəsinə əsasən məsuliyyət yaradır.**

Seçkiqabağı və ya referendum ilə bağlı nəşr və audiovizual təşviqat materiallarında bu materialları hazırlayan və hazırlanmasını sifariş edən təşkilatların adı, materialların tirajı və buraxılış tarixi barədə məlumatların gostərilməməsinə görə - minimum əmək haqqı məbləğinin on beş mislindən iyirmi beş mislinədək miqdarda cərimə edilir.

Siyasi partiyaların, siyasi partiyaların bloklarının, namizədlərin və ya qeydə alınmış namizədlərin yazılı formada razılığı olmadan seçkiqabağı nəşr materiallarının hazırlanmasına, yaxud yayılmasına görə - minimum əmək haqqı məbləğinin iyirmi mis\lindən otuz mislinədək miqdarda cərimə edilir.

Siyasi partiyalar, siyasi partiyaların blokları, namizədlər və ya qeydə alınmış namizədlər barəsində reklamların hazırlanmasının və yayılmasının, yaxud xeyriyyə xidməti göstərilməsinin qanunvericiliklə müəyyən edilmiş qaydalarının pozulmasına görə - minimum əmək haqqı məbləğinin iyirmi beş mislindən otuz beş mislinədək miqdarda cərimə edilir.

**Səsvermənin nəticələri və ya seçkilərin yekunları haqqında məlumatın təqdim edilməməsi və ya dərc olunmaması Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 48-ci maddəsinə əsasən məsuliyyət yaradır.**

Seçicilərin, qeydə alınmış namizədin, siyasi partiyaların, siyasi partiyaların bloklarının və namizədlərin vəkil edilmiş şəxslərinin, müşahidəçilərin, siyasi partiyaların, siyasi partiyaların

bloklarının səlahiyyətli nümayəndələrinin, kütləvi informasiya vasitələrinin nümayəndələrinin tələbi ilə onların tanış olmaları üçün müvafiq seçki komissiyasının sədrləri tərəfindən səsvermənin yekunlarına və nəticələrinə aid məlumatların təqdim edilməməsinə görə - minimum əmək haqqı məbləğinin əlli mislindən yetmiş mislinədək miqdarda cərimə edilir.

Səsvermənin yekunlarına və nəticələrinə aid məlumatların qanunvericiliklə nəzərdə tutulmuş qaydada və müddətdə dərc edilməməsinə görə - minimum əmək haqqı məbləğinin yetmiş mislindən doxsan mislinədək miqdarda cərimə edilir.

***İnsan hüquqiarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyanın Konvensiyaya və onun birinci Protokoluna artıq daxil edilənlərdən başqa bəzi hüquq və azadlıqların təmin olunmasına dair 4 saylı Protoholu***

**Maddə 1. Borca görə azadlıqdan məhrum etmənin qadağan olunması.**

*Heç kəsyalnız hər hansı müqavilə öhdəliyini ödəmək iqtidarında olmadığına əsasən azadlıqdan məhrum edilə bilməz.*

**Azərbaycan Respublikasının qanunvericilik sistemi**

«Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» Azərbaycan Respublikasının Konstitusiya Qanununun 4.6-cı maddəsinə əsasən, heç kəs yalnız hansısa mülki müqavilə öhdəliyini yerinə yetirməyə qadir olmadığına görə tutula, həbsə alına və ya azadlıqdan məhrum edilə bilməz.

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyaya dair 4 saylı Protokolu***

**Maddə 2. Hərəkət etmək azadlığı**

*1. Dövlətin ərazisində qanuni yerləşən hərkəsin həmin ərazidə sərbəst hərəkət etmək və özünə yaşayış yeri seçmək hüququ var.*

bloklarının səlahiyyətli nümayəndələrinin, kütləvi informasiya vasitələrinin nümayəndələrinin tələbi ilə onların tanış olmaları üçün müvafiq seçki komissiyasının sədrləri tərəfindən səsvermənin yekunlarına və nəticələrinə aid məlumatların təqdim edilməməsinə görə - minimum əmək haqqı məbləğinin əlli mislindən yetmiş mislinədək miqdarda cərimə edilir.

Səsvermənin yekunlarına və nəticələrinə aid məlumatların qanunvericiliklə nəzərdə tutulmuş qaydada və müddətdə dərc edilməməsinə görə - minimum əmək haqqı məbləğinin yetmiş mislindən doxsan mislinədək miqdarda cərimə edilir.

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyanın Konvensiyaya və onun birinci Protokoluna artıq daxil edilənlərdən başqa bəzi hüquq və azadlıqların təmin olunmasına dair 4 saylı Protokolu***

Maddə 1. Borca görə azadlıqdan məhrum etmənin qadağan olunması.

Heç kəs yalnız hər hansı müqavilə öhdəliyini ödəmək iqtidarında olmadığına əsasən azadlıqdan məhrum edilə bilməz.

**Azərbaycan Respublikasının qanunvericilik sistemi**

**«Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» Azərbaycan Respublikasının Konstitusiya Qanununun 4.6-cı maddəsinə əsasən, heç kəs yalnız hansısa mülki müqavilə öhdəliyini yerinə yetirməyə qadir olmadığına görə tutula, həbsə alına və ya azadlıqdan məhrum edilə bilməz.**

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdqfiəsi haqqında Konvensiyaya dair 4 saylı Protokolu***

**Maddə 2. Hərəkət etmək azadlığı**

1. Dövlətin ərazisində qanuni yerləşən hərkəsin həmin ərazidə sərbəst hərəkət etmək və özünə yaşayış yeri seçmək hüququ var.

## Azərbaycan Respublikasının qanunvericilik sistemi

**Azərbaycan Respublikası Konstitusiyasının 52-ci maddəsinə əsasən,** Azərbaycan dövlətinə mənsub olan, onunla siyasi və hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Azərbaycan Respublikasının ərazisində və ya Azərbaycan Respublikasının vətəndaşlarından doğulmuş şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Valideynlərindən biri Azərbaycan Respublikasının vətəndaşı olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır.

**Azərbaycan Respublikası Konstitusiyasının 53-cü maddəsinin I hissəsinə əsasən,** Azərbaycan Respublikasının vətəndaşı heç bir halda Azərbaycan Respublikasının vətəndaşlığından məhrum edilə bilməz.

**Azərbaycan Respublikası Konstitusiyasının 53-cü maddəsinin II hissəsinə əsasən,** Azərbaycan Respublikasının vətəndaşı heç bir halda Azərbaycan Respublikasından qovula və ya xarici dövlətə verilə bilməz.

**Azərbaycan Respublikası Konstitusiyasının 53-cü maddəsinin III hissəsinə əsasən,** Azərbaycan Respublikası onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarının hüquqi müdafiəsinə təminat verir və onlara hamilik edir.

Vətəndaşlıq hüququnun təminatı üçün Azərbaycan dövləti öz orqanlarının və vəzifəli şəxslərinin simasında Azərbaycan Respublikası vətəndaşları qarşısında məsuliyyət daşıyır.

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyaya dair 4 saylı Protokolu.***

**Maddə 3. Vətəndaşların məcburi çıxarılmasının qadağan olunması.**

*2. Heç kəs vətəndaşı olduğu dövlətin ərazisinə daxil olmaq hüququndan məhrum edilə bilməz.*

**Azərbaycan Respublikasının qanunvericilik sistemi**

**Azərbaycan Respublikası Konstitusiyasının 28-ci maddəsinin IV bəndinə əsasən,** Azərbaycan Respublikası vətəndaşının hər zaman maneəsiz öz ölkəsinə qayıtmaq hüququ var.

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyaya dair 4 saylı Protokolu.***

**Maddə 4. Əcnəbilərin kollektiv çıxarılmasının qarşısının alınması.**

*Əcnəbilərin kollektiv çıxarılması qadağandır.*

**Azərbaycan Respublikasının qanunvericilik sistemi**

**Azərbaycan Respublikası Konstitusiyasının 69-cu maddəsinə əsasən,** əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında olarkən, qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə ilə başqa hal nəzərdə turulmayıbsa, Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilər və bütün vəzifələri yerinə yetirməlidirlər.

Azərbaycan Respublikası ərazisində daimi yaşayan və ya müvəqqəti qalan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqları yalnız beynəlxalq hüquq normalarına və Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq məhdudlaşdırıla bilər.

Əcnəbilərin və vətəndaşbğı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında Azərbaycan Respublikasının Qanununun 27-ci maddəsinə əsasən, milli təhlükəsizliyin təmin olunması, ictimai əsayişin mühafizəsi, əhalinin səhhəti, hüquqları və mənafelərinin qorunması zəruriliyi olduqda və həmçinin Azərbaycan Respublikasının «Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında» qanunvericiliyin tələbləri kobud surətdə pozulduqda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslər

1 gündən 7 günədək müddətə müvafiq dövlət orqanının qərarına əsasən Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarıla bilər.

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyanın 7 saylı Protokolu***

**Maddə 1. Əcnəbilərin çıxarılmasına dair prosesual təminatlar**

*1. Qanuni əsaslarla dövlətin ərazisində yaşayan əcnəbi, qanuna müvafiq qəbul olunmuş qərarların icrası istisna olmaqla, oradan çıxarıla bilməzlər və aşağıdaküara malik olmalıdırlar.*

*a) onun çıxarılmasına qarşı arqumentlər təqdim etmək;*

*b) onun işinə yenidən baxılması imkanına malik olmaq və*

*c) bu məqsədlərə görə səlahiyyətli orqan qarşısında və ya belə orqanların təyin etdiyi şəxs, yaxud şəxslər qarşısında təmsil olunmaq.*

*2. Çıxarılma ictimai qaydanın maraqları üçün zəruri olduqda və ya milli təhlükəsizlik əsasları ilə şərtləndirildikdə, əcnəbi bu maddənin l.a, bvəc bəndindəki hüquqlarına əməl edilməmişdən əvvəl çıxarıla bilər.*

**Azərbaycan Respublikasının qanunvericilik sistemi**

**Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında Azərbaycan Respublikasının Qanununun 27-ci maddəsinə əsasən,** milli təhlükəsizliyin təmin olunması, ictimai əsayişin mühafizəsi, əhalinin səhhəti, hüquqları və mənafelərinin qorunması zəruriliyi olduqda və həmçinin Azərbaycan Respublikasının «Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında» qanunvericiliyin tələbləri kobud surətdə pozulduqda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslər 1 gündən 7 günədək müddətə müvafiq dövlət orqanının qərarına əsasən Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarıla bilər.

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyanın 7 saylı Protokolu***

**Maddə 2. Cinayət işlərində şikayət vermə hüququ**

1. Cinayət törətməyə görə məhkəmə tərəfindən məhkum edilmiş hər kəsin, barəsində çıxarılmış hökmə və ya cəzaya daha yuxarı məhkəmədə yenidən baxılması hüququ vardır.
2. Qanunla az əhəmiyyətli elan olunmuş cinayətlərlə bağlı və ya müvafiq şəxs artıq birinci instansiyada ən yuxarı məhkəmə tərəfindən məhkum edildikdə və ya onun bəraəti ilə bağlı məhkəmə baxışında məhkum edilibsə, bu hüquqdan istisnaya yol verilir.

**Azərbaycan Respublikasının qanunvericilik sistemi**

**Azərbaycan Respublikası Konstitusiyasının 65-ci maddəsinə əsasən, məhkəmənin** məhkum etdiyi hər bir şəxsin öz barəsində çıxarılmış hökmə qanunla nəzərdə tutulan qaydada yuxarı məhkəmədə yenidən baxılması, habelə özünün əfv edilməsi və cəzasının yüngülləşdirilməsi haqqında müraciət etmək hüququ vardır.

**«Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» Azərbaycan Respublikasının Konstitusiya Qanununun 5-ci maddəsi, şəxsin insan hüquqlarını və azadlıqlarını pozan qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının qərarlarından, bələdiyyə aktlarından Konstitusiya Məhkə-məsinə şikayət vermək hüququnu təsbit edir. Qanunun 5-ci maddəsinə əsasən,** hər kəs onun hüquqlarını və azadlıqlarını pozan və Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-6-cı və 8-ci bəndlərində nəzərdə tutulan qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının normativ qərarlarından və bələdiyyələrin normativ aktlarından qanunla müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə pozulmuş hüquq və azadlıqlarına dair şikayət verə bilər.

**Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin 10.2.12-ci maddəsinə əsasən,** Cəzaların icrası və çəkilməsi zamam məhkumların cəzanın çəkilməsinin təxirə salınması və ya onun ləğv edilməsi, xəstəliyə görə cəzanı çəkməkdən azad edilməsi, ittiham hökmünün icrası müddəti ilə əlaqədar cəza çəkməkdən azad edilməsi, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi, cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi, amnistiyanın tətbiq edilməsi, müalicə müəssisəsində saxlanma vaxtının cəzaçəkmə müddətinə daxil edilməsi, məhkumluğun vaxtından əvvəl götürülməsi üçün ərizə ilə məhkəməyə, əfv edilmək üçün isə Azərbaycan Respublikasının Prezidentinə bilavasitə və ya qanuni nümayəndələrinin vasitəsilə, habelə yetkinlik yaşına çatmayan və ya fiziki qüsurlardan, yaxud psixi xəstəlikdən əzab çəkən məhkumlar barəsində isə onların müdafiəçilərinin və qanuni nümayəndələrinin vasitəsilə müraciət etmək hüquqları vardır.

**Azərbaycan Respublikası Cinayət Prosesual Məcəlləsinin 35-ci maddəsinə əsasən,** Bu məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada cinayət prossesi iştirakçısının cinayət işinin və ya cinayət təqibi ilə bağlı digər materialm baxılmasında məhkəmənin qəbul etdiyi prosesual qərar və hərəkətlərdən yuxarı məhkəməyə şikayət etmək hüququ vardır.

***İnsan hüquqlarının və əsas azadlıqlarının* müdafiəsi haqqında Konvensiyanın 7 saylı Protokolu**

**Maddə 3. Məhkəmə səhvinə görə kompensasiya.**

**Şəxs cinayət əməli törətməyə görə yekun qərarla məhkum edildikdə və sonradan onun haqqında çıxarılmış hökm ləvğ edildikdə, yaxud o yeni və ya təzədən ortaya çıxmış faktın qəti olaraq məhkəmə səhvi olduğunu göstərməsi əsasında əhv edilibsə, belə məhkum etmə nəticəsində cəzaya məruz qalmış şəxs, əvvəllər məlum olmayan faktın vaxtında açılmaması onun tam və ya qismən günahı üzündən baş verməyibsə, qanuna və ya müvafiq dövlətin təcrübəsinə uyğun olaraq kompensasiya alır.**

**Azərbaycan Respublikasının**
**qanunvericilik sistemi**

**Azərbaycan Respublikası Konstitusiyasının 68-ci maddəsinə əsasən,** cinayət, habelə hakimiyyətdən sui-istifadə nəticəsində zərər çəkmiş şəxsin hüquqları qanunla qorunur. Zərər çəkmiş şəxsin ədalət mühakiməsinin həyata keçirilməsində iştirak etmək və ona vurulmuş zərərin ödənilməsini tələb etmək hüququ vardır. Hər kesin dövlət orqanlarının, yaxud onların vəzifəli şəxslərinin qanuna zidd hərəkətləri və ya hərəkətsizliyi nəticəsində vurulmuş zərərin dövlət tərəfindən ödənilməsi hüququ vardır.

**«Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» Azərbaycan Respublikasının Konstitusiya Qanunu 4-cü maddəsinə əsasən,**

- şəxsin səlahiyyətli məhkəmə tərəfindən məhkum olunduqdan sonra azadlıqdan məhrum edilməsi;
- şəxsin məhkəmənin qanuni qərarına əməl etməməyə görə və ya qanunla nəzərdə tutulan hər hansı öhdəliyin yerinə yetirilməsini təmin etmək məqsədilə qanuni tutulması və ya həbs edilməsi;
- şəxsin cinayət törətmiş olduğuna əsaslı şübhələr olduqda və ya onun hüquq pozuntusu törətməsinin və yaxud bu əməli törətdikdən sonra qaçıb gizlənməsinin qarşısını almağa əsaslı zərurət olduqda, səlahiyyətli məhkəmə orqanına gətirilməsi məqsədi ilə onun qanuni tutulması və ya həbs edilməsi;
- yetkinlik yaşına çatmamış şəxsin tərbiyəvi nəzarət məqsədi ilə qanuni qərar esasında azadlıqdan məhrum edilməsi və ya səlahiyyətli məhkəmə orqanına gətirilməsi üçün qanuni tutulması;
- yoluxucu xəstəlikləri yaymasının qarşısını almaq məqsədi ilə şəxslərin, habelə ruhi xəstələrin, alkoqolizmə və narkomanlığa düçar olmuş şəxslərin və ya avaralıqla məşğul olanların qanuni tutulması;
–

şəxsin ölkəyə qanunsuz gəlməsinin qarşısını almaq məqsədi ilə qanuni tutulması və ya həbs edilməsi, yaxud barəsində məcburi çıxarılma və ya ekstradisiya tətbirləri görülən şəxsin qanuni tutulması və ya həbs edilməsi hallarından başqa bu maddənin göstərişlərinə zidd olaraq tutulan və ya həbs olunan hər bir şəxsin iddia ilə təmin olunan kompensasiya hüququ vardır.

**Azərbaycan Respublikası Cinayət Prosesual Məcəlləsinin 36-cı maddəsi, bəraət qazanmış şəxsin pozulmuş hüquq-larının bərpasının təmin edilməsi əsaslarını müəyyən edir.**

Cinayət prosesinin gedişində CPM-nin 55, 56-cı maddələrində nəzərdə tutulmuş şəxslərin pozulmuş hüquq və azadlıqlarının bərpasını və onlara vurulmuş ziyanın ödənilməsini tələb etmək hüququ cinayət prosesini həyata keçirən orqan tərəfindən təmin edilməlidir.

Vəzifə səlahiyyətlərindən sui-istifadə və ya cinayət nəticəsində zərər çəkmiş, habelə təqsirsiz məhkum olunmuş, qanunsuz həbsdə saxlanılmış, yaxud cinayət prosesi gedişində hüquqları digər formada məhdudlaşdırılmış şəxslərin hüquqları CPM-si ilə və Azərbaycan Respublikasının digər qanunları ilə müəyyən edilmiş qaydada bərpa olunur.

**«Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında» Azərbaycan Respublikasının Qanunu** təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının və ya onların vəzifəli şəxslərinin qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın dövlət tərəfindən ödənilməsi hüququnun təmin edilməsinə yönəldilmişdir.

Bu Qanunun və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarının müddəalarına əsasən Azərbaycan Respublikasının ərazisində Azərbaycan Respublikasının təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanları tərəfindən hər hansı şəxsin qanunsuz olaraq:

1)

tutulması, müttəhim qismində cəlb edilməsi, həbsə alınması və saxlanılması, məhkum olunması, əmlakının müsadirə edilməsi;

2) barəsində olan cinayət işinin istintaqı ilə əlaqədar götürmə və axtarış aparılması, əmlakı üzərinə həbs qoyulması, işdən (vəzifədən) kənarlaşdırılması və ya onun hüquqlarını məhdudlaşdıran digər prosessual hərəkətlərin həyata keçirilməsi;
3) barəsində əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi;
4) barəsində islah işləri, inzibati həbs və ya cərimə növündə inzibati tənbeh tətbiq edilməsi nəticəsində həmin şəxsə vurulmuş ziyan ödənilməlidir.

Birinci hissədə nəzərdə tutulmuş hallarda vurulmuş ziyan təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının vəzifəli şəxslərinin təqsirindən asılı olmayaraq tam həcmdə ödənilir.

Fiziki şəxslərin hüquqlarmm və qanuni mənafelərinin, ictimai və dövlət mənafelerinin pozulması hallarının vaxtında aşkar edilməsi, qarşısının alınması və aradan qaldırılması məqsədilə təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarmm qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında qanunvericiliyin eyni cür və dürüst icrası dövlət tərəfındən qanunla nəzərdə tutulmuş qaydada təmin edilir.

**Vurulmuş ziyanın ödənilməsini tələb etmək hüququ aşağıdakı hallarda yaranır.**

1) bəraətverici hökm çıxarıldıqda;
2) cinayət hadisəsinin, əməldə cinayət tərkibinin olmaması və ya şəxsin cinayət törətməkdə iştirakının sübut edilməməsi ilə əlaqədar cinayət işinə xitam verildikdə və ya cinayət işinin başlanması rədd edildikdə;
3) inzibati hüquqpozma haqqında işə xitam verildikdə yaranır.

Əməliyyat-axtarış tədbirlərinin cinayət işi başlamazdan əvvəl keçirilməsi nəticəsində vurulmuş ziyanın ödənilməsi hüququ belə tədbirlər keçirildikdən dərhal sonra yaranır.

Vurulmuş ziyanın ödənilməsi hüququna malik olan şəxs vəfat etdikdə, qanunda nəzərdə tutulmuş hallarda vurulmuş ziyanın ödənilməsi hüququ Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada onun vərəsələrinə keçir.

Azərbaycan Respublikasmm ərazisində Azərbaycan Respublikasının təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanları tərəfindən hər hansı şəxsin qanunsuz olaraq:

- tutulması, müttəhim qismində cəlb edilməsi, həbsə alınması və saxlanılması, məhkum olunması, əmlakının müsadirə edilməsi;
- barəsində olan cinayət işinin istintaqı ilə əlaqədar götürmə və axtarış aparılması, əmlakı üzərinə həbs qoyulması, işdən (vəzifədən) kənarlaşdırılması və ya onun hüquqlarını məhdudlaşdıran digər prosessual hərəkətlərin həyata keçirilməsi;
- barəsində əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi;
- barəsində islah işləri, inzibati həbs və ya cərimə növündə inzibati tənbeh tətbiq edilməsi nəticəsində hər bir şəxsə: qanunsuz hərəkətlər nəticəsində onun itirdiyi mənfəət və digər gəlirlər; müsadirə olunmuş və ya məhkəmə tərəfindən dövlət nəfinə yönəldilmiş, yaxud təhqiqat və ya ibtidai istintaq orqanları, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlar tərəfındən götürülmüş, eləcə də üzərinə həbs qoyulmuş əmlak (o cümlədən, pul əmanətləri və onların faizi, qiymətli kağızlar və onlarm faizi, şəxsin iştirakçısı olduğu təsərrüfat birliyinin nizamnamə fondundakı payı və bu paya müvafiq olan əldə edilməmiş gəlir və digər dəyərlər); məhkəmə məsrəfləri ilə bağlı ondan tutulmuş məbləğlər; hüquqi yardımın göstərilməsi ilə əlaqədar ödənilmiş məbləğlər; vurulmuş mənəvi ziyan ödənilməlidir.

Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində şəxsin əmlakına vurulmuş ziyanın ödənilməsi dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir.

Qanununda nəzərdə tutulmuş ödənilməli olan məbləğlərin miqdarı şəxsin işdən (vəzifədən) kənarlaşdırıldığı, təyin olunmuş cəzanı çəkdiyi dövrdə əldə edilməmiş gəliri nəzərə almaqla müəyyən edilir.

Müsadirə olunmuş və ya məhkəmə tərəfindən dövlət nəfinə yönəldilmiş, yaxud təhqiqat və ya ibtidai istintaq orqanları, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlar tərəfindən götürülmüş, eləcə də üzərinə həbs qoyulmuş əmlak (o cümlədən, pul əmanətləri və onların faizi, qiymətli kağızlar və onların faizi, şəxsin iştirakçısı olduğu təsərrüfat birliyinin nizamnamə fondundakı payı və bu paya müvafiq olan əldə edilməmiş gəlir və digər dəyərlər) natura formasında, bu mümkün olmadıqda isə, onun dəyəri dövlət və ya onu əvəzsiz olaraq eldə etmiş müəssisə, idarə və təşkilatların hesabına ödənilir.

Evlərin və digər tikililərin dəyəri, yalnız bu əmlakın natura şəklində qalmadığı, şəxsin dəyərcə bərabər olan yaşayış sahəsinin və ya digər tikililərin əvəzsiz olaraq onun mülkiyyətinə verilməsindən imtina etdiyi hallarda və ya həmin şəxsin yaşayış evlərinin və digər tikililərin dəyərinin ödənilməsinə razılığı olduqda ödənilir. Yaşayış sahəsinin və digər tikililərin dəyəri mövcud bazar qiymətlərinə əsasən müəyyən edilir.

Əmlakın dəyəri onun ödənilməsi haqqında qərarın qəbul edildiyi vaxtda mövcud olan qiymət əsasında ödənilir. Əmlakın zədələnməsi və ya köhnəlməsi hallarında vurulmuş ziyan tam həcmdə ödənilməlidir.

Ödənilməli olan əmlakı əvəzsiz olaraq əldə etmiş müəssisənin, idarənin və təşkilatın ləğv edildiyi və ya vurulmuş ziyanın ödənilməsi üçün onların vəsaiti çatışmadığı hallarda, əmlakın dəyəri (əmlakın dəyərinin çatışmayan hissəsi) dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.

Qanunsuz məhkum edilməsi nəticəsində yaşayış sahəsindən istifadə etmə hüququndan məhrum edilmiş şəxsə müvafiq icra hakimiyyəti orqanları tərəfındən həmin yaşayış sahəsi bir ay müddətində, bu yaşayış sahəsi natura şəklində qalmadığı hallarda

isə, bununla əlaqədar edilmiş müraciətdən sonra altı ay müddətində həmin yaşayış məntəqəsində ailə tərkibi və yaşayış sahəsinə dair qüvvədə olan normalar nəzərə ahnmaqla növbədənkənar eyni dəyərli abadlaşdırılmış yaşayış sahəsi verilməlidir.

Ödənilməli olan əmlakı əldə etmiş şəxs, bu əmlakın vurulmuş ziyanın ödənilməsi qaydasında əvvəlki sahibinə qaytarılması ilə əlaqədar əvəzində dövlətdən abadlaşdırılmış, dəyərcə və bütün digər əlamətlərlə bərabər olan əmlakı və ya onun dəyərini tələb etmək hüququna malikdir. Belə tələb, irəli sürüldükdən sonra bir ay müddətindən gec olmayaraq dövlət tərəfindən təmin edilir.

Bununla əlaqədar bürün mübahisələr məhkəmə qaydasında həll olunur.

Şəxsin barəsində mənfı fıkrin formalaşmasına, onu əhatə edən şəxslərlə münasibətlərin pisləşməsinə gətirib çıxaran və digər mənəvi xarakterli mənfı nəticələr mənəvi ziyan hesab edilir.

Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində şəxsə vurulmuş mənəvi ziyan mülki qanunvericiliklə nəzərdə tutulmuş qaydada ödənilir.

Qanunsuz məhkum edilməsi və ya cinayət məsuliyyətinə cəlb edilməsi ilə əlaqədar işdən (vəzifədən) çıxarılmış və ya işdən (vəzifədən) kənarlaşdırılmış şəxs, əvvəlki işə (vəzifəyə) bərpa edilməli, bu mümkün olmadıqda isə, (müəssisənin, idarənin, təşkilatın ləğv edilməsi, vəzifənin ixtisar olunması) dövlət məşğulluq xidməti tərəfindən başqa müvafiq (əvvəlki işinə bərabər olan) işlə (vəzifə ilə) təmin edilməlidir.

Bu maddənin birinci hissəsində nəzərdə tutulmuş hallarda işdən (vəzifədən) çıxarılma haqqında əmək kitabçasında edilmiş qeyd etibarsız hesab olunur. Şəxsin tələbi ilə onun işdən (vəzifədən) çıxarılması haqqında əmək kitabçasında müvafiq qeyd aparmış orqan və ya onun vəzifəli şəxsi beş gün müddətində etibarsız hesab olunmuş qeydin olmadığı əmək kitabçasının dublikatını ona verməlidir.

Şəxsin cinayət və ya inzibati məsuliyyətə cəlb edilməsi, yaxud məhkum edilməsi haqqında məlumatlar dərc edildikdə onun tələbi ilə, həmin şəxs vəfat etdikdə isə onun qohumlarının, yaxud təhqiqat orqanının, müstəntiqin, prokurorun və məhkəmənin tələbi ilə bu məlumatları dərc etmiş orqan on gün müddətində qeyd olunan məlumatları təkzib etməlidir.

Şəxsin tutulma, həbsdə olma, cəza çəkmə müddətləri və işdən (vəzifədən) kənarlaşdırılması ilə əlaqədar işləmədiyi müddət həm ümumi əmək stajma, həm də ixtisas üzrə və fasiləsiz staja daxil edilir.

Fəhlələrin və dövlət qulluqçularının, eləcədə üzvlük əsasında (kooperativ və digər müəssisələrdə) işləmiş şəxslərin, bu maddənin birinci hissəsində göstərilmiş müddətlərin əlavə edilməsi şərtilə hesablanmış əmək stajı, həmin şəxslərə imtiyazların və müavinətlərin, o cümlədən təqaüdlərin və dövlət sosial sığortası üzrə ödənişlərin təyin edilməsi zamanı nəzərə alınır. Bu staj fəhlələrə və qulluqçulara imtiyazlı təqaüdlərin və xidmət işlərinə görə təqaüdlərin təyin edilməsi, ixtisas üzrə iş müddətinin davamından asılı olaraq aylıq maaş dərəcəsinin (vəzifə maaşının) müəyyən edilməsi və birdəfəlik mükafatlandırma və ya xidmət illərinə görə faiz artırmalarının ödənilməsi zamanı nəzərə alınmalıdır.

Şəxsin tutulma, həbsdə olma, cəza çəkmə müddətləri və işdən (vəzifədən) kənarlaşdırılması ilə əlaqədar işləmədiyi müddətlər, yaşla əlaqədər imtiyazlı təqaüdlərin teyin edilməsi zamanı, təqaüdün təyin edilməsi üçün müraciət etmiş şəxsin istəyi ilə, onun qanunsuz məhkum edilməsindən və ya cinayət, yaxud inzibati məsuliyyətə cəlb edilməsindən əvvəlki, yaxud cinayət və ya inzibati məsuliyyətdən və ya cəza çəkməkdən azad edilməsindən sonrakı işinə bərabər tutulur.

Qanunsuz məhkum edilməsi ilə əlaqədər hərbi və ya digər rütbələrdən, dərəcələrdən və adlardan, dövlət mükafatlarından və təltiflərdən məhrum edilmiş şəxsə həmin hərbi və ya digər rütbələr, dərəcələr və adlar, dövlət mükafatları və təltiflər geri qaytarılır.

Şəxs barəsində bəraətverici hökm çıxarıldıqda, cinayət hadisəsinin olmaması, əməlində cinayət tərkibinin olmaması və ya şəxsin cinayət törətməkdə iştirakının sübut edilməməsi ilə bağlı cinayət işinə xitam verildikdə və ya cinayət işinin başlanması rədd edildikdə, habelə inzibati hüquqpozma haqqında işə xitam verildikdə, təhqiqat orqanı, müstəntiq, prokuror, yaxud məhkəmə həmin şəxsə onun pozulmuş hüquqlarının bərpa edilməsi və vurulmuş ziyanın ödənilməsi qaydasını izah etməli və onun istəyi ilə bir ay müddətində öz qəran haqqında əmək kollektivinə mə lumat verməlidir.

Ziyanın məbləği qanunvericiliklə nəzərdə tutulmuş qaydada məhkəmə tərəfindən müəyyən edilir.

Şəxsin çıxarılmış qərarla razılaşmadığı hallarda, o Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həmin qərardan yuxarı məhkəməyə şikayət verə bilər.

Şəxsin müraciətinə əsasən vurulmuş mənəvi ziyanın ödənilməsi məsələsi mövcud qanunvericiliyə müvafiq olaraq məhkəmə tərəfindən bu maddənin birinci hissəsinə uyğun olaraq həll edilir.

İstintaq və ya inzibati icraat müddətində və ya cəza çəkdiyi dövrdə şəxsə vurulmuş mənəvi ziyanın ümumi məbləği Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məhkəmə tərəfindən müəyyən edilir.

Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi barədə işlər üzrə ziyan çəkmiş tərəf məhkəmə məsrəflərinin ödənilməsindən azad olunur.

Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində hərbi qulluqçulara vurulmuş ziyan **«Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında» Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq ödənilir.**

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyanın 7 saylı Protokolu***

**Maddə 4. İki dəfə məhkum edilməmək və ya cəzalandırılmamaq hüququ.**

*1. Heç kəs və ya hər hansı dövlətin qanunlarına və ya cinayət-prosesual normalarına müvafiq olaraq, artıq bəraət aldığı və ya məhkum edildiyi cinayətlərə görə, həmin dövlətin yurisdiksiyası çərçivəsində cinayət qaydasında təkrar məhkum edilə və ya cəzalandırıla bilməz.*

*2. Əvvəlki maddə, əgəryeni və ya təzədən ortaya çıxmış faktlar barəsində məlumatlar varsa və ya əvvəlki araşdırma zamanı işin gedişinə təsir göstərən əsaslı pozuntulara yol verilibsə, müvafiq dövlətin qanunlarına və cinayət-prosessual normalarına uyğun olaraq, işə təkrar baxılmasına mane olmur.*

*3. Konvensiyanın 15-ci maddəsinin müddəalarına müvafiq olaraq, bu maddədən geri çəkilməyə yol verilmir.*

**Azərbaycan Respublikasının qanunvericilik sistemi**

**Azərbaycan Respublikası Konstitusiyasının 64-cü maddəsinə əsasən,** heç kəs bir cinayətə görə təkrarən məhkum edilə bilməz.

**«Azərbaycan Respublikasında İnsan hüquq və azadbqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» Azərbaycan Respublikasının Konstitusiya Qanununun 2-ci maddəsinə əsasən,** Azərbaycan Respublikası Konstitusiyasının 27-ci maddəsində (müharibənin hüquqauyğun aparılması nəticəsində baş verən ölüm halları istisna olmaqla), 28-ci maddəsinin I hissəsində, 46-cı maddəsinin III hissəsində, 63-cü, 64-cü maddələrində və 71-ci maddəsinin VIII hissəsində nəzərdə tutulan hüquqlar məhdudlaşdırıla bilməz və onlara dair qeyd-şərtlər müəyyən edilə bilməz.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 8-ci maddəsinə əsasən, cinayət törətmiş şəxs haqqında tətbiq edilən cəza və ya digər cinayət-hüquqi xarakterli tədbirlər ədalətli olmalıdır, yəni cinayətin xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə, onun törədilməsi hallarına və cinayət törətməkdə təqsirli bilinən şəxsin şəxsiyyətinə uyğun olmalıdır.

Heç kəs eyni bir cinayətə göpə iki dəfə cinayət məsuliyyətinə cəlb oluna bilməz.

**Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 9-cü maddəsinə əsasən,** inzibati xəta törətmiş şəxs haqqında tətbiq edilən tənbeh ədalətli olmalıdır, yəni inzibati xətaların xarakterinə, onun törədilməsi hallarına uyğun, qanuni və əsaslı olmalıdır.

Bir inzibati xətaya görə heç kəs iki dəfə inzibati məsuliyyətə cəlb oluna bilməz.

***İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyanın 7saylı Protokolu***

**Maddə 5. Ər və arvadın hüquq bərabərliyi**

*Ərlə arvad bərabər hüquqlara malikdirlər və uşaqları ilə münasibətlərdə, nikaha daxil olmaq, nikahda olmaq və boşanma ilə bağlı bərabər mülki hüquqi cavabdehlik daşıyırlar. Bu maddə uşaqların maraqlarına riayət olunması üçün zəruri tədbirlər görməkdə dövlətlərə mane olmur.*

## Azərbaycan Respublikasının qanunvericilik sistemi

**Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin II hissəsinə əsasən,** kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır.

**Azərbaycan Respublikası Konstitusiyasının 34-cü maddəsinə əsasən,** ər ilə arvadın hüquqları bərabərdir. Uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək valideyinlərin həm hüququ həm də borcudur.

**Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 29-cu maddəsi ər və arvadın ailə münasibətlərində hüquq bərəbərliyini təsbit edir.**

Azərbaycan Respublikası Konstitusiyasında təsbit edilmiş qadın və kişinin hüquq bərabərliyinə uyğun olaraq ər və arvad ailə münasibətlərində bərabər şəxsi və əmlak hüquqlarına malikdirlər.

Analıq, atalıq, uşaqların tərbiyəsi və təhsili, eləcə də ailənin digər məsələləri ər arvadın hüquq bərabərliyi prinsipinə uyğun olaraq birgə həll edilir.

## İSTİFADƏ EDİLMİŞ NORMATİV HÜQUQİ AKTLAR


1. İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya - 4 noyabr 1950 - ci il.
2. İnsan hüquqlarının və esas azadlıqların müdafiəsi haqqında Konvensiyasının 1 saylı Protokolu - 20 mart 1952-ci il.
3. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyasının 4 saylı Protokolu - 16 oktyabr 1963-cü il.
4. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyasının Ölüm cəzasının ləğvinə dair 6 saylı Protokolu - 28 aprel 1983-cü il.
5. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyasının 7 saylı Protokolu - 22 noyabr 1984-cü il.
6. Azərbaycan Respublikası Konstitusiyası -12 noyabr 1995-ci il.
7. «Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» Azərbaycan Respublikasının Konstitusiya Qanunu 24 dekabr 2002-ci il.
8. Azərbaycan Respublikası Cinayət Məcəlləsi 30 dekabr 1999-cu il.
9. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi – 14 iyul 2000-ci il.
10. Azərbaycan Respublikasının Əmək Məcəlləsi 01 fevral 1999-cu il.
11. Azərbaycan Respublikası Cinayət Prosesual Məcəlləsi -14 iyul 2000-ci il.
12. Azərbaycan Respublikası Mülki Prosesual Məcəlləsi - 28 dekabr 1999-cu il.
13. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi 11 iyul 2000-ci il.
14. Azərbaycan Respublikasının Ailə Məcəlləsi 28 dekabr 1999-cu il.

15. Azərbaycan Respublikasında ölüm cəzasının ləğv olunması ilə əlaqədar «Azərbaycan Respublikası Cinayət, Cinayət Prosesual və İslah-Əmək Məcəllələrinə dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikasının Qanunu - 10 fevral 1998-ci il
16. «Polis haqqında Azərbaycan Respublikasının Qanunu 28 oktyabr 1999-cu il.
17. «Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu -11 dekabr 1998-ci il.
18. «Dini etiqad azadlığı haqqında Azərbaycan Respublikasının Qanunu 20 avqust 1992-ci il.
19. «Məlumat azadlığı haqqında Azərbaycan Respublikasının Qanunu-19 iyun 1998-ci il.
20. «Siyasi partiyalar haqqında Azərbaycan Respublikasının Qanunu 03 iyun 1996-cı il.
21. «Həmkarlar ittifaqları haqqında Azərbaycan Respublikasının Qanunu- 24 fevral 1994-cü il.
22. «Sərbəst toplaşmaq azadlığı haqqında Azərbaycan Respublikasının Qanunu-13noyabr 1998-ci il.
23. «Sahibkarlıq fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu - 15 dekabr 1992-ci il.
24. Azərbaycan Respublikasının Təhsil Qanunu - 07 oktyabr 1992-ci il.
25. «Azərbaycan Respublikasının vətəndaşlığı haqqında Azərbaycan Respublikasının Qanunu - 30 sentyabr 1998-ci il.
26. «Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında Azərbaycan Respublikasının Qanunu -13 mart 1996-cı il.
27. «Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında Azərbaycan Respublikasının Qanunu - 29 dekabr 1998-ci i1N:610-1Q

28. «Əhalinin sağlamlığının qorunması haqqında Azərbaycan Respublikasının Qanunu - 26 iyun 1997-ci il.
29. «Notariat haqqında Azərbaycan Respublikasının Qanunu - 26noyabr 1999-cu il.
30. «Vəkillər və vəkillik fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu - 28 dekabr 1999 - cu il.
31. «Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında Azərbaycan Respublikasının Qanunu - 5 iyul 2000-ci il.
32. «Azərbaycan Respublikası Prezidentinin seçkiləri haqqında Azərbaycan Respublikasının Qanunu - 9 iyun 1998-ciil.
33. Referendum haqqında Azərbaycan Respublikası Qanunu -30 dekabr 1997-ci il.
34. «Bələdiyyələrə seçkilərin qaydaları haqqında Azərbaycan Respublikası Qanunu - 2 iyun 1999-cu il.

**Aydın Məhəmməd oğlu Səfixanh**

İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa konvensiyasında insan hüquq və azadlıqları ilə bağlı müddəaların Azərbaycan Respublikasının qanunvericilik sistemində təsbiti

Yığılmağa verilmişdir 10.01.2003. Çapa imzalanmışdır 07.03. 2003. Ofset kağızı. Fiziki ç. v. 8. Format 60x90 1/16. Ofset çapı. Tiraj 500. Sifariş N»15.

«Azərnəşr» nəşriyyatı.
Bakı şəhəri, H. Hacıyev küçəsi 4.

«Atra» mətbəəsində çap olunmuşdur.
Bakı şəhəri, S.Vurğun küçəsi 110.